RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 124 (10144) 16 iyul 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycan xalqı həlledici anlarda da qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi

### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

2016-cı ilin 15 iyul tarixində Türkiyə Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı Vətənlərini qorumaq üçün həyatlarını qurban vermiş bütün şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edir, onların ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm.

On il əvvəl qardaş Türkiyə müasir tarixinin ən faciəli, eyni zamanda ən şərəfli səhifələrindən birini yazdı. Dövlətçiliyə, konstitusiya quruluşuna, milli iradəyə və demokratik əsaslara qarşı yönəlmiş xain çevriliş cəhdi Türkiyə xalqının sarsılmaz əzmi, mətinliyi və Vətənə sonsuz sədaqəti sayəsində qətiyyətlə dəf edildi. Minlərlə insanın meydanlara axışaraq sinəsini sipər etməsi, dövlətinə, bayrağına və milli dəyərlərinə sahib çıxması əsl qəhrəmanlıq dastanı kimi əbədi olaraq milli yaddaşa həkk olundu.

Sizin qətiyyətli və uzaqgörən liderliyiniz, xalqınızın Sizin ətrafınızda sıx birləşməsi, çağırışlarınıza dərhal və tərəddüdsüz cavab verməsi həmin taleyüklü gecədə ölkənizi böyük faciələrdən xilas edən əsas amillərdən oldu. Sizin rəhbərliyinizlə Türkiyə bu sınaqdan daha da güclənərək çıxdı, öz milli iradəsini və dövlətçilik ənənələrini bütün dünyaya bir daha nümayiş etdirdi.

O tarixi gündə baş verənlər sübut etdi ki, xalq ilə dövlətin birliyi qarşısında heç bir məkrli niyyət, heç bir dağıdıcı qüvvə davam gətirə bilməz. Məhz buna görə də hər il 15 iyulda qeyd edilən "Demokratiya və Milli Birlik Günü" xalqınızın milli həmrəyliyinin, mübarizlik ruhunun, dövlətçilik ənənələrinin və azadlıq iradəsinin simvoludur.

Azərbaycan xalqı və dövləti əziz mirasımız olan "Bir millət, iki dövlət" prinsipini rəhbər tutaraq həmişə olduğu kimi, o həlledici anlarda da qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi və onun yanında oldu. Bütün bunlar xalqlarımızın qardaşlığının və birliyinin nə qədər güclü və sarsılmaz olduğunu bir daha təsdiqlədi.

Əminəm ki, nəsillərdən-nəsillərə ərməğan qalan güclü Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da möhkəmlənəcək, strateji müttəfiqliyimiz bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və yeni məzmunla zənginləşməyə davam edəcəkdir.

Əziz Qardaşım, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Türkiyə Respublikasına əmin-amanlıq, firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2026-cı il*

## Bakı-Bratislava tərəfdaşlığı yeni mərhələyə keçir

### Azərbaycan-Slovakiya münasibətləri çoxşaxəli etibarlı əməkdaşlığa və qarşılıqlı etimada əsaslanır



Prezident İlham Əliyev Slovakiyanın dövlət başçısı Peter Pelleqrini ilə görüşdən sonra keçirilən birgə mətbuat konfransında iki ölkə arasında yüksəksəviyyəli əlaqələrin inkişaf etdiyini, siyasi təmasların müntəzəm xarakter aldığını bildirib: "Bu qədər fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir. 2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir".

Azərbaycan Prezidentinin də vurğuladığı kimi, ikitərəfli münasibətlərin əsas hərəkətverici qüvvəsi dövlət başçılarının siyasi iradəsidir. 2024-cü il mayın 6-da Slovakiyanın Baş naziri Robert Fitsonun Bakıya rəsmi səfəri çərçivəsində imzalanmış Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə Bakı-Bratislava əlaqələrinin hüquqi-siyasi təməlini ən yüksək səviyyəyə qaldırdı. Bu sənədin ardınca siyasi təmaslar daha da intensivləşdi. Prezident İlham Əliyev 2025-ci il dekabrın 8-də Slovakiyaya rəsmi səfər etdi və Bratislavada enerji, müdafiə sənayesi, investisiya və digər məsələlər ətrafında geniş müzakirələr aparıldı.

Rəsmi Bratislava da Bakı ilə qurulan münasibətlərə xüsusi önəm verir. Slovakiya Prezidenti Peter Pelleqrini öz bəyanatında bu tərəfdaşlığın mahiyyətini belə ifadə edib: "Slovakiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sadə formal bəyannamə deyil. Ölkələrimiz arasında münasibətlər standart diplomatik əlaqələrin hüdudlarını keçir. Biz, həqiqətən, dost ölkələrik. Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq".

Qeyd edək ki, iki ölkə arasında tərəfdaşlığın təməli ötən əsrin 90-cı illərinin əvvəllərində qoyulub. Slovakiya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 24-də tanıyıb, diplomatik münasibətlər isə 1993-cü il noyabrın 23-də rəsmiləşib. Ötən dövr ərzində əlaqələrin institusional bazası mərhələli şəkildə gücləndirilib. 2019-cu ildə Bakıda, 2023-cü ildə isə Bratislavada səfirliklər təsis edilib. Səfirliklərin açılması siyasi, iqtisadi və humanitar sahələrdə birbaşa təmasların qurulmasında katalizator rolunu oynayıb.

Siyasi münasibətlərin dərinləşməsində parlament diplomatiyası da mühüm çəkiyə malikdir. Milli Məclisdə fəaliyyət göstərən Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu və Slovakiya parlamentindəki müvafiq dostluq qrupu qanunverici orqanlar arasında davamlı dialoqu və qarşılıqlı dəstəyi təmin edir.

6




## Birəsrlik irsdən yeni strateji mərhələyə: türk dünyasının gələcək inkişaf istiqamətləri

Bir əsr əvvəl Bakıda səsləndirilən ideyalar bu gün daha geniş miqyasda həyata keçirilir. Əgər 1926-cı ildə əsas məqsəd türk xalqları arasında elmi əlaqələrin qurulması idisə, bu gün artıq məqsəd ortaq iqtisadi, siyasi, humanitar və rəqəmsal məkan yaratmaqdır. Türk Dövlətləri Təşkilatı məhz bu strateji məqsədlərin həyata keçirilməsi üçün mühüm platforma rolunu oynayır. I Türkoloji Qurultayın 100 illiyi göstərdi ki, ortaq tarix yalnız keçmişin xatirəsi deyil, gələcəyin inkişaf strategiyasıdır.

Keçirilən tədbirlər türk dünyasının ortaq gələcək əməkdaşlığının əsas istiqamətlərini də müəyyənləşdirdi. Bu yubiley 1926-cı ildə Bakıda əsası qoyulan ideyaların zamanın sınağından çıxaraq müasir dövrdə daha geniş məzmun kəsb etdiyini və TDT-nin humanitar inteqrasiya siyasətinin mühüm ideoloji dayaqlarından birinə çevrildiyini göstərdi.

9

## Azərbaycan qlobal əməkdaşlıq mərkəzidir

### **Prezident İlham ƏLİYEV:** "Azərbaycan etibarlı tərəfdaş kimi tanınır və beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfələr verir"

Forumlar zamanı Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər ölkənin xarici siyasət prioritetləri, milli təhlükəsizlik strategiyası, enerji diplomatiyası, nəqliyyat-logistika layihələri və beynəlxalq münasibətlər sistemində tutduğu mövqe barədə əhatəli təsəvvür yaradır.

Dövlətimizin başçısı IV forumun da mahiyyətinin təkcə dünyanın müxtəlif ölkələrindən gələn media nümayəndələrinin fikir mübadiləsi aparması ilə məhdudlaşmadığını vurğuladı. Onun sözlərinə görə, bu platformanın əsas missiyalarından biri Qarabağda aparılan bərpa və yenidənqurma işlərini beynəlxalq ictimaiyyətə yerində göstərməkdir. Əgər ilk forumlarda qonaqlar müharibənin viran qoyduğu şəhər və kəndlərin acı mənzərəsinin şahidi olurdularsa, bu gün onların qarşısında tamamilə fərqli bir reallıq açılır. Müasir yaşayış məntəqələri, sürətlə inşa olunan infrastruktur, dirçələn şəhərlər və doğma yurdlarına qayıdan insanların həyatı Qarabağın yeni inkişaf mərhələsinin ən aydın göstəriciləridir.




Bununla yanaşı, dövlət başçısı IV forumda Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətlərindən biri olan nəqliyyat və logistika siyasətinə də diqqət çəkdi. O, bu sahədə həyata keçirilən layihələrin ölkənin regional və beynəlxalq mövqeyini daha da gücləndirdiyini vurğuladı. Təbii ki, tranzit ölkəyə çevrilmək təkcə əlverişli coğrafi mövqeyə malik olmaq demək deyil. Bu status ilk növbədə qonşu dövlətlərlə qarşılıqlı etimada, etibarlı tərəfdaşlığa və uzunmüddətli əməkdaşlığa söykənən siyasətin nəticəsidir. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə formalaşan "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri, Xəzər hövzəsində ən böyük ticarət limanının fəaliyyəti, eləcə də gəmiqayırma sənayesinin inkişafı ölkənin regional logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirib. Bu layihələr Azərbaycanın qlobal yükdaşımalarında etibarlı tərəfdaş kimi rolunu artırmaqla yanaşı, regionda iqtisadi əməkdaşlığın və bağlantıların genişlənməsinə də mühüm töhfə verir.

Məhz bu strateji yanaşma fonunda qlobal nəqliyyat marşrutlarında baş verən dəyişikliklər Azərbaycanın rolunu ön plana çıxarır. Şərqi Avropa və Yaxın Şərqdə ənənəvi logistika xətlərinin müxtəlif risklərlə üzləşdiyi bir dövrdə, Qərblə Şərq arasında fasiləsiz ticarət əlaqələrinin təmin edilməsində Orta dəhlizin əhəmiyyəti getdikcə artır. Bu reallıq Azərbaycanın beynəlxalq nəqliyyat-logistika sistemində etibarlı və strateji tərəfdaş kimi mövqeyini bir qədər də gücləndirir.

5



## Böyük qayıdışın qürur doğuran reallıqları

2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfərlə Azərbaycan yalnız ərazilərini işğaldan azad etmədi. Bu qələbə regionun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən tamamilə yeni mərhələnin başlanğıcı oldu. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma işləri miqyasına, sürətinə və strateji yanaşmasına görə dünyanın diqqətini cəlb edən nümunələrdən biridir. Dağıdılmış infrastrukturun qısa müddətdə bərpası, yenidən şəhər və kəndlərin salınması, müasir kommunikasiya şəbəkələrinin yaradılması, sosial obyektlərin tikintisi, iqtisadi fəaliyyətin təmin edilməsi və əhalinin doğma torpaqlarına mərhələli şəkildə qaytarılması vahid dövlət siyasətinin əsas istiqamətlərini təşkil edir.

Keçmiş məcburi köçkünlər mərhələli olaraq doğma torpaqlarına qovuşurlar. Artıq 9359 ailə, ümumilikdə 37771 nəfər doğma yurdlarına qayıdıb. Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzurda hazırda 80 mindən çox insan yaşayır və çalışır. Bu rəqəmlər yalnız statistik göstəricilər deyil. Onların hər biri uzun illərin həsrətindən sonra əzəli torpaqlarına geri dönən insanların həyat hekayəsini, ailələrin yenidən doğma mühitdə bir araya gəlməsini və gələcəyə inamını ifadə edir.

9

# Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743, № 11, maddə 1011; 2026, № 3, maddə 211; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli və 21 aprel tarixli 387-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 45.3-cü maddənin ikinci cümləsində "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin.

2. 86.2.13-cü maddəyə "törətməyən" sözündən sonra "aşkar" sözü əlavə edilsin və həmin maddədə "təhqiqat başlanmasından 10 (on) gündən, bu Məcəllənin 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 20 (iyirmi)" sözləri "məlumatın daxil olduğu vaxtdan 30 (otuz)" sözləri ilə əvəz edilsin.

3. 207.7-ci maddədə "şikayətlərə" sözü "məlumatlara" sözü ilə əvəz edilsin.

4. 217.1-ci maddəyə "və ya" sözlərindən sonra "bu Məcəllənin 214.1.1-ci maddəsində nəzərdə tutulan" sözləri əlavə edilsin.

5. 218.1-ci maddənin ikinci cümləsində "şikayətin daxil olduğu vaxtdan 10 (on) gün müddətində, bu Məcəllənin 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 20 (iyirmi)" sözləri "məlumat daxil olduğu vaxtdan 30 (otuz)" sözləri ilə əvəz edilsin.

6. 293-cü maddə üzrə:

6.1. adında"şikayətin" sözü "məlumatın" sözü ilə əvəz edilsin;

6.2. 293.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"293.1. Bu Məcəllənin 214.4-cü və 214.4-1-ci maddələrində nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər haqqında məlumatlar (ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər üzrə zərər çəkmiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsinin şikayəti, ictimai ittiham qaydasında təqib olunan cinayətlər üzrə isə bu Məcəllənin 204-206-cı maddələrində nəzərdə tutulmuş şəxslərin məlumatları) yazılı və ya şifahi formada təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir.";

6.3. 293.2-ci maddədə "şikayət" sözü "məlumat" sözü ilə, "şikayəti" sözü "məlumatı" sözü ilə əvəz edilsin;

6.4. 293.3-cü maddə üzrə:

6.4.1. birinci abzasda "şikayətdə" sözü "məlumatda" sözü ilə, "şikayətin" sözü "məlumatın" sözü ilə əvəz edilsin;

6.4.2. 293.3.1-ci maddədə "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin və həmin maddəyə "vəzifəsi" sözündən sonra ", hüquqi şəxsin adı, olduğu yer və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi" sözləri əlavə edilsin;

6.4.3. 293.3.4-cü, 293.3.6-cı və 293.3.7-ci maddələrdə ismin müvafiq hallarında "şikayət" sözü ismin müvafiq hallarında "məlumat" sözü ilə əvəz edilsin;

6.5. 293.4-cü maddə üzrə:

6.5.1. birinci cümlədə "şikayət" sözü "bu Məcəllənin 204-206-cı maddələrində nəzərdə tutulmuş məlumat" sözləri ilə, "şikayətdə" sözü "məlumatda" sözü ilə əvəz edilsin;

6.5.2. ikinci cümlədə "Şikayət" sözü "Məlumat" sözü ilə, "şikayəti" sözü "məlumatı" sözü ilə əvəz edilsin.

7. 293-1-ci maddə üzrə:

7.1. 293-1.0-cı maddənin birinci abzasına "şəklində" sözündən sonra "açılmasına və ya" sözləri əlavə edilsin;

7.2. 293-1.0.4-cü maddədə "təqsirləndirilən" sözü "cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş" sözləri ilə əvəz edilsin.

8. 294-cü maddə üzrə:

8.1. adında"cinayət üzrə şikayətə" sözləri "aşkar cinayət üzrə məlumata" sözləri ilə əvəz edilsin;

8.2. 294.1-ci maddə üzrə:

8.2.1. 294.1.1-ci maddədə "şikayəti" sözü "məlumatı" sözü ilə əvəz edilsin;

8.2.2. 294.1.2-ci maddədə "yazılı şikayətə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokola dərkənar qoymaqla şikayətin daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraat açmaq" sözləri "məlumatın daxil olduğu vaxtdan 48 saatdan gec olmayaraq cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılması haqqında qərar qəbul etmək" sözləri ilə əvəz edilsin;

8.3. 294.1.3-cü maddədə"şikayətin" sözü "məlumatın" sözü ilə, "24" rəqəmləri "48" rəqəmləri ilə əvəz edilsin;

8.4. 294.1.4-cü maddədə"şikayətin" sözü "məlumatın" sözü ilə, "şikayəti" sözü "məlumatı" sözü ilə, "24" rəqəmləri "48" rəqəmləri ilə əvəz edilsin və həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

8.5. aşağıdakı məzmunda 294.1.5-ci maddə əlavə edilsin:

"294.1.5. cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılması haqqında qərar müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qəbul edildikdə onu aidiyyəti üzrə təhqiqat orqanına göndərmək.";

8.6. 294.3-cü maddədə "şikayətə" sözü "məlumata" sözü ilə əvəz edilsin;

8.7. 294.4-cü maddə üzrə:

8.7.1. 294.4.1-ci maddədə "şikayət" sözü "məlumat" sözü ilə, "onun şikayəti üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılması barəsində" sözləri "məhkəməyədək sadələşdirilmiş icraatın açılması barəsində 24 saat müddətində" sözləri ilə əvəz edilsin;

8.7.2. 294.4.2-ci maddədən "şikayətə dair" sözləri çıxarılsın və həmin maddədə "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin.

9. 295-ci maddə üzrə:

9.1. 295.1-ci maddədə "şikayətin" sözü "məlumatın" sözü ilə, "10 (on)" sözləri "30 (otuz)" sözləri ilə əvəz edilsin;

9.2. 295.3-cü maddədən "şikayətin daxil olduğu vaxtdan 20 (iyirmi) gün müddətində" sözləri çıxarılsın;

9.3. 295.4.1-ci maddədə "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin.

10. 296.2.3-cü maddədə "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin və həmin maddəyə ikinci halda "yer" sözündən sonra ", hüquqi şəxsin adı, olduğu yer və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi" sözləri əlavə edilsin.

11. 297-ci maddə üzrə:

11.1. 297.0.1-ci maddədə"dərhal" sözü "daxil olduğu gündən 48 saat ərzində" sözləri ilə,"şikayətin" sözü "məlumatın" sözü ilə və "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilsin;

11.2. 297.0.4-cü maddəyə "çıxarmaq" sözündən sonra "və ya cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar mövcud olduqda bu Məcəllədə müəyyən edilmiş qaydada cinayət təqibinə xitam verilməsi məsələsinə baxmaq" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

# "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026-2030-cu illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət qurumlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026-2030-cu illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

3.1. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

3.2. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 371-VIIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanında və "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamında dəyişiklik edilməsi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 aprel tarixli 644 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21, № 4, maddə 393, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1370; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1036; 2026, № 1, maddə 24, № 4, maddə 308) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 2-ci hissəsinə aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. Prokurorluq orqanı:

2.9.1. Qanunla müəyyən edilmiş hallarda uşaqların hüquqlarını və qanuni mənafelərini məhkəmədə müdafiə edir, dövlət qurumlarına müraciət edir, məhkəmədə iddia qaldırır;

2.9.2. uşaqlarla bağlı cinayət işləri və inzibati xəta haqqında işlər üzrə qanunla müəyyən edilmiş hallarda və qaydada qanunların icrasına nəzarəti həyata keçirir;

2.9.3. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 72.2-ci və 116-1.5-ci maddələrinin birinci cümlələrinə uyğun olaraq, uşağın sağlamlığının və ya həyatının birbaşa təhlükədə olması ilə bağlı qəyyumluq və himayəçilik orqanlarının və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına baxır və qanunda nəzərdə tutulmuş tədbirləri görür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28, № 3, maddə 228, № 8, maddə 777; 2026, № 2, maddə 128) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.22-1-ci və 3.1.22-2-ci yarımbəndlər əlavə edilsin:

"3.1.22-1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, müvafiq ərazidə dayanacaq məntəqələri istisna olmaqla, avtomobil nəqliyyatının infrastruktur obyektlərinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına dair rəy vermək;

3.1.22-2. müvafiq ərazidə müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsini, onların quraşdırılmasını, idarə olunmasını və saxlanılmasını təmin etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; 2026, № 1, maddələr 36, 41, № 2, maddələr 117, 123, № 3, maddələr 221, 223, 226, № 4, maddə 306; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli və 7 iyul tarixli 715 nömrəli fərmanları) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.36-1-ci bənddə "və 381.13-cü" sözləri ", 381.13 və 388-3-cü (mediada yayılmasına münasibətdə)" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 5.37-1-ci bənd əlavə edilsin:

"5.37-1. həmin Məcəllənin 388-3-cü maddəsində (internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılmasına münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;".

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (l kitab), maddələr 1294, 1295, (ll kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; 2026, № 1, maddə 41, № 2, maddə 117, №3, maddələr 223, 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli, 19 iyun tarixli 686 nömrəli və 7 iyul tarixli 715 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "354.0.8-354.0.10," rəqəmlərindən sonra "388-3 (internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılmasına münasibətdə)," sözləri əlavə edilsin;

2.2. 13.0-cı bənd 13.1-ci bənd hesab edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 13.2-ci bənd əlavə edilsin:

"13.2. Məcəllənin 388-3-cü maddəsində (audiovizual media subyektləri tərəfindən mediada yayılmasına münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - Şuranın sədri.";

2.3.13-1.1-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 13-1.2-ci bənd əlavə edilsin:

"13-1.2. Məcəllənin 388-3-cü maddəsində (audiovizual media subyektləri istisna olmaqla, digər media subyektləri tərəfindən mediada yayılmasına münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - Agentliyin icraçı direktoru, onun müavini.".

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226, № 4, maddə 307; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli, 2 iyun tarixli 676 nömrəli və 19 iyun tarixli 686 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 57.1-ci bənddə "Respublikasının Ədliyyə Nazirliyi Aparatının İcra şöbəsinin rəisi" sözləri "Respublikası Ədliyyə Nazirliyi Aparatının icra üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 58-5-ci və 58-6-cı hissələr əlavə edilsin:

"58-5. Məcəllənin 528-3.6-cı maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında işlər üzrə protokol - xüsusi icra məmuru.

58-6. Məcəllənin 528-3.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının İcra xidmətinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının icra üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2026-cı il*

# "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 69 (Cild I)aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissə ləğv edilsin;

1.2.11.2-ci bənddən ", habelə növbəti illərin dövlət büdcəsində nəzərdə tutulacaq" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 7, maddə 658, № 9, maddə 817, № 11, maddə1018, № 12 (I kitab), maddə 1151; 2026, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli 673 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 2 -"Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 20.2 - 20.4-cü bəndlər ləğv edilsin;

2.2. aşağıdakı məzmunda 34-1-ci hissə əlavə edilsin:

"34-1. "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs üzrə:

34-1.1. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru;

34-1.2. "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti İdarə Heyətinin sədri.".

3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I); 2024, № 2, maddələr 147, 158, № 6 (I kitab), maddə 654, №7, maddələr 814, 815, № 8, maddələr 937, 948) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"nin 6.1.13-cü yarımbəndində "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki" sözləri "Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə verilmiş" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749, № 11, maddə 1018; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər planı" hissəsinin 2.3.1-ci yarımbəndinin 2-ci abzasının "Digər icraçılar" sütununa "ƏƏSMN," akronimindən sonra "AZCON," akronimi əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360; 2025, № 4 (I kitab), maddə 330; 2026, № 2, maddə 128; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsinə "ASK Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"AZCON Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)";

5.2. "10. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsi üzrə:

5.2.1."Əsas icraçı qurum" sütununa "qurum" sözündən sonra ", fəaliyyət istiqamətinə uyğun olaraq" sözləri əlavə edilsin;

5.2.2. 2.3.5-ci, 4.5.1-ci, 4.5.3-cü və 4.5.5-ci yarımbəndlərin birinci abzaslarının "Əsas icraçı qurum" sütununa "RİNN" akronimindən sonra ", AZCON" akronimi əlavə edilsin;

5.2.3. 4.3.4-cü yarımbəndin "Digər icraçılar" sütununa "ETN" akronimindən sonra ", AZCON" akronimi əlavə edilsin;

5.2.4. 5.1.4-cü yarımbəndin birinci abzasının, 5.1.6-cı yarımbəndin, 6.1.2-ci yarımbəndin birinci abzasının və 6.3.1-ci yarımbəndin "Digər icraçılar" sütununda "RİNN" akronimi "AZCON" akronimi ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379, №7, maddə 692; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8.7.1-ci və 8.7.5-ci yarımbəndlərin "Digər icraçılar" sütununa "RİNN" akronimindən sonra ", AZCON" akronimi əlavə edilsin;

6.2. 8.7.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "NMR NK" akronimindən sonra ", AZCON" akronimi əlavə edilsin;

6.3. 8.7.3-cü və 8.7.4-cü yarımbəndlərin "Digər icraçılar" sütununda "RİNN" akronimi "AZCON" akronimi ilə əvəz edilsin;

6.4. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsinə "AZAL-Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyəti" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"AZCON -"Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)".

7. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1147; 2026, № 3, maddə 259) ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da aşağıdakı dəyişikliklər edilsin:

7.1. "9. 2024-2027-ci illərdə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanın"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsi üzrə:

7.1.1. 9.1.1.1-ci, 9.1.2.1-ci,9.1.2.2-ci, 9.1.3.2 - 9.1.3.4-cü və 9.5.3.2-ci abzasların "Digər icraçılar" sütununda"RİNN" akronimi "AZCON" akronimi ilə əvəz edilsin;

7.1.2. 9.1.1.3-cü abzasın "Digər icraçılar" sütununa "Azərenerji" ASC" sözlərindən sonra ", AZCON" akronimi əlavə edilsin;

7.1.3. 9.1.3.1-ci abzasın "Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)" sütununda "RİNN" akronimi "AZCON" akronimi ilə əvəz edilsin;

7.2. "10. Akronimlər və ixtisarlar" hissəsinə "Azərenerji" ASC - "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"AZCON -Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2026-cı il*

◆ Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri

# Baş nazir Əli Əsədov Slovakiya Prezidenti Peter Pelleqrini ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 15-də Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Prezident Peter Pelleqrininin Azərbaycana rəsmi səfərinin və səfər çərçivəsində iki ölkənin dövlət başçıları arasında Şuşada keçirilmiş danışıqların Azərbaycan-Slovakiya strateji tərəfdaşlıq münasibətlərinin inkişafına mühüm təkan verəcəyi vurğulanıb.

Slovakiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində, xüsusilə Ağdam rayonunun Baş Qərvənd kəndinin tikintisində iştirakının önəmi qeyd olunub.

Slovakiya tərəfindən Baş Qərvənd kənd tam orta məktəb binasının inşa edilərək Azərbaycan tərəfinə hədiyyə olunması təşəbbüsü yüksək qiymətləndirilərək buna görə minnətdarlıq bildirilib.

Azərbaycan ilə Slovakiya arasında siyasi, ticarət-iqtisadi, investisiya, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və yeni birgə layihələrin həyata keçirilməsi perspektivləri müzakirə olunub.

# Slovakiya Prezidenti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

Azərbaycanda rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 15-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.



AZƏRTAC xəbər verir ki, Slovakiya Prezidenti Ulu Öndərin məzarı önünə əklil qoyub.

Prezident Peter Pelleqrini həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramını ifadə edib, məzarı üzərinə tər güllər düzüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

# Slovakiya Prezidenti Bakıda şəhidlərin xatirəsini anıb

**Azərbaycanda rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 15-də Şəhidlər xiyabanını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Azərbaycan paytaxtının mənzərəsini seyr edən Slovakiya Prezidentinə Şəhidlər xiyabanının tarixi, bu məkanın xalqımızın yaddaşında tutduğu xüsusi yer və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Slovakiya Prezidenti "Sea Breeze"lə tanış olub

**İyulun 15-də Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Xəzər dənizinin sahilində yerləşən "Sea Breeze" istirahət mərkəzində olub.**



AZƏRTAC xəbər verir ki, "Sea Breeze"in təsisçisi Emin Ağalarov Slovakiya dövlətinin başçısına kurort ərazisində həyata keçirilən və qarşıdakı dövr üçün planlaşdırılan layihələr barədə məlumat verib.

Hazırda 500 hektar ərazini əhatə edən "Sea Breeze"də indiyədək 3 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. Ötən dövr ərzində kompleksin ərazisində 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. Ərazidə artıq 20 min sakin yaşayır və 2028-ci ilə qədər onların sayı 50 mindən çox olacaq. Bütövlükdə layihə tam başa çatdırıldıqdan sonra burada 500 min sakinin yaşaması nəzərdə tutulur.



İstirahət zonaları, parklar və çimərliklər üçün artıq 150 hektardan çox ərazi ayrılıb. Kurort-şəhərdə sakinlər və qonaqlar üçün rahat şəraitin yaradılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili məqsədilə zəruri infrastruktur qurulub, məktəb, uşaq bağçası, xəstəxana tikilib. Aparılan abadlıq işləri çərçivəsində təxminən 10 milyon bitki və ağac əkilib, nəticədə yaşıllıq sahələrinin ümumi ərazisi 300 hektara çatıb.

Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən və müxtəlif formatda çoxsaylı daşınmaz əmlak obyektlərini bir araya gətirən "Sea Breeze" dünya miqyasında nadir layihə hesab olunur.

# Azərbaycanla Slovakiya arasında dostluq münasibətləri və siyasi dialoq yüksək səviyyədədir

**Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 15-də ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimizi birləşdirən dostluq münasibətlərindən və qarşılıqlı faydalı əməkdaşlıqdan bəhs edən Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, son illərdə Azərbaycan ilə Slovakiya arasında münasibətlər dinamik inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. O bildirib ki, 2024-cü ildə imzalanmış Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə əməkdaşlığın müxtəlif istiqamətlər üzrə uğurla inkişafı üçün möhkəm əsas yaradıb. Spiker fəal siyasi dialoqun, ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin bu prosesdə mühüm rol oynadığını vurğulayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ilin dekabr ayında Slovakiyaya həyata keçirdiyi ilk rəsmi səfərin, eləcə də Prezident Peter Pelleqrininin ölkəmizə cari rəsmi səfərinin Azərbaycan-Slovakiya münasibətlərinin inkişafında yeni mərhələ açdığını qeyd edib.



Milli Məclisin Sədri Sahibə Qafarova Prezident Peter Pelleqrininin ilə əvvəlki illərdə keçirilmiş görüşlərini məmnunluqla xatırlayıb. O, Slovakiya Milli Şurasının Sədri, daha sonra isə Slovakiyanın Baş naziri kimi Azərbaycana səfər etmiş Peter Pelleqrininin bu dəfə Slovakiya Respublikasının Prezidenti qismində ölkəmizə rəsmi səfərinin, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevlə Şuşada keçirdiyi danışıqların ikitərəfli münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib. Spiker bu səfərin Azərbaycan-Slovakiya əlaqələrinin daha da möhkəmlənməsinə və əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Söhbətdə humanitar sahədə, xüsusilə təhsil və mədəniyyət istiqamətlərində əməkdaşlığın əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu sahələr xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayır. Cari ilin oktyabr ayından etibarən Bakı ilə Bratislava arasında birbaşa aviareyslərin açılmasının xalqlar arasında əlaqələrin inkişafına və yeni əməkdaşlıq imkanlarının yaranmasına əhəmiyyətli töhfə verəcəyi vurğulanıb.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın Azərbaycan-Slovakiya münasibətlərinin mühüm istiqamətlərindən biri olduğu vurğulanıb. Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, qanunverici orqanlar arasında qarşılıqlı səfərlər və müntəzəm təmaslar ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verir. Beş il əvvəl Slovakiyaya həyata keçirdiyi rəsmi səfəri məmnunluqla xatırlayan spiker, bu ilin may ayında Slovakiya Milli Şurasının Sədri Rixard Raşinin Azərbaycana rəsmi səfəri zamanı parlamentlər arasında Anlaşma Memorandumunun imzalanmasını yüksək qiymətləndirib. O bildirib ki, bu sənəd parlamentlərarası münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət edir.

Görüşdə parlamentlərarası dostluq qrupları arasında da əlaqələrin əhəmiyyəti vurğulanaraq, parlamentlərin profil komitələri arasında əməkdaşlığın genişləndirilməsi və beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə söz açan Milli Məclisin Sədri Sahibə Qafarova həmçinin Slovakiyanın Qarabağın bərpası prosesinə verdiyi töhfəni yüksək qiymətləndirib. O, Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiya şirkəti tərəfindən həyata keçirilən "ağıllı kənd" layihəsinin ölkələrimiz arasında uğurlu praktiki əməkdaşlığın bariz nümunəsi olduğunu bildirib. Qeyd olunub ki, ötən gün iki ölkə Prezidentinin iştirakı ilə Ağdam rayonunda təməli qoyulan tam orta məktəb Azərbaycan ilə Slovakiya arasında dostluğun daha bir rəmzinə çevriləcək.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfərindən və Milli Məclisdə olmaqdan məmnunluğunu ifadə edib. Ali qonaq qeyd edib ki, 2018-ci ildə Slovakiyanın Baş naziri kimi Azərbaycana həyata keçirdiyi səfərdən sonra onun rəhbərlik etdiyi hökumət ölkəsinin Azərbaycanda səfirlik açması barədə qərar qəbul edib. O bildirib ki, bu addım Slovakiya ilə Azərbaycan arasında münasibətlərin inkişafına verilən önəmin ifadəsi olub. Prezident Peter Pelleqrininin bu gün ölkələrimiz arasında dostluq münasibətlərinin və siyasi dialoqun yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkəsinin Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Qeyd olunub ki, bu baxımdan son iki il ərzində Slovakiyanın üç ali dövlət rəsmisinin Azərbaycana həyata keçirdikləri səfərlər bunun bariz nümunəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə həyata keçirdiyi rəsmi səfərin Şuşa şəhərindən başlanmasının xüsusi rəmzi məna daşıdığını qeyd edən Prezident Peter Pelleqrini bildirib ki, Avropa İttifaqına üzv ölkənin Prezidenti qismində Şuşaya rəsmi səfər edən ilk dövlət başçısı olmaq onun üçün xüsusi qürur mənbəyidir. O, Şuşada keçirilmiş görüş və müzakirələrin, eləcə də əldə olunmuş razılaşmaların ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Ali qonaq Qarabağda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərindən müsbət təəssüratlarını bölüşərək, Slovakiya şirkətlərinin bu prosesə töhfəsini və həyata keçirdikləri layihələri ölkələrimiz arasında uğurlu əməkdaşlığın bariz nümunəsi kimi dəyərləndirib. Ağdamda tikiləcək tam orta məktəbə Slovakiyanın görkəmli şəxsiyyətinin adının verilməsini qürurverici hadisə adlandıran Prezident Peter Pelleqrini bunun Slovakiya ilə Azərbaycan arasında dostluğun və qarşılıqlı hörmətin daha bir təzahürü olduğunu bildirib.

Söhbət zamanı Milli Məclisin Sədri ilə müxtəlif zamanlarda keçirdiyi görüşləri məmnunluqla xatırlayan ali qonaq parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunaraq, parlamentlərin aidiyyəti komitələri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Sonda o, Milli Məclisin Sədrini yenidən Slovakiyaya rəsmi səfərə dəvət edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Slovakiya Prezidentinin Azərbaycana səfəri başa çatıb

**Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin Azərbaycan Respublikasına rəsmi səfəri iyulun 15-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Prezidenti Peter Pelleqrinini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.



# Baş nazir Əli Əsədov Qətərin Azərbaycandakı səfirliyində olub

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 15-də Qətər Dövlətinin ölkəmizdəki səfirliyində olub.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ə.Əsədov Qətər Dövlətinin görkəmli dövlət xadimi, Ata Əmir Əlahəzrət Şeyx Həməd bin Xəlifə Al Taninin vəfatı ilə əlaqədar səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazıb, Qətərin Azərbaycandakı səfiri ilə söhbət edərək başsağlığı verib.

## Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan bir sıra müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 215** **Bakı şəhəri, 14 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.8-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri" təsdiq edilsin (əlavə olunur).

2. "Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Lift Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri" təsdiq edilsin (əlavə olunur).

3. "Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində İşıqlandırma Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri" təsdiq edilsin (əlavə olunur).

4."Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində YaşıllaşdırmaTəsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri" təsdiq edilsin (əlavə olunur).

5. Müəyyən edilsin ki, bu Qərarın 1-4-cü hissələrində nəzərdə tutulan müəssisələrin nizamnamə kapitalı Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində müvafiq olaraq mənzil-kommunal, lift, işıqlandırma və yaşıllaşdırma təsərrüfatı sahələrində xidmət göstərən qurumların əmlakı hesabına formalaşır.

6. Bakı Şəhər İcra Hakimiyyəti üç ay müddətində:

6.1. tabeliyində olan mənzil-kommunal, lift, işıqlandırma və yaşıllaşdırma təsərrüfatı sahələrində xidmət göstərən qurumların əsasında məhdud məsuliyyətli cəmiyyəti statusunda müvafiq olaraq Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin, Lift Təsərrüfatı Müəssisəsinin, İşıqlandırma Təsərrüfatı Müəssisəsinin və YaşıllaşdırmaTəsərrüfatı Müəssisəsinin (bundan sonra - Müəssisələr) yaradılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

6.2. Müəssisələrin nizamnaməsinin hazırlanmasını təmin etsinlər və müvafiq qaydada təsdiq edilməsi üçün zəruri tədbirlər görsünlər;

6.3. Müəssisələrin strukturunu və ştat vahidlərini bu Qərarın 1-4-cü hissələri nəzərə alınmaqla təsdiq edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

6.4. Müəssisələrin işçilərinin aylıq vəzifə maaşlarının məbləğini dövlət büdcəsindən maliyyələşdirilən sahələr üçün müəyyən edilmiş Vahid Tarif Cədvəlinə uyğun müəyyən etsin;

6.5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) publik hüquqi şəxsin informasiya ehtiyatlarının və sistemlərinin imkanlarından istifadə etməklə, Bakı şəhərinin ərazisində müntəzəm sanitar təmizlik aparılan sahələrin və xidmət göstərilən yaşıllaşdırma sahələrinin həcmini müəyyən edərək müvafiq məlumatların Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin;

6.6. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

7. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Bakı OPEC+ çərçivəsində Əməkdaşlıq Xartiyası üzrə Texniki Komitənin ilk iclasına evsahibliyi edib

**İyulun 15-də Bakıda OPEC+ çərçivəsində Əməkdaşlıq Xartiyası (CoC) üzrə Texniki Komitənin ilk iclası keçirilib.**





AZƏRTAC xəbər verir ki, Azərbaycanın evsahibliyi ilə təşkil olunan iclasa OPEC-in Baş katibi Haysam Əl-Qays sədrlik edib. Neft hasil edən 20 ölkənin nümayəndələrini bir araya gətirən tədbirdə çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, dünya neft sənayesinin beşiyi olan Bakıda Əməkdaşlıq Xartiyası üzrə Texniki Komitənin ilk iclasının keçirilməsi Azərbaycanın qlobal enerji əməkdaşlığındakı roluna, eləcə də OPEC+ çərçivəsində etibarlı və məsuliyyətli tərəfdaş kimi qazandığı nüfuza verilən yüksək qiymətin ifadəsidir.

"İnanırıq ki, bu görüş OPEC+ çərçivəsində dialoqun və qarşılıqlı etimadın daha da möhkəmlənməsinə, qlobal neft bazarında sabitliyin və proqnozlaşdırıla bilənliyin qorunmasına, eləcə də uzunmüddətli əməkdaşlığın inkişafına mühüm töhfə verəcək. Xüsusilə neftə tələbatın yüksək olaraq qaldığı, kəşfiyyat və hasilat sektoruna investisiyaların azalmasının isə gələcək bazar sabitliyi üçün yeni risklər yaratdığı bir dövrdə belə dialoq platformaları hər zamankından daha böyük əhəmiyyət daşıyır. Çünki neft qlobal iqtisadiyyatın və enerji təhlükəsizliyinin əsas sütunlarından biri olaraq qalır və qarşıdakı onilliklərdə də bu strateji rolunu qoruyacaq",- deyə nazir əlavə edib.

OPEC-in Baş katibi Haysam Əl-Qays isə deyib ki, iştirakçı ölkələrin Əməkdaşlıq Xartiyasının potensialının tam reallaşdırılması istiqamətində qəti öhdəliyi bu gün bir daha aydın şəkildə nümayiş etdirildi. Haysam Əl-Qays həmçinin əsas neft istehlakçıları ilə dialoqun təşviqi, neft bazarında sabitliyin dəstəklənməsi, texnologiya, innovasiya və investisiya sahələrində əməkdaşlığın gücləndirilməsi vasitəsilə Əməkdaşlıq Xartiyasının məqsədlərinin tam şəkildə reallaşdırılması və praktiki həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, bu yanaşma neft istehsalçıları, istehlakçılar, investorlar və bütövlükdə qlobal iqtisadiyyat üçün mühüm faydalar təmin edəcək. Baş katib bütün nümayəndələrə dəyərli töhfələrinə və davamlı öhdəliklərinə görə təşəkkür edib, həmçinin bugünkü ilk iclasa evsahibliyi etdiyinə görə Azərbaycana OPEC Katibliyi adından səmimi minnətdarlığını bildirib.

Texniki Komitənin ilk iclasında bazarın fundamental amilləri, enerji dialoqu, texnologiya, innovasiya, investisiyalar, siyasət və tənzimləmə, eləcə də sənaye standartları ilə bağlı fəaliyyət və proqramları əhatə edən Əməkdaşlıq Xartiyasının hərtərəfli iş planı müəyyən edilib. İş planında gələcək fəaliyyətlər, təşəbbüslər və iclaslar öz əksini tapıb.

İclas 2025-ci ilin noyabrında keçirilmiş OPEC və qeyri-OPEC ölkələrinin 40-cı Nazirlər İclasında əldə olunmuş qərarların davamı olaraq təşkil edilib. Həmin toplantıda Əməkdaşlıq Xartiyasının çərçivəsi təsdiqlənmiş və OPEC Katibliyinə Xartiyanın məqsədlərinin tam reallaşdırılmasını təmin etmək üçün plan hazırlamaq və onu proqramlara çevirmək tapşırılmışdı.

Qeyd edək ki, Əməkdaşlıq Xartiyası 2019-cu il iyulun 2-də keçirilmiş OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin 6-cı iclasında Əməkdaşlıq Bəyannaməsinin iştirakçısı olan OPEC və qeyri-OPEC ölkələri tərəfindən imzalanıb. Xartiyanın imzalanması Əməkdaşlıq Bəyannaməsinin uğurunun yaratdığı müsbət dinamikanı tamamlayaraq əməkdaşlığın yeni mərhələsinin əsasını qoyub. 2025-ci ilin fevral ayında Əməkdaşlıq Bəyannaməsinə qoşulan Braziliya da daxil olmaqla Əməkdaşlıq Bəyannaməsinin bütün iştirakçıları Əməkdaşlıq Xartiyasının üzvləridir.

# Slovakiya Azərbaycanla iqtisadi əlaqələrin inkişafında maraqlıdır

## Bakıda Azərbaycan-Slovakiya biznes-forumu keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Slovakiyanın Baş nazirinin müavini, iqtisadiyyat naziri xanım Denisa Sakova ilə görüşüb.**







AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Slovakiya arasında strateji tərəfdaşlığın inkişafı, yüksəksəviyyəli təmasların və iqtisadi dialoqun ikitərəfli əməkdaşlığın genişlənməsinə verdiyi töhfə, həmçinin bu istiqamətdə qarşılıqlı təşəbbüslərin önəmi vurğulanıb.

Tərəflər biznes və ticarət əlaqələrinin fəal dəstəklənməsi, enerji tədarükünün şaxələndirilməsi, sənaye, turizm, rəqəmsallaşma sahələrində birgə fəaliyyətin və investisiyaların təşviqi imkanlarını müzakirə ediblər.

Daha sonra Azərbaycan və Slovakiyanın iqtisadiyyat nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Slovakiyanın İnvestisiyalar və Ticarətin İnkişafı Agentliyinin (SARIO) birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan-Slovakiya biznes-forumu keçirilib. Tədbirdə hər iki ölkədən rəsmilər və sənaye, əczaçılıq, maliyyə, kənd təsərrüfatı, İKT, turizm, nəqliyyat, logistika, səhiyyə, daşınmaz əmlak və digər sahələri təmsil edən 100-ə yaxın şirkət nümayəndəsi iştirak ediblər.

Biznes-forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında strateji tərəfdaşlığın iqtisadi əlaqələrin inkişafı üçün möhkəm zəmin yaratdığını bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində artan rolu, əlverişli işgüzar mühiti, nəqliyyat-logistika imkanları, eləcə də investorlar üçün təqdim edilən güzəştlər işbirliyi üçün yeni imkanlar açır.

Azərbaycanda investorlar üçün yaradılan fürsətlər barədə məlumat verilib. Ticarət, investisiya, sənaye, enerji, rəqəmsal texnologiyalar, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, birgə istehsalın təşviqi və yeni investisiya layihələrinin həyata keçirilməsi üçün geniş potensialın olduğu vurğulanıb. Diqqətə çatdırılıb ki, hər iki ölkənin dövlət başçılarının iştirakı ilə Ağdamda Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlinin qoyulması və həmin kənddə "Ağıllı kənd" layihəsinin icrası iki ölkə arasında əməkdaşlığın uğurlu nümunəsidir.

Nazir Qarabağın bərpasına verdiyi töhfəyə görə Slovakiya tərəfinə təşəkkürünü ifadə edib, forumun yeni biznes əlaqələrinin qurulmasına, qarşılıqlı investisiyaların artmasına və iqtisadi işbirliyinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Slovakiyanın Baş nazirinin müavini, iqtisadiyyat naziri Denisa Sakova ölkəsinin Azərbaycanla iqtisadi əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb. Qeyd olunub ki, iki ölkənin biznes dairələri arasında birbaşa təmasların artırılması, qarşılıqlı investisiya imkanlarının dəyərləndirilməsi və prioritet sahələr üzrə səmərəli əməkdaşlığın genişləndirilməsi ikitərəfli iqtisadi münasibətlərin daha da möhkəmlənməsinə töhfə verə bilər.

Forumda çıxış edən AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və SARIO-nun xarici ticarət departamentinin rəhbəri Daniel Ondruş iki qurum arasında ixrac və investisiyaların təşviqi, biznes dialoqunun dəstəklənməsi və şirkətlər arasında əlaqələrin qurulması istiqamətində əməkdaşlığın davam etdiyini vurğulayıblar. Qeyd olunub ki, forum hər iki ölkədən müxtəlif sahələri təmsil edən şirkət və qurumları bir araya gətirərək yeni tərəfdaşlıqların formalaşdırılması üçün praktiki platforma rolunu oynayır.

Slovakiyalı həmkarlar bu ilin sentyabrında ölkəmizdə keçirilməsi planlaşdırılan İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda iştiraka dəvət olunublar. Həmçinin Azərbaycan Turizm Bürosu və "Slovakia Travel" milli turizm təşkilatı arasında işbirliyinin inkişafını nəzərdə tutan Əməkdaşlıq Memorandumu imzalanıb.

Forumda Azərbaycan və Slovakiyanın biznes və investisiya imkanlarına dair təqdimatlar keçirilib. Biznes-forum B2B formatda görüşlərlə davam edib.

# Milli Məclisdə Rumıniya nümayəndə heyəti ilə görüş keçirilib

**İyulun 15-də Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev IV Şuşa Qlobal Media Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Rumıniya Parlamenti Senatının Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun üzvü Kristian Avqustin Nikulesku Tsıqırlaş ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azay Quliyev Azərbaycan ilə Rumıniya arasında münasibətlərin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayaraq, dövlət başçıları və parlamentlər səviyyəsində intensiv fəal siyasi dialoqun mövcud olunduğunu bildirib. O qeyd edib ki, qarşılıqlı rəsmi səfərlər və yüksəksəviyyəli təmaslar ikitərəfli əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verir. Bu baxımdan hər iki ölkənin parlament sədrlərinin qarşılıqlı səfərləri məmnunluqla xatırlanıb və parlament diplomatiyasının inkişafında belə təmasların xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.

Öz növbəsində Kristian Avqustin IV Şuşa Qlobal Media Forumunda iştirakdan xoş təəssüratlarını bölüşərək, Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edib. O, dövlətlərimiz arasında iqtisadi, nəqliyyat-logistika, səhiyyə, biznes, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişaf perspektivlərindən söz açıb.

Müzakirələrdə Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Nigar Arpadarai və Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare çıxış edərək, ikitərəfli münasibətlərin mövcud səviyyəsini yüksək qiymətləndiriblər, müxtəlif sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş potensialın olduğunu bildiriblər.

Görüş zamanı Azərbaycan və Rumıniyanın parlamentlərarası dostluq qrupları arasında səmərəli əməkdaşlığın davam etdirilməsinin, qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin genişləndirilməsinin iki ölkə arasında əlaqələrin inkişafına mühüm töhfə verəcəyi vurğulanıb.

***"Azərbaycan"***

# CAR mediası Azərbaycanın üzləşdiyi mina problemindən yazıb

**Cənubi Afrika Respublikasının (CAR) nüfuzlu və geniş oxucu auditoriyasına malik aparıcı xəbər saytlarından olan "Independent Online"da (İOL) tanınmış jurnalist Zingisa Mkhumanın müəllifliyi olduğu "Azərbaycanın mina problemi: siyasi məqamlar, tərəqqi və gələcək yol" sərlövhəli məqalə dərc edilib.**

Ölkəmizin CAR-dakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, məqalədə Azərbaycanın dünyanın ən ağır böhranlarından biri olan mina çirklənməsi ilə mübarizə apardığı qeyd edilib. Diqqətə çatdırılıb ki, Ermənistanın təxminən 30 il davam edən hərbi işğalından sonra ölkə azad edilmiş ərazilərində basdırılmış bir milyondan çox mina və saysız-hesabsız partlayıcı maddəni təmizləmək kimi çətin vəzifə ilə üzləşib. Problemin miqyası sarsıdıcı və dəhşətlidir. Sorğular göstərir ki, Azərbaycanın ümumi ərazisinin 14 faizə yaxını hələ də minalarla çirklənmiş olaraq qalır. Bu, həm həyat üçün təhlükə yaradır, həm də sosial-iqtisadi inkişafa və köçkün əhalinin təhlükəsiz qayıtmasına ciddi maneə törədir.

Xəbərdə həmçinin qeyd edilib ki, 2020-ci ildən 2025-ci ilin dekabrına qədər baş verən 250-dən mina hadisəsi 400-dən çox insanın müxtəlif dərəcəli bədən xəsarəti alması və ya həyatını itirməsi ilə nəticələnib. Qurbanlar arasında 14 uşaq və gənc, eləcə də qadınlar var. Son 30 ildə ümumilikdə 3400-dən çox Azərbaycan vətəndaşı minaların qurbanı olub.

Z.Mkhuman məqalədə Azərbaycanın mina problemi ilə bağlı çətinliklərin aradan qaldırılması üçün kompleks tədbirləri özündə əks etdirən proqram hazırladığını vurğulayıb. Eyni zamanda bildirilib ki, insan tələfatından başqa, minalar ekosistemə də mənfi təsir göstərir. Qarabağda bir milyondan çox mina flora və faunanı məhv edib. Partlayışlar plastik tullantıları səpələyir, münbit torpaqları korlayır və su mənbələrini çirkləndirir. Minalar həmçinin meşə yanğınlarına da səbəb ola bilir.

Müəllif onu da qeyd edib ki, hazırda xarici töhfələr minimal olaraq qalır və təmizləməni sürətləndirmək, habelə zərərçəkənlərə yardım göstərmək, eləcə də təhlükəsiz köçürülməni təmin etmək üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsi çox vacibdir.

"Xüsusilə diqqətəlayiqdir ki, Azərbaycan parlaq Qələbə qazandığı 44 günlük Vətən müharibəsindən sonra modernləşmə və genişmiqyaslı inkişaf layihələrini davam etdirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun ən dinamik və perspektivli ölkələrindən birinə çevrilib. Strateji cəhətdən əhəmiyyətli Zəngəzur dəhlizi də daxil olmaqla, yeni nəqliyyat dəhlizləri bu bölgələri milli və regional iqtisadi sistemlərə inteqrasiya edir, onların uzunmüddətli davamlılığını gücləndirir", - deyə məqalədə vurğulanıb.

Bundan əlavə, CAR-ın "Cape Times" qəzetində "Azərbaycanın mina problemi" adlı məqalə dərc olunub.

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu

## Azərbaycan istiqamətverici aktora çevrilib

**Şuşa artıq təkcə Azərbaycanın, türk və islam dünyasının mədəniyyət paytaxtı kimi deyil, həm də qlobal fikir mübadiləsinin, beynəlxalq dialoqun və media əməkdaşlığının mühüm mərkəzlərindən biri kimi tanınır. Tarixi və mədəni irsi ilə seçilən bu şəhər son illərdə beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi etməklə, regional və qlobal səviyyədə nüfuz qazanıb. Bu baxımdan artıq ənənə halını alan Şuşa Qlobal Media Forumu informasiya məkanında baş verən sürətli dəyişikliklərin, rəqəmsal transformasiyanın, süni intellektin media sahəsinə təsirinin, dezinformasiya ilə mübarizənin, jurnalistikanın gələcəyinin və beynəlxalq əməkdaşlıq imkanlarının müzakirə olunduğu nüfuzlu platformalardan biri kimi xüsusi əhəmiyyət daşıyır.**



**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, forum hər il dünyanın müxtəlif ölkələrindən media rəhbərlərini, tanınmış jurnalistləri, ekspertləri bir araya gətirərək qlobal informasiya gündəmində yer alan aktual məsələlər ətrafında geniş fikir mübadiləsinə şərait yaradır: "Burada yeni kommunikasiya texnologiyalarının tətbiqi, informasiya təhlükəsizliyi, media savadlılığının artırılması və qlobal informasiya mühitində etibarlı məlumatın roluna dair ətraflı müzakirələr aparılır. Şuşa Qlobal Media Forumu, eyni zamanda ölkələr arasında media sahəsində əməkdaşlığın genişlənməsinə, peşəkar təcrübə mübadiləsinin gücləndirilməsinə və qarşılıqlı etimadın möhkəmləndirilməsinə mühüm töhfə verir. Forum çərçivəsində keçirilən panel müzakirələr, çıxışlar və ikitərəfli görüşlər müxtəlif baxışların səsləndirilməsi üçün əlverişli imkan yaradır, qlobal çağırışlara qarşı ortaq yanaşmaların formalaşdırılmasına xidmət edir. Forum təkcə beynəlxalq media nümayəndələrinin görüş platforması deyil, həm də müasir informasiya mühitinin inkişaf istiqamətlərinin müəyyənləşdirildiyi, əməkdaşlığın dərinləşdirildiyi və qlobal media gündəminə töhfə verən nüfuzlu beynəlxalq tədbirlərdən biri kimi öz mövqeyini möhkəmləndirib".

Deputat bildirib ki, hər il ənənəvi olaraq keçirilən Şuşa Qlobal Media Forumunun mövzularına diqqət yetirdikdə hər dövrün çağırışlarını özündə ehtiva etdiyi daha aydın görünür. Belə ki, ötən il Xankəndi şəhərində "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumu keçirildi. 2024-cü ildə keçirilən II Şuşa Qlobal Media Forumu "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunu əhatə etdi. 2023-cü ildə I Şuşa Qlobal Media Forumu isə "IV Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunu müzakirə etdi.

Bu forum mövzuları ilə yanaşı, iştirakçıların sayı ilə də diqqətdədir. "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumu bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 53 ölkədən 160 qonaq, o cümlədən 30 xəbər agentliyinin nümayəndələrinin, 60-dan artıq media qurumunun, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilatın iştirakı forumun beynəlxalq nüfuzunun ildən-ilə artmasının, Şuşanın isə qlobal media əməkdaşlığının mühüm mərkəzlərindən birinə çevrilməsinin təsdiqidir. Ümumiyyətlə, son dörd il ərzində forum 81 ölkənin 600-ə yaxın media nümayəndəsini bir araya gətirib.

V.Rəhimzadə bildirib ki, Şuşa Qlobal Media Forumunun ənənə halını almış ən mühüm xüsusiyyətlərindən biri Prezident İlham Əliyevin forum iştirakçıları ilə açıq dialoq formatında görüş keçirməsi və yerli, eləcə də xarici media nümayəndələrinin suallarını birbaşa cavablandırmasıdır: "Bu baxımdan forum dövlət başçısı ilə beynəlxalq media arasında açıq, şəffaf və səmərəli ünsiyyət üçün mühüm platforma rolunu oynayır. Açıq sual-cavab formatı jurnalistlərə onları maraqlandıran məsələləri heç bir məhdudiyyət olmadan səsləndirmək, Prezident İlham Əliyevə birbaşa müraciət etmək və aktual mövzularla bağlı ətraflı məlumat əldə etmək imkanı yaradır. Forumda dünyanın müxtəlif ölkələrindən gəlmiş nüfuzlu media qurumlarının rəhbərləri, tanınmış jurnalistlər və analitiklər Azərbaycanın daxili və xarici siyasəti, regionda baş verən geosiyasi proseslər, Cənubi Qafqazda sülh və təhlükəsizlik məsələləri, iqtisadi inkişaf strategiyası, enerji və nəqliyyat layihələri, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, eləcə də beynəlxalq əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı suallarını dövlət başçısına ünvanladılar. Eyni zamanda qlobal gündəmdə yer alan çağırışlar, beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər və müasir informasiya mühitinə dair məsələlər də müzakirələrin əsas mövzuları sırasında yer aldı".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin suallara cavabları, səsləndirdiyi fikirlər və verdiyi mesajlar həm yerli, həm də beynəlxalq media tərəfindən geniş işıqlandırılıb, dünyanın aparıcı informasiya agentlikləri və televiziya kanalları vasitəsilə geniş auditoriyaya çatdırılıb. Bu baxımdan Şuşa Qlobal Media Forumu yalnız media nümayəndələrinin peşəkar müzakirələr apardığı platforma deyil, həm də Azərbaycanın mövqeyinin, həyata keçirdiyi uğurlu siyasətin və regionda gedən proseslərə dair baxışlarının beynəlxalq ictimaiyyətə birbaşa çatdırıldığı mühüm informasiya platforması kimi xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı ilə açıq dialoq formatı forumun nüfuzunu daha da artırmaqla yanaşı, beynəlxalq media ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlığın möhkəmlənməsinə də mühüm töhfə verir. Açıq sual-cavab formatı informasiyanın vasitəçilər olmadan çatdırılmasına, jurnalistlərin hadisələr barədə ilkin mənbədən dolğun məlumat əldə etməsinə imkan yaradır. Bu isə Azərbaycanla bağlı obyektiv informasiyanın beynəlxalq auditoriyaya çatdırılmasına, ölkənin mövqeyinin daha geniş şəkildə təqdim edilməsinə xidmət göstərir.

V.Rəhimzadənin sözlərinə görə, IV Şuşa Qlobal Media Forumu müxtəlif ölkələrdən olan jurnalistlər və media ekspertləri arasında peşəkar əlaqələrin möhkəmlənməsinə, qarşılıqlı etimadın güclənməsinə və beynəlxalq media əməkdaşlığının inkişafına əlverişli zəmin yaradır. Forum Azərbaycanın dünya informasiya məkanında qlobal müzakirələrin gündəliyini müəyyən edən, istiqamətverici bir aktora çevrildiyini göstərir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*



## Azərbaycan qlobal əməkdaşlıq mərkəzidir

### Prezident İlham ƏLİYEV: "Azərbaycan etibarlı tərəfdaş kimi tanınır və beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfələr verir"

**Ənənəvi Şuşa Qlobal Media forumları artıq təkcə media nümayəndələrinin bir araya gəldiyi tədbir deyil, həm də Azərbaycanın dünyada baş verən proseslərə baxışını, həyata keçirdiyi siyasəti və gələcəyə dair yanaşmalarını beynəlxalq auditoriyaya təqdim edən mühüm platformadır.**

Forumlar zamanı Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər ölkənin xarici siyasət prioritetləri, milli təhlükəsizlik strategiyası, enerji diplomatiyası, nəqliyyat-logistika layihələri və beynəlxalq münasibətlər sistemində tutduğu mövqe barədə əhatəli təsəvvür yaradır.

Dövlətimizin başçısı IV forumun da mahiyyətinin təkcə dünyanın müxtəlif ölkələrindən gələn media nümayəndələrinin fikir mübadiləsi aparması ilə məhdudlaşmadığını vurğuladı. Onun sözlərinə görə, bu platformanın əsas missiyalarından biri Qarabağda aparılan bərpa və yenidənqurma işlərini beynəlxalq ictimaiyyətə yerində göstərməkdir. Əgər ilk forumlarda qonaqlar müharibənin viran qoyduğu şəhər və kəndlərin acı mənzərəsinin şahidi olurdularsa, bu gün onların qarşısında tamamilə fərqli bir reallıq açılır. Müasir yaşayış məntəqələri, sürətlə inşa olunan infrastruktur, dirçələn şəhərlər və doğma yurdlarına qayıdan insanların həyatı Qarabağın yeni inkişaf mərhələsinin ən aydın göstəriciləridir.

Bununla yanaşı, dövlət başçısı IV forumda Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətlərindən biri olan nəqliyyat və logistika siyasətinə də diqqət çəkdi. O, bu sahədə həyata keçirilən layihələrin ölkənin regional və beynəlxalq mövqeyini daha da gücləndirdiyini vurğuladı. Təbii ki, tranzit ölkəyə çevrilmək təkcə əlverişli coğrafi mövqeyə malik olmaq demək deyil. Bu status ilk növbədə qonşu dövlətlərlə qarşılıqlı etimada, etibarlı tərəfdaşlığa və uzunmüddətli əməkdaşlığa söykənən siyasətin nəticəsidir. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə formalaşan "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri, Xəzər hövzəsində ən böyük ticarət limanının fəaliyyəti, eləcə də gəmiqayırma sənayesinin inkişafı ölkənin regional logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirib. Bu layihələr Azərbaycanın qlobal yükdaşımalarında etibarlı tərəfdaş kimi rolunu artırmaqla yanaşı, regionda iqtisadi əməkdaşlığın və bağlantıların genişlənməsinə də mühüm töhfə verir.

Məhz bu strateji yanaşma fonunda qlobal nəqliyyat marşrutlarında baş verən dəyişikliklər Azərbaycanın rolunu ön plana çıxarır. Şərqi Avropa və Yaxın Şərqdə ənənəvi logistika xətlərinin müxtəlif risklərlə üzləşdiyi bir dövrdə, Qərblə Şərq arasında fasiləsiz ticarət əlaqələrinin təmin edilməsində Orta dəhlizin əhəmiyyəti getdikcə artır. Bu reallıq Azərbaycanın beynəlxalq nəqliyyat-logistika sistemində etibarlı və strateji tərəfdaş kimi mövqeyini bir qədər də gücləndirir. Və bu geoiqtisadi şəraitdə, xüsusilə, Azərbaycan-Çin münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyur.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2025-ci ildə Çinə dövlət səfəri və bu səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması ikitərəfli münasibətlərdə mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir. Bu sənəd siyasi dialoqun bir qədər də dərinləşməsinə, iqtisadi əməkdaşlığın genişlənməsinə, nəqliyyat, logistika, ticarət və investisiya sahələrində qarşılıqlı fəaliyyətin yeni məzmun qazanmasına güclü təkan verib. Azərbaycanın Orta dəhlizdə artan rolu ilə Çinin qlobal ticarət strategiyasının uzlaşması hər iki ölkə üçün yeni əməkdaşlıq imkanları formalaşdırır.

Məhz bu strateji tərəfdaşlığın nəticələri Prezident İlham Əliyevin Orta dəhlizin perspektivlərinə dair səsləndirdiyi fikirlərdə aydın şəkildə əksini tapdı: "Orta dəhlizə gəldikdə, Çindən Azərbaycan vasitəsilə və Azərbaycana daşınan yüklərin həcmi artır. Artıq qeyd etmişəm ki, biz ticarət limanımızın gücünü demək olar ki, ikiqat artırırıq və əsasən, Çindən, həmçinin Mərkəzi Asiya ölkələrindən gələn yeni yükdaşımaların həcmlərinə güvənirik. Buna görə də burada qarşılıqlı münasibətlərin çox yaxşı tarixi, həmçinin bu dəhliz boyunca yerləşən bir çox ölkə ilə çoxtərəfli əməkdaşlıq mövcuddur".

Azərbaycan-Çin əməkdaşlığının dinamikası təkcə nəqliyyat və logistika sahəsində deyil, qarşılıqlı ticarət göstəricilərində də öz əksini tapır. Cari ilin yanvar-may aylarında iki ölkə arasında ticarət dövriyyəsi 1,83 milyard dollara yüksəlib. Bu dövrdə Azərbaycandan Çinə ixracın həcmi 48,75 milyon dollar, Çindən ölkəmizə idxal isə 1,78 milyard dollar təşkil edib. Diqqətçəkən məqamlardan biri də odur ki, bu ilin ilk beş ayının yekunlarına görə, Azərbaycanın ümumi idxalının 26,15 faizi məhz Çinin payına düşür. Bununla da Çin ölkəmizin ən böyük idxal tərəfdaşına çevrilib.

Əslində Azərbaycan-Çin iqtisadi əməkdaşlığının əhatə dairəsi yalnız ticarət və nəqliyyat-logistika ilə məhdudlaşmır. İkitərəfli münasibətlər getdikcə "yaşıl enerji", yüksək texnologiyalar və sənaye istehsalı kimi strateji sahələri də əhatə edir. Prezident İlham Əliyev forumdakı çıxışında bu istiqamətdə formalaşan əməkdaşlığın perspektivlərinə toxunaraq, Çinin Azərbaycanın bərpaolunan enerji sektorunda artan rolunu xüsusi vurğuladı: "Azərbaycanda günəş enerjisinin inkişafı üzrə çoxsaylı layihələr həyata keçirilir. Çin şirkətləri bu sektora yalnız bu yaxınlarda investisiya qoymağa başlasalar da, Çindən kənar şirkətlərlə müqavilələr çərçivəsində Azərbaycanda quraşdırılan bütün günəş panelləri Çin mənşəlidir. Bu o deməkdir ki, investordan asılı olmayaraq, Azərbaycanda gördüyünüz istənilən günəş paneli Çində istehsal olunur. Belə olan halda, heç bir başqa ölkə qiymət və keyfiyyət baxımından Çin istehsalçıları ilə rəqabət apara bilməz. Yəqin təsadüfi deyil ki, hazırda Çin şirkəti tərəfindən Azərbaycanda işləyəcək və ixrac ediləcək günəş paneli zavodunun tikintisi üçün böyük bir investisiya layihəsi həyata keçirilir".

IV Şuşa Qlobal Media Forumu bir daha göstərdi ki, Azərbaycan bu gün regional proseslərin iştirakçısı olmaqla, beynəlxalq proseslərdə fəal rol oynayan, qərarlara və hadisələrin gedişinə təsir göstərə bilən ölkədir. Forum çərçivəsində Prezident İlham Əliyevin Qarabağın bərpasından Orta dəhlizin inkişafına, enerji diplomatiyasından Azərbaycan-Çin strateji tərəfdaşlığının dərinləşməsinə qədər söylədiyi fikirlər göstərir ki, ölkəmiz qlobal proseslərə çevik reaksiya verən və strateji hədəflərini inamla həyata keçirən ölkədir.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Şuşa Forumu Azərbaycanın strateji baxışını dünyaya nümayiş etdirdi

**Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində təkcə yeni reallıqlar yaradan güc mərkəzi kimi deyil, həm də mühüm qlobal dialoq platformalarına evsahibliyi edən nüfuzlu tərəfdaş kimi çıxış edir. Ölkəmizin mədəniyyət paytaxtı Şuşada ənənəvi olaraq təşkil edilən Qlobal Media Forumu bu strateji fəaliyyətin ən bariz nümunəsidir.**



Bu mötəbər tədbir Azərbaycanın açıq müzakirələrə, çoxtərəfli əməkdaşlığa və beynəlxalq həmrəyliyə verdiyi müstəsna əhəmiyyəti nümayiş etdirir. İldən-ilə coğrafi miqyasını genişləndirən Şuşa Qlobal Media Forumu dünya mediasının aparıcı simalarını, nüfuzlu ekspertləri və beynəlxalq institutların rəhbərlərini eyni müstəvidə bir araya gətirir.

İyulun 13-14 tarixlərində Şuşada keçirilən və ölkəmizin açıq dialoq fəlsəfəsinin növbəti təzahürü olan IV Şuşa Qlobal Media Forumu peşəkar müzakirə platforması çərçivəsini aşaraq, həm də Azərbaycanın daxili inkişaf və xarici siyasət prioritetlərini qlobal ictimaiyyətin diqqətinə birbaşa çatdıran fundamental beynəlxalq tədbir kimi tarixə düşdü. Prezident İlham Əliyevin forumda jurnalistlərin çoxsaylı suallarına verdiyi dolğun və konseptual cavablar Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini bəyan etməklə yanaşı, ölkəmizin yeni geosiyasi reallıqlardakı qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi.

Dövlətimizin başçısı forumun əsas məqsədinin yalnız media nümayəndələri arasında fikir mübadiləsi deyil, eyni zamanda Qarabağın bərpasını yerində nümayiş etdirməkdən ibarət olduğunu vurğuladı. Əgər ilk illərdə azad edilmiş torpaqları ziyarət edən qonaqlar işğalın ağır fəsadlarını və dağıdılmış şəhərləri müşahidə edirdilərsə, bu gün onlar artıq sürətlə yenidən qurulan müasir yaşayış məntəqələrinin, nəhəng infrastruktur layihələrinin və öz doğma yurdlarına böyük sevinclə qayıdan yerli sakinlərin canlı şahidi olurlar. Bu fundamental dəyişiklik Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi dinc quruculuq siyasətinin real mənzərəsini ortaya qoyur.

Azərbaycanın qlobal miqyasda tranzit və logistika mərkəzinə çevrilməsi dövlətimizin uzunmüddətli strateji hədəflərindən biridir. Prezident İlham Əliyev Azərbaycanın son onillikdə həyata keçirdiyi nəqliyyat siyasətini ölkənin əsas geosiyasi üstünlüklərindən biri kimi təqdim etdi. Dövlətimizin başçısı vurğuladı ki, tranzit ölkəyə çevrilmək yalnız coğrafi mövqedən deyil, həm də qonşularla qarşılıqlı etimada əsaslanan əməkdaşlıqdan keçir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz Xəzər dənizində ən böyük ticarət limanının imkanları və yerli gəmiqayırma sənayesinin gücü sayəsində regional logistika xəritəsini yenidən formalaşdırır.

Enerji təhlükəsizliyinin təmin olunmasında da Azərbaycanın rolu artır. Forumda bu istiqamətdə mühüm məqamlara toxunan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan hazırda boru kəmərləri vasitəsilə 16 ölkəyə təbii qaz ixrac edir və coğrafi əhatəsinə görə dünyada birinci yerdədir. Almaniya və Avstriya kimi Avropanın aparıcı dövlətlərinə qaz nəqlinin başlanması ölkəmizin bu strateji bazarlarda mövqeyini daha da möhkəmləndirib. Bununla bərabər, Azərbaycan ekoloji hədəflərə uyğun olaraq "yaşıl enerji" layihələrinə xüsusi önəm verir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, 2032-ci ilə qədər bərpaolunan mənbələr hesabına 8 qiqavatlıq enerji gücünün yaradılması hədəflənir ki, bu da daxili qaz istehlakını optimallaşdıraraq ixrac üçün əlavə mavi yanacaq həcmlərinin sərbəstləşməsinə imkan yaradacaq.

Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki müstəqil mövqeyi ikitərəfli və çoxtərəfli əlaqələrdə özünü qabarıq göstərir. Forumda xarici tərəfdaşlarla münasibətlərdən bəhs edən dövlət başçısı bir sıra məqamları diqqətə çatdırdı. Prezident İlham Əliyev Avropa Komissiyası ilə münasibətlərdə müsbət dinamikanın yaranmasını bildirdi. Digər tərəfdən, vurğuladı ki, bəzi Avropa institutlarının qeyri-konstruktiv addımları cavabsız qalmadı. Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin səsvermə hüququndan məhrum edilməsini siyasi qərar kimi qiymətləndirdi və ölkəmizin Avropa Şurasından çıxmasının nəzərdə tutulduğunu bildirdi.

Eyni zamanda ABŞ ilə əlaqələrin müsbət inkişaf trayektoriyası xüsusi qeyd edildi. Prezident İlham Əliyev son dövrdə Vaşinqtonla münasibətlərin tarixdə ən yüksək səviyyəyə çatdığını vurğuladı. Bununla yanaşı, ikitərəfli əlaqələrdə süni əngəllərin aradan qaldırılmasının vacibliyinə toxunan dövlətimizin başçısı Konqresin 907-ci düzəlişinin tam ləğv edilməsinin vacibliyini qeyd etdi.

Hazırkı qlobal qeyri-müəyyənlik fonunda milli təhlükəsizlik amili daxili və xarici siyasətin əsas prioriteti olaraq qalır. Bu mənada Prezident İlham Əliyevin çıxışında əsas xətt Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirilməsi, iqtisadi dayanıqlılığın artırılması və müstəqil xarici siyasətin davam etdirilməsi idi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın əsas riskləri daxildə deyil, xarici geosiyasi proseslərdən qaynaqlanır. Bu səbəbdən müdafiə potensialının gücləndirilməsi, milli birliyin qorunması və dövlət maraqlarının müdafiəsi qarşıdakı dövrün prioritetləri olaraq qalacaq.

Prezident İlham Əliyevin Şuşa Forumunda səsləndirdiyi mühüm mesajlardan biri də gələcəyə hesablanmış çağırışlarla bağlı idi. Bu baxımdan, dövlətimizin başçısının irəli sürdüyü ideoloji tezislər hər bir Azərbaycan vətəndaşı üçün strateji yol xəritəsidir. Şuşa Qlobal Media Forumunda verilən mühüm mesajlar və çağırışlar ölkəmizin gələcək onilliklərdə də müstəqil, güclü və suveren bir dövlət kimi mövcudluğunun və tərəqqisinin ideoloji təməlini təşkil edir.

*Asif ƏSGƏROV, Milli Məclisin deputatı*



# Bakı-Bratislava tərəfdaşlığı yeni mərhələyə keçir

## Azərbaycan-Slovakiya münasibətləri çoxşaxəli etibarlı əməkdaşlığa və qarşılıqlı etimada əsaslanır

**Dünya ənənəvi təhlükəsizlik arxitekturasının sınağa çəkildiyi və yeni regional əməkdaşlıq formatlarının yarandığı mürəkkəb tarixi mərhələdən keçir. Qlobal miqyasda cərəyan edən proseslər dövlətlərin xarici siyasət strategiyasında şaxələndirmə və etibarlı tərəfdaşlıq amillərini ön plana çıxarır. Belə şəraitdə Avropa İttifaqının üzvü olan Slovakiya ilə Cənubi Qafqazın lider dövləti, şərqlə qərbin kəsişməsində yerləşən Azərbaycan arasında qurulan çoxvektorlu tərəfdaşlıq regional sabitliyin və qlobal təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.**

İyulun 14-də Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana reallaşan rəsmi səfəri yeni qlobal reallıqlar fonunda Bakı ilə Bratislava arasında güclənən tərəfdaşlığın növbəti bariz göstəricisidir. Bu səfər iki ölkə arasındakı münasibətlərin real və praktiki əməkdaşlıq mərhələsinə qədəm qoyduğunu nümayiş etdirir. Son illərdə siyasi dialoqun intensivləşməsi, iqtisadi-enerji tərəfdaşlığının dərinləşməsi və Qarabağın bərpasında birgə addımların atılması Azərbaycan-Slovakiya əlaqələrini keyfiyyətcə yeni strateji müstəviyə yüksəldib.

Prezident İlham Əliyev Slovakiyanın dövlət başçısı Peter Pelleqrini ilə görüşdən sonra keçirilən birgə mətbuat konfransında iki ölkə arasında yüksəksəviyyəli əlaqələrin inkişaf etdiyini, siyasi təmasların müntəzəm xarakter aldığını bildirib: "Bu qədər fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir. 2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir".

Azərbaycan Prezidentinin də vurğuladığı kimi, ikitərəfli münasibətlərin əsas hərəkətverici qüvvəsi dövlət başçılarının siyasi iradəsidir. 2024-cü il mayın 6-da Slovakiyanın Baş naziri Robert Fitsonun Bakıya rəsmi səfəri çərçivəsində imzalanmış Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə Bakı-Bratislava əlaqələrinin hüquqi-siyasi təməlini ən yüksək səviyyəyə qaldırdı. Bu sənədin ardınca siyasi təmaslar daha da intensivləşdi. Prezident İlham Əliyev 2025-ci il dekabrın 8-də Slovakiyaya rəsmi səfər etdi və Bratislavada enerji, müdafiə sənayesi, investisiya və digər məsələlər ətrafında geniş müzakirələr aparıldı.

Rəsmi Bratislava da Bakı ilə qurulan münasibətlərə xüsusi önəm verir. Slovakiya Prezidenti Peter Pelleqrini öz bəyanatında bu tərəfdaşlığın mahiyyətini belə ifadə edib: "Slovakiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sadə formal bəyannamə deyil. Ölkələrimiz arasında münasibətlər standart diplomatik əlaqələrin hüdudlarını keçir. Biz, həqiqətən, dost ölkələrik. Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq".

Qeyd edək ki, iki ölkə arasında tərəfdaşlığın təməli ötən əsrin 90-cı illərinin əvvəllərində qoyulub. Slovakiya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 24-də tanıyıb, diplomatik münasibətlər isə 1993-cü il noyabrın 23-də rəsmiləşib. Ötən dövr ərzində əlaqələrin institusional bazası mərhələli şəkildə gücləndirilib. 2019-cu ildə Bakıda, 2023-cü ildə isə Bratislavada səfirliklər təsis edilib. Səfirliklərin açılması siyasi, iqtisadi və humanitar sahələrdə birbaşa təmasların qurulmasında katalizator rolunu oynayıb.

Siyasi münasibətlərin dərinləşməsində parlament diplomatiyası da mühüm çəkiyə malikdir. Milli Məclisdə fəaliyyət göstərən Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu və Slovakiya parlamentindəki müvafiq dostluq qrupu qanunverici orqanlar arasında davamlı dialoqu və qarşılıqlı dəstəyi təmin edir.

İki ölkə arasında bu günədək imzalanmış sənədlər əməkdaşlığın müxtəlif istiqamətlərini tənzimləyir. Xüsusilə, 2021-ci ildə imzalanan iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası saziş və onun əsasında formalaşdırılan Birgə İşçi qrupu sənaye, kənd təsərrüfatı, logistika və innovasiyalar üzrə real layihələrin icrası üçün səmərəli mexanizmə çevrilib.

İkitərəfli iqtisadi münasibətlərin əsasını enerji əməkdaşlığı təşkil edir. Avropanın enerji təchizatının şaxələndirilməsi fonunda Azərbaycan etibarlı tərəfdaş kimi öz mövqeyini möhkəmləndirir. 2024-cü il dekabrın 1-dən etibarən Azərbaycan qazının Slovakiyaya ixracına başlanılıb ki, bu da ölkənin enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə gücləndirib.

Tərəflər arasında müdafiə sahəsi də prioritetlərdən biridir. Bu sahədə hüquqi baza 2024-cü ilin mayında Robert Fitsonun Bakı səfəri zamanı imzalanmış "Hərbi-texniki əməkdaşlıq haqqında Memorandum" və "Müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" ilə qoyulub. Prosesin davamı olaraq, 2025-ci ildə dövlət başçımızın Slovakiyaya rəsmi səfəri çərçivəsində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiyanın Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu imzalanıb.

Azərbaycan-Slovakiya tərəfdaşlığının göstəricilərindən biri də işğaldan azad edilmiş ərazilərin yenidən qurulması ilə bağlıdır. Slovakiya şirkətləri Ağdam rayonunda tətbiq edilən "ağıllı kənd" layihəsində fəal iştirak edirlər. Bu əməkdaşlıq Avropa texnologiyalarının və innovativ şəhərsalma həllərinin Qarabağın dirçəlişinə cəlb edilməsinin uğurlu nümunələrindən biridir. Prezident İlham Əliyev slovakiyalı həmkarı ilə görüşü zamanı bu əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edib: "Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir. Bu dəstəyə və Qarabağın bərpasına verdiyiniz töhfəyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm".

Münasibətlərin gələcək inkişaf perspektivlərində nəqliyyat və humanitar əlaqələr də mühüm yer tutur. Bakı ilə Bratislava arasında birbaşa aviareyslərin açılması planlaşdırılır. Hava marşrutu turizm və işgüzar dairələr üçün əlverişli imkanlar yaratmaqla yanaşı, Azərbaycan vətəndaşlarının Mərkəzi Avropaya daha rahat gediş-gəlişini də təmin edəcək.

Nəticə etibarı ilə Bakı və Bratislava arasındakı münasibətlər Avropanın enerji təhlükəsizliyini qoruyan, azad edilmiş ərazilərdə sülh quruculuğuna töhfə verən və hərbi-sənaye potensialını qarşılıqlı faydalı şəkildə inkişaf etdirən etibarlı tərəfdaşlıq modelidir. Slovakiya Prezidentinin qeyd etdiyi kimi, Azərbaycan mühüm regional iştirakçıdır: "O, sabitliyin və inkişafın qarantıdır, şərqlə qərbi birləşdirən logistika və nəqliyyat marşrutlarının əsas qovşağı rolunu oynayır. Azərbaycan bu baxımdan mühüm əhəmiyyətə malikdir".

Azərbaycan-Slovakiya strateji tərəfdaşlığı gələcəkdə daha böyük layihələrə imza atacaq, iki dost xalqın rifahına və Avrasiya məkanında regional əməkdaşlığın güclənməsinə yeni töhfələr verəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-Slovakiya strateji tərəfdaşlığı geniş iqtisadi və geosiyasi məzmun qazanır

**Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri və Prezident İlham Əliyevlə Şuşada keçirilən görüşdən sonra səsləndirilən bəyanatlar iki ölkənin strateji tərəfdaşlığının ən yüksək mərhələsinin göstəricisi kimi dəyərləndirilə bilər. Səfərin həm məkanı, həm də verilən mesajlar onu göstərir ki, Bakı ilə Bratislava arasında formalaşan strateji tərəfdaşlıq daha geniş siyasi, iqtisadi və geosiyasi məzmun qazanır.**



**Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ** qəzetimizə açıqlamasında deyib ki, bu səfərin ilk diqqətçəkən məqamı görüşün məhz Şuşada keçirilməsidir. Bu seçim yalnız simvolik xarakter daşımır. Azərbaycan bununla bir daha nümayiş etdirir ki, Qarabağ ölkənin siyasi, iqtisadi və diplomatik həyatının ayrılmaz hissəsidir. Xarici dövlət başçılarının işğaldan azad edilmiş ərazilərə səfərləri həm də Azərbaycanın postmünaqişə dövründə yaratdığı yeni reallığın beynəlxalq ictimaiyyətə təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır. "Prezident İlham Əliyevin mətbuata bəyanatında diqqət çəkən əsas məqamlardan biri Azərbaycan-Slovakiya münasibətlərinin artıq yüksək siyasi etimad mərhələsinə keçdiyini vurğulaması oldu. Dövlətimizin başçısı xatırlatdı ki, 2024-cü ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə, sadəcə, siyasi sənəd deyil, iki ölkə arasında əməkdaşlığın institusional əsasını formalaşdıran yol xəritəsidir. Onun sözlərinə görə, bu sənədin praktik nəticələri artıq görünməkdədir və qarşılıqlı səfərlər həmin siyasi iradənin davamıdır. Əslində, burada söhbət yalnız Azərbaycan və Slovakiyanın münasibətlərindən getmir. Bakı Avropa İttifaqının üzvü olan dövlətlərlə münasibətlərini ikitərəfli formatda daha da dərinləşdirir, Avropa ilə əməkdaşlığın dayanıqlı modelini formalaşdırır. Son illərdə İtaliya, Macarıstan, Rumıniya, Bolqarıstan və indi isə Slovakiya ilə inkişaf edən münasibətlər göstərir ki, Azərbaycanın Avropa siyasəti ayrı-ayrı dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan praqmatik əməkdaşlıq üzərində qurulub", - deyə o bildirib.

Deputat qeyd edib ki, Slovakiya Avropanın enerji təhlükəsizliyi baxımından alternativ mənbələrin əhəmiyyətini yaxşı anlayan ölkələrdəndir. Azərbaycan isə "Cənub qaz dəhlizi" vasitəsilə artıq Avropanın enerji xəritəsində mühüm oyunçuya çevrilib. Bu baxımdan Bratislavanın Bakı ilə əməkdaşlığa xüsusi önəm verməsi təsadüfi deyil. Burada söhbət yalnız qaz ixracından deyil, "yaşıl enerji", elektrik interkonnektorları və gələcək enerji layihələrindən də gedir.

Nəqliyyat və logistika istiqamətinin də strateji əhəmiyyət daşıdığını deyən E.Mirzəbəyli əlavə edib ki, Orta dəhlizin imkanlarının genişlənməsi fonunda Azərbaycan Avropa ilə Mərkəzi Asiyanı birləşdirən əsas tranzit mərkəzlərindən birinə çevrilməkdədir: "Slovakiya isə Mərkəzi Avropanın mühüm logistika qovşaqlarından biridir. Bu baxımdan iki ölkənin maraqları üst-üstə düşür və əməkdaşlıq yalnız siyasi dialoqla məhdudlaşmır. Prezident İlham Əliyevin bəyanatında diqqət çəkən digər mühüm məqam qarşılıqlı etimadın xüsusi vurğulanması idi. Dövlət başçısı siyasi münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək qeyd etdi ki, geniş gündəlik və birgə layihələrin həyata keçirilməsi məhz güclü siyasi iradənin nəticəsidir. Bu yanaşma Azərbaycanın xarici siyasətinin əsas xüsusiyyətlərindən birini əks etdirir: Bakı münasibətləri ideoloji deyil, qarşılıqlı maraqlar və etibarlılıq prinsipi üzərində qurmağa üstünlük verir. Slovakiya Prezidenti də çıxışında strateji tərəfdaşlığın formal sənəd kimi qalmamalı, konkret iqtisadi layihələr və praktik əməkdaşlıqla möhkəmləndirilməli olduğunu bildirdi. Peter Pelleqrininin enerji, iqtisadiyyat, müdafiə sənayesi, nəqliyyat və Qarabağın bərpası istiqamətlərində əməkdaşlığı xüsusi qeyd etməsi Bratislavanın Azərbaycana uzunmüddətli tərəfdaş kimi yanaşdığını göstərir".

Deputat vurğulayıb ki, bu səfərin daha bir mühüm geosiyasi mesajı Avropa İttifaqı daxilində Azərbaycana münasibətdə fərqli yanaşmaların mövcudluğunu bir daha nümayiş etdirməsidir. Son illər bəzi Avropa institutlarında Azərbaycana qarşı qərəzli mövqelər sərgilənsə də, ayrı-ayrı üzv dövlətlər Bakı ilə əməkdaşlığın genişləndirilməsinin həm regional təhlükəsizlik, həm enerji təminatı, həm də iqtisadi maraqlar baxımından vacibliyini açıq şəkildə nümayiş etdirirlər. Nəticə etibarilə Slovakiya Prezidentinin Azərbaycana rəsmi səfəri protokol xarakterli diplomatik hadisədən daha geniş məna daşıyır. Bu səfər göstərdi ki, Azərbaycan Avropa ilə münasibətlərini sabit siyasi dialoq, etibarlı tərəfdaşlıq və konkret iqtisadi layihələr üzərində inkişaf etdirmək strategiyasını ardıcıl şəkildə davam etdirir. "Prezident İlham Əliyevin mətbuata bəyanatında verilən əsas mesaj da məhz bundan ibarət idi: Azərbaycan qarşılıqlı hörmətə, suverenliyə ehtirama və praqmatik əməkdaşlığa əsaslanan tərəfdaşlıqları gələcək regional təhlükəsizlik və iqtisadi inkişafın əsas təminatı hesab edir. Məhz bu yanaşma Bakı-Bratislava münasibətlərini təkcə ikitərəfli deyil, həm də Azərbaycan-Avropa əməkdaşlığının perspektivli istiqamətlərindən birinə çevirir", - deyə E.Mirzəbəyli bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan bir daha dünyaya sülh və əməkdaşlıq çağırışı etdi

**Bu gün Azərbaycan mühüm beynəlxalq təşəbbüsləri ilə seçilən ölkələrdən sayılır. Müxtəlif qitələri təmsil edən dövlətlərin, beynəlxalq təşkilatların, ekspertlərin və media nümayəndələrinin bir araya gəldiyi qlobal tədbirlərə evsahibliyi etmək ölkəmizin artan beynəlxalq nüfuzunun göstəricisidir.**

Azərbaycanda keçirilən qlobal tədbirlər həm fikir mübadiləsi, həm də mürəkkəb beynəlxalq problemlərin müzakirəsi və əməkdaşlıq imkanlarının araşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. IV Qlobal Media Forumu da bu mənada təqdirəlayiqdir.

Forumun keçirildiyi şəhər - Azərbaycan tarixində, mədəniyyətində və ictimai düşüncəsində xüsusi əhəmiyyət daşıyan Şuşa son illər dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələrin görüşdüyü məkana çevrilib. 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış, 2020-ci ildə azadlığına qovuşmuş Şuşanın bərpası və yenidən qurulması həmçinin Azərbaycanın tarixi-mədəni irsinin qorunması və dünyaya təqdim olunması baxımından böyük əhəmiyyət daşıyır. Əgər keçmişdə Şuşa regionun zəngin mədəniyyət mərkəzlərindən biri kimi tanınırdısa, indi bu şəhər sülh çağırışları və qlobal əməkdaşlıq platforması kimi də diqqət mərkəzindədir. Şuşa Qlobal Media Forumunun keçirilməsi də bu baxımdan mühüm simvolik məna daşıyır. Dünya mediası nümayəndələrinin məhz bu şəhərdə toplaşması Azərbaycanın regionda baş verən hadisələrin beynəlxalq ictimaiyyətə daha obyektiv çatdırılması istiqamətində atdığı növbəti addımdır.

IV Şuşa Qlobal Media Forumunun mühüm istiqamətlərindən biri Azərbaycanın regionda yaratdığı yeni reallıqların və gələcək inkişaf perspektivlərinin müzakirəsi idi. Məlumdur ki, Vətən müharibəsindən sonra Cənubi Qafqazda yeni siyasi mənzərə formalaşıb. Suverenliyini bərpa edən Azərbaycan işğal dövründə Ermənistanın xarabalığa çevirdiyi əraziləri - Qarabağı və Şərqi Zəngəzuru yenidən qurmaqla yanaşı, regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün yeni təşəbbüslər irəli sürmüş və mühüm addımlar atmışdır. Bu isə Cənubi Qafqazda yeni mərhələnin başlaması ilə nəticələnmişdir.

Azərbaycan bu gün regionda sülhün, sabitliyin bərqərar olmasına səy göstərən, bu istiqamətdə mühüm tədbirlər həyata keçirən ölkə kimi nüfuz qazanıb. Hazırda dünyanın müxtəlif yerlərində siyasi qarşıdurmalar, müharibələr gedir. Azərbaycan isə "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media



Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin qeyd etdiyi kimi, həmin müharibələrin əhatəsində yerləşir: "Şimalımızda müharibə vəziyyətində olan bir qonşumuz, cənubumuzda isə müharibə aparan digər qonşumuz var. Biz isə onların arasında yerləşirik. Əlbəttə ki, belə bir şəraitdə ölkəmizi qorumaq və eyni zamanda imkan daxilində, münaqişənin sülh yolu ilə həllinə töhfə vermək bizim üçün böyük əhəmiyyət kəsb edir. Bəli, biz sülhün mümkün olduğuna inanırıq. Hesab edirəm ki, bunu təkcə biz deyil, həm də bu qarşıdurmanı və qan tökülməsini dayandırmaq üçün əllərindən gələni edən vasitəçi ölkələr də düşünürlər".

Sülhün mümkünlüyünə inamını ifadə edən dövlətimizin başçısı qeyd edib ki, bizim yeganə istəyimiz sərhədlərimiz boyu sülhün hökm sürməsidir: "Çünki ölkə daxilində sülh şəraitində yaşadığınız halda sərhədləriniz boyunca döyüşlər gedirsə, siz heç vaxt özünüzü təhlükəsiz hiss etmirsiniz".

Azərbaycan yaxın keçmişədək müharibələrdən və münaqişələrdən ən çox əziyyət çəkmiş ölkələrdən biri olub. Uzun illər ərazilərimiz işğala məruz qalıb, minlərlə vətəndaşımız şəhid olub, əsir götürülüb. Buna baxmayaraq, 2020-ci ildə ədaləti bərpa edən Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalanması yolunda ilk addımları da özü atıb. Prezident İlham Əliyev IV Qlobal Media Forumunda çıxışında bildirib ki, Azərbaycan cəmi bir ildən az müddətdir ki, sülh şəraitində yaşayır: "Biz 30 il müharibə şəraitində yaşamışıq. Əvvəl Birinci Qarabağ müharibəsi oldu, sonra atəşkəs dövründə müxtəlif qarşıdurmalar yaşandı, ardınca müxtəlif gərginliklər baş verdi və nəhayət, İkinci Qarabağ müharibəsi oldu. Beləliklə, biz müharibəsiz həyatı təsəvvür belə edə bilmirdik. Cəmi bir ildən azdır ki, sülh şəraitində yaşayırıq və bunun inkişaf, investisiyalar, insanların psixoloji durumu və cəmiyyətdə hökm sürən ab-hava baxımından verdiyi faydaları görürük".

Azərbaycanın hər zaman sülhsevər dövlət olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, əlbəttə, biz istərdik ki, cənubumuzda da, şimalımızda da mümkün qədər tez sülh bərqərar olsun: "Lakin bu sülh ədalətli olmalı, beynəlxalq hüquqa əsaslanmalı, hər hansı bir tərəfin ambisiyaları və ya gündəliyi üzərində qurulmamalıdır. Beynəlxalq hüquq istənilən sülh üçün universal platformadır. Ermənistanla müharibəmizə nəzər salsaq, biz hər zaman beynəlxalq hüququn tərəfində olmuşuq. Biz özümüzü müdafiə edirdik".

Ölkəmizin irəli sürdüyü sülh təşəbbüsləri yalnız ikitərəfli münasibətlərin normallaşdırılmasına deyil, bütövlükdə regionun təhlükəsizliyinə, iqtisadi inkişafına və xalqlar arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə xidmət edir. Bu baxımdan ədalətli sülhün bərqərar olması Cənubi Qafqazda yeni reallıqların əsasını təşkil edir. Azərbaycanın evsahibliyi etdiyi IV Şuşa Qlobal Media Forumu isə bir daha göstərdi ki, ölkəmiz yalnız regional məsələlərin deyil, eyni zamanda qlobal çağırışların müzakirə edildiyi dəyişməz ünvandır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Slovakiya əməkdaşlığı siyasi, iqtisadi və texnoloji müstəvidə genişlənir

**"Qarabağa xoş gəlmisiniz..." Prezident İlham Əliyevin iyulun 14-də dediyi bu sözlər təkcə ali qonağa ünvanlanmış diplomatik müraciət deyildi. Bu, son 5 ildə Cənubi Qafqazın siyasi xəritəsində baş verən fundamental dəyişikliklərin, Azərbaycanın yaratdığı yeni geosiyasi reallığın və beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunan tarixi həqiqətlərin ifadəsi idi. Həmin gün Füzuli Beynəlxalq Hava Limanı növbəti dəfə mühüm siyasi hadisəyə şahidlik etdi. Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinini gətirən təyyarənin Qarabağın hava qapısına enməsi, səfərin Bakıdan deyil, məhz Qarabağdan başlanması, rəsmi qarşılanma mərasiminin Şuşada keçirilməsi və dövlət başçılarının ilk görüşünün ölkəmizin mədəniyyət paytaxtında baş tutması dərin siyasi, diplomatik və mənəvi məna daşıyırdı.**



Bir neçə il əvvəl işğal altında olduğuna görə faciənin simvolu kimi xatırlanan Şuşa bu gün beynəlxalq diplomatiyanın nüfuzlu məkanlarından birinə çevrilib. Xarici dövlət başçılarının burada qarşılanması təsadüfi hadisə deyil, eyni zamanda Prezident İlham Əliyevin qətiyyətli siyasəti, Azərbaycan Ordusunun tarixi Zəfəri və ölkəmizin artan beynəlxalq nüfuzu nəticəsində formalaşmış yeni siyasi ənənədir. Şuşada keçirilən hər bir yüksəksəviyyəli görüş dünyaya verilən mesajdır: Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib, Qarabağ isə münaqişə deyil, beynəlxalq əməkdaşlıq, investisiya və inkişaf məkanına çevrilib.

Diplomatiyada təsadüflər olmur. Hər marşrutun, görüş məkanının öz siyasi mesajı var. Slovakiya Prezidentinin səfərinin Qarabağdan başlanması Azərbaycanın suverenliyinə hörmətin, azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinə dəstəyin və regionun gələcəyinə inamın ifadəsi idi. Bu gün Qarabağda yeni iqtisadi model formalaşır, müasir yaşayış məntəqələri salınır, "yaşıl enerji" layihələri həyata keçirilir və bu bölgəyə beynəlxalq investisiyalar cəlb olunur. Slovakiya Prezidentinin bu proseslə yerində tanış olması Avropanın Azərbaycanın inkişaf strategiyasında iştirak etmək niyyətini bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin görüş zamanı söylədiyi fikirlər səfərin mahiyyətini dolğun ifadə edir: "Sizi Qarabağda qəbul etmək xüsusilə xoşdur... Hazırda burada yenidənqurma işləri hökumətimizin əsas prioritetlərindən biridir. Slovak mütəxəssislərin iştirakı isə olduqca vacibdir". Bu fikirlər həm də Azərbaycanın beynəlxalq tərəfdaşlara ünvanladığı strateji əməkdaşlıq çağırışıdır. Qarabağ yeni investisiyalar, texnologiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaradan inkişaf məkanına çevrilib. Slovakiya isə bu prosesdə fəal iştirak edən ilk Avropa ölkələrindən biri kimi öz mövqeyini daha da möhkəmləndirir.

Azərbaycanla Slovakiya arasında diplomatik münasibətlər 1993-cü ildə qurulsa da, son illər bu əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlib. Əgər əvvəlki dövrdə münasibətlər əsasən siyasi dialoq və iqtisadi təmaslarla məhdudlaşırdısa, bu gün həmin əməkdaşlıq strateji xarakter almışdır. Bunun əsasında dövlət başçıları arasında formalaşmış qarşılıqlı etimad, praqmatik yanaşma və ortaq maraqlar dayanır. Prezident İlham Əliyevin ötən il Slovakiyaya rəsmi səfəri münasibətlərdə mühüm dönüş nöqtəsi oldu. Bratislavada aparılan danışıqlar və imzalanan sənədlər Bakı ilə Bratislava arasında əməkdaşlığın konkret iqtisadi layihələr və uzunmüddətli strateji maraqlar üzərində qurulduğunu göstərdi. Peter Pelleqrininin cavab səfərinin Qarabağdan başlaması isə bu əməkdaşlığın praktik mərhələyə keçdiyini nümayiş etdirdi. Prezident İlham Əliyevin Şuşada səsləndirdiyi bu fikirlər iki ölkə arasında münasibətlərin mahiyyətini dəqiq ifadə edir: "Şadam ki, Sizi Administrasiyanızın və Hökumətinizin mühüm üzvlərindən ibarət çox böyük nümayəndə heyəti müşayiət edir. Bu, işin və ikitərəfli gündəliyin miqyasını, həmçinin irəliləyişi gördüyümüz və əlavə irəliləyiş görmək istədiyimiz istiqamətləri nümayiş etdirir".

Bu sözlər Azərbaycan-Slovakiya münasibətlərinin artıq strateji xarakter aldığını təsdiqləyir. Diplomatiyada nümayəndə heyətinin tərkibi hər zaman xüsusi siyasi mesaj verir. Slovakiya Prezidentini nazirlərin, hökumət rəsmilərinin və biznes nümayəndələrinin müşayiət etməsi Bratislavanın Azərbaycanla əməkdaşlığı yalnız siyasi dialoq deyil, iqtisadi və texnoloji tərəfdaşlıq müstəvisində də genişləndirmək niyyətini göstərir. Bu isə Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli xarici siyasətin uğurlu nəticələrindəndir. Səfər zamanı diqqət mərkəzində olan əsas istiqamətlərdən biri enerji əməkdaşlığı idi. Son illər Avropada baş verən geosiyasi dəyişikliklər enerji təhlükəsizliyini qitənin əsas prioritetlərindən birinə çevirib. Belə bir şəraitdə Azərbaycan etibarlı enerji tərəfdaşı kimi öz mövqeyini daha da möhkəmləndirib. "Cənub qaz dəhlizi", TANAP və TAP layihələri vasitəsi ilə Avropaya təbii qaz ixracının artırılması ölkəmizin beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə gücləndirib.

Bu gün Avropanın bir çox dövlətləri enerji təhlükəsizliyini ölkəmizlə əməkdaşlığın genişləndirilməsində görür. Slovakiya da həmin ölkələr sırasındadır. Prezident Peter Pelleqrininin səsləndirdiyi fikirlər bunu bir daha təsdiqlədi: "Enerji böhranı zamanı Azərbaycanın operativ dəstəyinə görə Sizə təşəkkür edirəm. Azərbaycanın təbii qaz təchizatı ölkəmiz üçün yaranmış boşluğun doldurulmasına mühüm töhfə verdi". Bu etiraf diplomatik nəzakətdən daha artıq məna daşıyır. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı strateji rolun və etibarlı tərəfdaş kimi qazandığı nüfuzun beynəlxalq səviyyədə qəbulunun ifadəsidir. Slovakiyanın 2027-ci ildən sonrakı dövr üçün də Azərbaycanla uzunmüddətli əməkdaşlıqda maraqlı olduğunu bəyan etməsi göstərir ki, enerji sahəsində əlaqələr artıq qısamüddətli kommersiya münasibətlərini aşaraq strateji tərəfdaşlıq mərhələsinə daxil olub.

Azərbaycanın uğurlu enerji diplomatiyası təkcə iqtisadi imkanlarımızı genişləndirmir, həm də ölkəmizin Avropanın siyasi və geoiqtisadi təhlükəsizliyində rolunu gücləndirir. Lakin müasir beynəlxalq münasibətlərdə tərəfdaşlığın dəyəri yalnız enerji ilə ölçülmür. Əsas göstərici siyasi etimadın konkret iqtisadi layihələrə çevrilməsidir. Peter Pelleqrininin səsləndirdiyi daha bir fikir bu baxımdan xüsusi əhəmiyyət kəsb edir: "Münasibətlərimiz yalnız birtərəfli ticarətə söykənməməlidir. Biz mümkün qədər çox birgə layihələr, texnologiya transferi və birgə istehsal həyata keçirmək istəyirik".

Bu yanaşma gələcək əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirir. Müasir dünyada dövlətlərin rəqabət üstünlüyü yalnız ticarət dövriyyəsi ilə deyil, yüksək texnologiyaların tətbiqi, innovativ istehsalın təşkili, sənaye əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı investisiyaların həcmi ilə müəyyən olunur. Slovakiyanın avtomobil sənayesi, maşınqayırma, elektrotexnika və rəqəmsal texnologiyalar sahəsində topladığı zəngin təcrübə Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi strategiyası ilə üst-üstə düşür. Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafı, sənaye parklarının yaradılması və yüksək texnologiyalara əsaslanan istehsal modelinin for-malaşdırılması Slovakiya ilə əməkdaşlıq üçün yeni imkanlar açır. Bu baxımdan iki ölkə arasında bugünkü münasibətlərin deyil, gələcək onilliklər üçün nəzərdə tutulan strateji iqtisadi tərəfdaşlığın da möhkəm təməlini formalaşdırır.

Prezident Peter Pelleqrininin ölkəmizə səfərinin diqqətçəkən məqamlarından biri də onun Qarabağda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri ilə yaxından tanış olmasıdı. Bu, sadəcə protokol xarakterli tanışlıq deyildi. Səfər Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi yenidənqurma işlərinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin növbəti təzahürü idi.

Slovakiya şirkətlərinin bu prosesə qoşulması xüsusi siyasi və iqtisadi əhəmiyyət daşıyır. Ağdam rayonunda həyata keçirilən "Ağıllı kənd" layihəsində Slovakiya şirkətlərinin iştirakı Avropa iş adamlarının Azərbaycanın quruculuq strategiyasına və ölkəmizdə yaradılmış sabit investisiya mühitinə inamının bariz göstəricisidir. Çünki beynəlxalq şirkətlər yalnız hüquqi təminatın, siyasi sabitliyin və uzunmüddətli inkişaf perspektivlərinin mövcud olduğu ölkələrdə irimiqyaslı layihələrə sərmayə yatırırlar.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Qarabağın yenidən qurulması Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Xarici dövlətlərin və şirkətlərin bu prosesdə fəal iştirakı Azərbaycanın yaratdığı yeni reallığın beynəlxalq səviyyədə qəbul olunduğunu bir daha təsdiqləyir. Prezident Peter Pelleqrininin səsləndirdiyi fikirlər də bunun aydın ifadəsidir: "Biz cəmi bir neçə saatdır buradayıq. Azad olunandan sonra qısa müddətdə görülmüş işlər və yaradılmış infrastruktur bizdə böyük təəssürat yaratdı. Biz fəxr edirik ki, Slovakiya da bu layihələrin iştirakçılarından biridir".

Slovakiya Prezidentinin Azərbaycana rəsmi səfəri, xüsusilə də səfərin Qarabağdan başlanması Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və praqmatik xarici siyasətin növbəti uğurlarından biri kimi dəyərləndirilməlidir. Azərbaycan milli maraqlara söykənən balanslaşdırılmış xarici siyasəti sayəsində həm Şərq, həm Qərb, həm də Şimal və Cənub istiqamətlərində etibarlı tərəfdaş kimi qəbul olunur. Avropa İttifaqına üzv dövlət olan Slovakiyanın Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək niyyəti ölkəmizin beynəlxalq nüfuzunun davamlı yüksəlişinin daha bir göstəricisidir. Azərbaycan artıq yalnız etibarlı enerji ixracatçısı deyil, həm də regional sabitliyin təminatçısı, beynəlxalq nəqliyyat dəhlizlərinin əsas iştirakçısı, iri iqtisadi layihələrin təşəbbüskarı və etibarlı siyasi tərəfdaş kimi tanınır.

Peter Pelleqrininin Qarabağdan başlayan səfəri bir daha göstərdi ki, Azərbaycanın yaratdığı yeni reallıq artıq beynəlxalq münasibətlər sisteminin ayrılmaz hissəsinə çevrilib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın qlobal ədalət mübarizəsi

**"Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunan IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyev jurnalistlərin çoxsaylı suallarını cavablandırdı. Dövlət başçısı forumda Fransanın kolonial siyasətindən və onun törətdiyi ağır fəsadlardan da bəhs etdi.**

"Uzun illərdir ki, Fransanın dənizaşırı əraziləri kolonial, müstəmləkəçilik siyasəti nəticəsində əziyyət çəkir. Orada hətta nüvə testləri həyata keçirilir. Polineziyada bəlkə 200-dən artıq nüvə sınaqları keçirilib. Bu gün baxsaq görərik ki, yüzlərlə insan bundan əziyyət çəkir. Bu gün Bakı Təşəbbüs Qrupu hər hansısa hibrid müharibədə ittiham edilir. Zənnimcə, bu, müstəqil medianın çox mühüm missionerliyidir", - deyə Prezident İlham Əliyev bildirdi. Dövlətimizin başçısının bu sözləri müasir dünyada insan hüquqları mövzusunun nə dərəcədə böyük aktuallıq kəsb etdiyini bir daha nümayiş etdirdi. Eyni zamanda dövlətimizin başçısının fikirləri qlobal məkanda həqiqətlərin təhrif olunmasına qarşı Azərbaycanın liderlik missiyasını ortaya qoydu. Həqiqətlərin üzə çıxarılması və ədalətin bərqərar olunması üçün müstəqil medianın və belə obyektiv platformaların rolu əvəzsizdir.

Bu gün qlobal informasiya məkanında həqiqətlərin təhrif edilməsi, ikili standartlar və siyasi manipulyasiyalar dünyada ən ağrılı problemlərdən biridir. İnsan hüquqları kimi vacib bir məsələ bəzi Qərb dövlətlərinin əlində digər ölkələrə qarşı təzyiq alətinə çevrilir. Uzun illərdir ki, Qərbdəki müəyyən siyasi dairələr insan hüquqları məsələsini reallıqdan qopararaq Azərbaycana qarşı hücum vasitəsi kimi istifadə edirlər. Onlar real vəziyyəti tamamilə kənara qoyaraq, süni və əsassız iddialarla ölkəmizi hədəf seçirlər. Belə kampaniyaların arxasında dayanan əsas məqsəd Azərbaycanı öz müstəqil xarici siyasət yolundan döndərmək, milli maraqlarımıza uyğun planlarımızı gerçəkləşdirməkdən çəkindirməkdir.

Azərbaycan güclәndikcә, regionda yeni reallıqlar yaratdıqca, bu təzyiqlərin forması və miqyası da dəyişdi. Lakin bütün bunlara baxmayaraq, dövlətimiz öz prinsipial mövqeyindən geri çəkilmədi. Bu gün ölkəmiz həm öz inkişafını təmin edir, həm də beynəlxalq mühitdə ədaləti qətiyyətlə müdafiə edir.

Hər fürsətdə "insan hüquqları heç bir ölkənin daxili işi hesab edilə bilməz" fikrini irəli sürən Qərb dairələri öz daxili eybəcərliklərinə gəldikdə tamamilə fərqli mövqe nümayiş etdirirlər. Bunun ən bariz nümunəsini Fransanın simasında görmək mümkündür. Fransa bu gün özünü "demokratiyanın beşiyi" kimi təqdim etməyə çalışsa da, əslində onun dənizaşırı ərazilərdə apardığı siyasət klassik müstəmləkəçiliyin müasir formasıdır.

Azərbaycanın dəstəyi ilə yaradılmış Bakı Təşəbbüs Qrupu bu gün dünyada müstəmləkəçilik, müstəmləkə əsarəti və bərabərsizlik məsələlərini beynəlxalq müstəviyə daşıyan ilk və ən səmərəli qeyri-hökumət təşkilatıdır. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti Paris tərəfindən böyük dözümsüzlüklə qarşılanır. Çünki bu qrup Fransanın əsl simasını, onun onilliklər boyu Yeni Kaledoniya, Polineziya, Martinika, Qvadelupa və digər ərazilərdə yerli xalqların hüquqlarını necə tapdaladığını bütün dünyaya nümayiş etdirir. Uzun illər ərzində Fransanın qondarma dənizaşırı əraziləri, əslində isə faktiki müstəmləkələri ağır təzyiqlərə məruz qalıb. Yeni Kaledoniya və Polineziyada dinc nümayişlərin qan içində boğulması, yerli əhalinin öz müqəddəratını təyinetmə hüququnun əlindən alınması və mövcud humanitar problemlərin dünya mediasından gizlədilməsi Fransanın insan haqlarını tapdalamasının bariz nümunəsidir.

Vaxtilə ölkəmiz də müstəmləkə həyatı yaşayıb, öz milli sərvətlərinin talan olunması, dilinin sıxışdırılması ilə üz-üzə qalıb. Ölkəmiz azadlığın, müstəqilliyin nə qədər dəyərli bir nemət olduğunu tarixi təcrübəsi ilə bilir. Məhz bu tarixi təcrübəyə və ədalət prinsipinə əsaslanaraq, Azərbaycan bu gün beynəlxalq arenada Yeni Kaledoniyanın, Polineziyanın, Martinikanın, Qvadelupanın və Sen-Martenin müstəqilliyini, azadlıq mübarizəsini qətiyyətlə dəstəkləyir. Bu dəstək heç bir ölkənin daxili işinə qarışmaq deyil, əksinə, BMT nizamnaməsində təsbit olunmuş hüquqların qorunmasına xidmət edən humanitar və mənəvi missiyadır.

Azərbaycan kolonializmə qarşı mübarizədə, sadəcə, bəyanatlarla kifayətlənmir, bundan başqa, çox mühüm əməli addımlar atır. Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövrdə ölkəmiz neokolonializm mövzusunu qlobal müstəviyə çıxarıb. Bakı Təşəbbüs Qrupunun qurulması və dənizaşırı ərazilərin nümayəndələrinin öz səslərini dünyada eşitdirməsi Azərbaycanın qətiyyətli siyasətinin nəticəsidir.

Azərbaycan bu addımları ilə sübut edir ki, hər zaman haqlının yanındadır. Şuşadan dünyaya yayılan bu mesajlar göstərir ki, Qərbin manipulyativ insan hüquqları ritorikası artıq işə yaramır. Həqiqət gec-tez öz yerini tapır və Azərbaycan bu həqiqətin bərpası yolunda öz ədalətli mübarizəsini qətiyyətlə davam etdirəcək.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# "Türkiyə-Azərbaycan müttəfiqliyi Cənubi Qafqazda yeni geosiyasi nizamın əsas dayağıdır"

**"Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda Türkiyə-Azərbaycan münasibətlərinə dair səsləndirdiyi fikirlər təkcə iki ölkə arasındakı güclü qardaşlıq əlaqələrinin ifadəsi deyil, həm də son illərdə regionda formalaşan yeni geosiyasi reallığın ümumiləşdirilmiş təhlilidir. Bu gün Ankara ilə Bakı arasındakı münasibətlər klassik strateji tərəfdaşlıq anlayışını geridə qoyaraq təhlükəsizlik, energetika, nəqliyyat, müdafiə sənayesi, xarici siyasət və iqtisadi inteqrasiyanı əhatə edən institusional müttəfiqlik modelinə çevrilib".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **beynəlxalq münasibətlər üzrə türk ekspert Mehmet Gökhan Özçubukçu** deyib.

Ekspert bildirib ki, Prezident İlham Əliyevin "Dünyada bir-birinə bu qədər yaxın iki dövlət yoxdur" fikri emosional yanaşmadan daha çox, mövcud strateji reallığın ifadəsidir. "Bu gün Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri digər strateji tərəfdaşlıqlardan fərqləndirən əsas xüsusiyyət əməkdaşlığın yalnız ortaq maraqlara deyil, eyni zamanda ortaq tarixə, ortaq mədəniyyətə, ortaq dilə və ortaq milli kimlik şüuruna söykənməsidir. Beynəlxalq münasibətlər sistemində ittifaqların əksəriyyəti dəyişən təhlükəsizlik təhdidləri və ya iqtisadi maraqlar əsasında formalaşır. 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi bu münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Bu gün Ankara və Bakı artıq, sadəcə, bir-birini dəstəkləyən dost və qardaş dövlətlər deyil, Cənubi Qafqazda yeni geosiyasi nizamın formalaşmasına birlikdə təsir göstərən iki strateji aktordur", - deyə ekspert qeyd edib.

Mehmet Gökhan Özçubukçu bildirib ki, son beş ildə baş verən hadisələr Azərbaycanın regional rolunun əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirir. "İkinci Qarabağ



müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıq Cənubi Qafqazda güc balansını əsaslı şəkildə dəyişib. Azərbaycan təkcə ərazi bütövlüyünü bərpa etmiş dövlət kimi deyil, həm də regional nəqliyyat şəbəkələrinin, enerji təhlükəsizliyinin və iqtisadi inteqrasiyanın əsas iştirakçılarından biri kimi çıxış edir. Bu gün Avropanın enerji təhlükəsizliyindən başlayaraq Orta dəhlizin inkişafına qədər bir çox strateji istiqamətdə Bakının rolu getdikcə artır. Prezident İlham Əliyevin forumda Avropanın enerji təhlükəsizliyi ilə bağlı vurğuladığı məqamlar da məhz bu yeni geosiyasi mövqenin göstəricisidir.

"Uzun illər münaqişələr və işğallar səbəbindən qeyri-sabitliklə xarakterizə olunan region bu gün ilk dəfə genişmiqyaslı iqtisadi əməkdaşlıq və regional inteqrasiya imkanlarını müzakirə edir. Bunun reallaşması isə ilk növbədə Azərbaycan ilə Ermənistan arasında davamlı sülh sazişinin imzalanmasından asılıdır. Azərbaycan hərbi qələbəsini diplomatik və iqtisadi üstünlüklərə çevirməyə yönəlmiş siyasət həyata keçirir. Regionda nəqliyyat xətlərinin açılması, sərhədlərin normallaşdırılması, ticarətin inkişaf etdirilməsi və bağlantısallığın artırılması istiqamətində atılan addımlar bunun konkret nümunəsidir", - deyə ekspert qeyd edib.

Mehmet Gökhan Özçubukçu bildirib ki, Zəngəzur dəhlizi və Orta dəhliz layihələri bu strateji baxışın əsas elementlərindəndir. "Bu layihələr yalnız Azərbaycan ilə Naxçıvan arasında fasiləsiz nəqliyyat əlaqəsini təmin etməyəcək, eyni zamanda Türkiyəni Xəzər hövzəsi, Mərkəzi Asiya və bütövlükdə türk dünyası ilə birləşdirən strateji kommunikasiya xətti yaradacaq. Qlobal ticarət marşrutlarının yenidən formalaşdığı və təchizat zəncirlərinin şaxələndirildiyi indiki dövrdə bu dəhlizlər təkcə iqtisadi deyil, həm də geosiyasi əhəmiyyət daşıyır. Avropa ilə Asiya arasında yükdaşımaların mühüm hissəsinin Orta dəhlizə yönəlməsi Türkiyə və Azərbaycanın strateji əhəmiyyətini daha da artırır.

Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə, bərpaolunan enerji sahəsinə yatırımlar, Xəzər keçidli nəqliyyat layihələri və Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirdiyi fəal siyasət Azərbaycanın beynəlxalq nüfuzunu və diplomatik çəkisini davamlı şəkildə artırır. Buna görə də bu gün Azərbaycan yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya geosiyasətinin formalaşmasında söz sahibi olan orta güc kimi çıxış edir", - deyə Mehmet Gökhan Özçubukçu bildirib.

Onun sözlərinə görə, Türkiyə ilə strateji müttəfiqlik Azərbaycanın regional təsir imkanlarını daha da genişləndirir. "Türkiyə ilə Azərbaycanın son illərdə ortaya qoyduğu əməkdaşlıq modeli artıq Türk Dövlətləri Təşkilatı üçün də nümunədir. Son illərdə nəqliyyat, energetika, müdafiə sənayesi, rəqəmsal transformasiya, ticarət və institusional inteqrasiya istiqamətlərində həyata keçirilən birgə layihələr türk dünyasında ortaq fəaliyyətin mümkünlüyünü praktik şəkildə nümayiş etdirib. Türk Dövlətləri Təşkilatının getdikcə daha institusional quruma çevrilməsində Ankara ilə Bakının ortaq liderliyi mühüm rol oynayır. Orta dəhlizin inkişafı, gömrük prosedurlarının sadələşdirilməsi, Xəzər keçidli nəqliyyat layihələri və ortaq investisiya mexanizmləri kimi təşəbbüslər də məhz bu əməkdaşlığın nəticəsidir və Türkiyə-Azərbaycan tərəfdaşlığının artıq türk dünyasının inteqrasiyasına xidmət edən strateji modelə çevrildiyini göstərir", - deyə o bildirib.

Ekspert sonda vurğulayıb ki, Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər mövcud geosiyasi transformasiyanın dəqiq təhlilinə əsaslanır: "Azərbaycan bu gün hərbi uğurlarını diplomatik təsir imkanları, iqtisadi bağlantısallıq və regional liderlik potensialı ilə tamamlayan yeni xarici siyasət modeli həyata keçirir. Türkiyə ilə qurulan nümunəvi müttəfiqlik isə təkcə iki ölkənin milli maraqlarını qoruyan əməkdaşlıq deyil, həm də Cənubi Qafqazda davamlı sülhün, Avrasiyada yeni nəqliyyat və enerji şəbəkələrinin, eləcə də türk dünyasının inteqrasiyasının əsas hərəkətverici qüvvələrindən birinə çevrilib. Qarşıdakı dövrdə bu tərəfdaşlığın həm regional sabitlik, həm də qlobal geoiqtisadi tarazlıqlar baxımından əhəmiyyətinin daha da artacağını gözləmək olar".



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



**Müasir dünyada ölkələrin inkişaf səviyyəsi, iqtisadi qüdrəti və qlobal rəqabətqabiliyyətliliyi təkcə zəngin təbii resurslar, coğrafi üstünlüklər və ya ənənəvi sənaye göstəriciləri ilə ölçülmür. XXI əsrin əsas inkişaf meyarı rəqəmsal texnologiyaların tətbiqi, süni intellekt imkanlarından səmərəli istifadə, innovasiya mühitinin formalaşdırılması və kibertəhlükəsizliyin etibarlı şəkildə təmin edilməsidir. Xüsusən, 2020-ci ildən sonra dünya əvvəlki inkişaf modellərindən köklü surətdə fərqlənən, Dördüncü Sənaye İnqilabının diktə etdiyi yeni qlobal nizama qədəm qoymuşdur. Bu yeni nizamın mərkəzində isə rəqəmsallaşma və rəqəmsal transformasiya prosesləri dayanır.**



# Rəqəmsal keçid Azərbaycanın gələcəyə hədəflənmiş inkişaf modelinin əsas istiqamətlərindən biri kimi

## İnformasiya və kommunikasiya texnologiyaları sahəsində həyata keçirilən konseptual islahatlar ölkəmizi innovasiya mərkəzinə çevirir

Rəqəmsallaşma, sadəcə, mövcud kağız daşıyıcılarındakı məlumatların və ya ənənəvi xidmətlərin elektron formaya keçirilməsi demək deyil. Bu proses idarəetmə fəlsəfəsinin yenilənməsini, məlumatların rəqəmsal mühitdə təhlükəsiz idarə olunmasını, qərarların real təhlillərə əsaslanaraq daha dəqiq və operativ qəbul edilməsini, eləcə də vətəndaş və biznes subyektlərinə göstərilən xidmətlərin keyfiyyətinin yeni müstəviyə qaldırılmasını zəruri edən bütöv bir ekosistemdir. Rəqəmsal transformasiyanın zəruriliyi dövlət qurumları arasında məlumat mübadiləsinin maksimum sürətləndirilməsi, bürokratik prosedurların və vətəndaş-məmur təmasının minimuma endirilməsi, şəffaflığın artırılması və resurslardan səmərəli istifadə ilə şərtlənir.

### Azərbaycanda rəqəmsal transformasiyanın tarixi təməli

Azərbaycan da qlobal texnoloji trendləri milli maraqlara uyğun tətbiq etmək, rəqəmsal ekosistem formalaşdırmaq və çevik idarəetmə mexanizmləri yaratmaq çağırışlarına ən yüksək səviyyədə cavab verməkdədir. Ölkəmizdə rəqəmsallaşma ardıcıl və konseptual şəkildə həyata keçirilir, sistemli dövlət siyasətinə əsaslanır. Dövlət xidmətlərinin elektronlaşdırılması, rəqəmsal platformaların miqyasının genişləndirilməsi, milli innovasiya ekosisteminin qurulması və kibertəhlükəsizliyin təmini istiqamətində atılan fundamental addımlar ölkəmizin uzunmüddətli, dayanıqlı və innovasiya tutumlu yeni inkişaf modelinin əsas hərəkətverici qüvvəsinə çevrilməsi üçün məqsədyönlü addımlar atılır.

İnternet istifadəçilərinin sayının sürətlə artması, infrastrukturun yenilənməsi və beynəlxalq tranzit magistrallarına çıxışın təmin edilməsi məhz bu dövrün planlı idarəetmə silsiləsidir. Elektron hökumət həllərinin tətbiqinə start verilməsi, dövlət reyestrlərinin rəqəmsal formata köçürülməsi ölkənin rəqəmsal gələcəyi üçün möhkəm infrastruktur və hüquqi zəmin yaratmışdır. Aparılan təhlillər göstərir ki, illər öncədən başlanan rabitə və yüksək texnologiyalar islahatları, iqtisadiyyatın qeyri-neft sektorunun şaxələndirilməsində katalizator rolunu oynayaraq, bugünkü genişmiqyaslı bulud və süni intellekt layihələrinə keçid üçün dayanıqlı platforma formalaşdırmışdır.

Respublikamızda bu sahədə aparılan sistemli islahatlardan irəli gələrək rəqəmsal inkişaf strategiyaları qəbul edilib. Bu sənədlər Azərbaycanın uzunmüddətli texnoloji hədəflərini və rəqəmsal ekosistemin formalaşdırılması prioritetlərini özündə ehtiva edir. 2026-cı il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı fəaliyyət proqramına həsr olunmuş müşavirə keçirilmişdir. Dövlətimizin başçısının müşavirədə verdiyi tapşırıqlar və müəyyənləşdirdiyi hədəflər əsasında fevralın 27-də Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı təsdiq edilmişdir.

Bu sahədə atılan ən mühüm institusional addım və rəqəmsallaşma prosesinə verilən yüksək dövlət dəstəyinin təzahürü kimi bu il iyun ayının 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilmişdir. Müşavirədə rəqəmsal keçidlə bağlı son aylarda aparılan işlər, əldə edilən nəticələr müzakirə olunmuşdur.

Bu istiqamətdə həyata keçirilən fundamental və institusional islahatların ən uğurlu, beynəlxalq səviyyədə tanınan brend nümunəsi Prezident İlham Əliyevin 2013-cü il 13 iyul tarixli fərmanı ilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və "ASAN xidmət" modelinin təsis edilməsi olmuşdur. Artıq bu xidmət Azərbaycanda rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşmasının ən uğurlu nümunələrindən biri kimi özünü təsdiqləmişdir.

Hazırda dövlətimiz bu irimiqyaslı nailiyyətlərin üzərində daha fundamental, təhlükəsiz və əhatəli rəqəmsal arxitektura formalaşdırır. Bu çərçivədə ölkədə genişzolaqlı internet infrastrukturunun qurulması məqsədilə həyata keçirilən layihələr nəticəsində genişzolaqlı fiber-optik internet istifadəçilərinin payı kütləvi şəkildə artmışdır. Hökumət buludu (G-Cloud) layihəsi çərçivəsində onlarca dövlət qurumunun informasiya sistemləri



vahid, təhlükəsiz və optimallaşdırılmış məlumat mərkəzində cəmləşdirilmişdir ki, bu da illik infrastruktur xərclərinə 30 faizdən çox qənaət etməyə imkan verir.

Rəqəmsallaşma siyasəti, sadəcə, qərarlarla deyil, həm də çevik institusional mexanizmlərlə gücləndirilir. Rəqəmsal idarəetmə strukturunun qurulması və rəqəmsal ekosistemin mərkəzləşdirilmiş qaydada idarə edilməsi Azərbaycanın bu sahədəki qətiyyətini göstərən ən mühüm məqamlardan biridir. Ölkəmizdə rəqəmsal transformasiya və yüksək texnologiyalar sahəsində siyasəti birbaşa icra edən, bu prosesi vahid mərkəzdən əlaqələndirən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, eləcə də onun nəzdindəki müvafiq qurumların fəaliyyəti bu sahədəki işlərin sistemli və ardıcıl aparılmasına zəmin yaradır.

### Ölkəmizin yeni rəqəmsal arxitekturası

Azərbaycanın rəqəmsal inkişaf tarixində 2026-cı ilin fevral ayının 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" mövzusundakı strateji müşavirə tam mənası ilə yeni bir mərhələnin başlanğıcı və ölkənin texnoloji ekosistemi üçün dönüş nöqtəsi oldu. Bu müşavirə Azərbaycanın rəqəmsal transformasiya prosesinə yanaşmasının nə dərəcədə strateji olduğunu, bu sahədə qətiyyətli siyasi iradənin mövcudluğunu nümayiş etdirdi.

Dövlətimizin başçısı vurğulamışdır ki, gələcəyin iqtisadi və siyasi gücü yalnız zəngin təbii resurslarla deyil, bilik, innovasiya və müasir texnologiyalarla müəyyən ediləcəkdir. Prezident İlham Əliyevin çıxışında bəyan etdiyi kimi, bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir. Bizim bir çox üstünlüyümüz var, onlardan biri bizim coğrafi şəraitimizdir. Ona görə də dövlətimizin başçısı bu coğrafi üstünlüyün iqtisadi və infrastruktur qazanca çevrilməsinin vacibliyini bildirərək, ənənəvi enerji və nəqliyyat dəhlizlərinin mütləq şəkildə qlobal fiber-optik magistral dəhlizlərinə inteqrasiya olunması tapşırığını verdi.

Məhz bu müşavirədə verilən birbaşa tapşırıqlar dövlət idarəçiliyinin modernləşdirilməsinə, qeyri-neft sektorunun sürətli şaxələndirilməsinə və yüksək əlavə dəyər yaradan texnologiya əsaslı iqtisadiyyatın formalaşdırılmasına yönəlmiş fundamental institusional islahatların əsasını qoydu. Bu strateji baxış dövlət orqanlarında fərdi elektron xidmətlər yaratmaq təcrübəsinin birdəfəlik aradan qaldırılmasını və tam mərkəzləşdirilmiş, çevik idarəetmə modelinə keçidi tələb edirdi. Bu toplantının ardınca nazirliklərdə birbaşa rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik məsələlərinə məsul olan xüsusi nazir müavinlərinin təyin edilməsi idarəetmədə şaquli koordinasiyanı təmin edən çox mühüm addımdır. Dövlət xidmətlərinin təkmilləşdirilmiş vahid "mygov" platformasında birləşdirilməsi və özəl sektorun, o cümlədən investisiya fondlarının innovasiya ekosisteminə cəlb edilməsi qərarları Azərbaycanın yaxın onillik üçün rəqəmsal inkişaf trayektoriyasını tamamilə yeniləmişdir.

### Rəqəmsal İnkişaf Şurası: Rəqəmsal keçiddə vahid mərkəz

Beynəlxalq təcrübə sübut edir ki, rəqəmsal transformasiya kimi nəhəng, şaxələnmiş və böyük maliyyə tutumu investisiya tələb edən prosesin yalnız bir nazirliyin çərçivəsində və ya ayrı-ayrı dövlət qurumlarının pərakəndə, bir-birindən təcrid olunmuş fəaliyyəti ilə uğura çatması qeyri-mümkündür. Bu səbəbdən, dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi, dövlət qurumları arasında məlumat və infrastruktur koordinasiyasının ən yüksək səviyyədə gücləndirilməsi üçün belə bir ali şuranın yaradılması strateji zərurətdən irəli gəlirdi. Qlobal reytinqlərdə ön sıralarda qərarlaşan rəqəmsal dövlət modellərinə nəzər saldıqda görürük ki, mərkəzi idarəetmə orqanının mövcudluğu texnoloji investisiyaların səmərəliliyini kəskin şəkildə artırır.

Prezident İlham Əliyevin fevral ayında keçirilən strateji müşavirədəki tapşırıqlarının ardınca atılan önəmli addımlardan biri Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şuraya sədr təyin olunması idi. Şuranın yaradılmasında əsas məqsəd ölkə miqyasında rəqəmsallaşma, texnoloji innovasiya, süni intellekt və kibertəhlükəsizlik istiqamətlərində həyata keçirilən bütün layihələrin vahid idarəetmə modeli çərçivəsində əlaqələndirilməsidir. Bu qurum müxtəlif dövlət təsisatlarının intellektual, maliyyə və texnoloji resurslarını bir araya gətirərək innovasiya əsaslı iqtisadi modelə keçidi sürətləndirən əsas hərəkətverici mərkəzdir.

Bu təyinat, eyni zamanda rəqəmsal transformasiya prosesinin dövlət siyasətində hansı dərəcədə prioritet təşkil etdiyinin bariz göstəricisidir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fundamental humanitar, sosial və infrastruktur layihələri, yüksək idarəetmə təcrübəsi rəqəmsal ekosistemin qurulmasında əsas hərəkətverici qüvvəyə çevriləcəkdir. Bu yüksək statuslu və nüfuzlu rəhbərlik dövlət qurumları, özəl sektor və elmi dairələr arasında rəqəmsallaşma sahəsindəki koordinasiyanın ən yüksək səviyyədə təmin olunmasına, bürokratik əngəllərin aradan qaldırılmasına şərait yaradacaq. 2026-2028-ci illəri əhatə edən Fəaliyyət Planının hər bir bəndinin vaxtında və tam icrasına, gənclərin yüksək texnologiyalar və süni intellekt sahəsinə cəlb olunmasına, yerli startapların qlobal bazarlara çıxışı üçün güclü ekosistemin formalaşdırılmasına birbaşa təminat verəcək.

İslahatların icrasını təmin etmək məqsədilə dövlət başçısının müvafiq tapşırığına əsasən, bütün nazirlik və komitələrdə rəqəmsallaşma təşəbbüslərinin, kiberdözümlülük tədbirlərinin icrasına birbaşa birinci rəhbər müavini səviyyəsində konkret cavabdeh şəxslər təyin edilmişdir. Bu addım idarəetmədə şaquli əlaqələndirməni əhəmiyyətli dərəcədə gücləndirəcək, qəbul edilən qərarların operativ icra mexanizmini son dərəcə çevik və hesabverən hala gətirməsini təmin edəcəkdir.

### 2026-2028-ci illər üçün Fəaliyyət Planı və məqsədlər

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" ölkənin yaxın üç il ərzində texnoloji statusunu tamamilə dəyişəcək kompleks tədbirləri və hədəfləri müəyyən edən əsas strateji sənəddir. Bu Fəaliyyət Planı ayrı-ayrı layihələrin sadə məcmusu deyil, ölkənin rəqəmsal suverenliyini təmin edən, milli maraqlara və gələcəyin texnoloji çağırışlarına əsaslanan mükəmməl yol xəritəsidir. Dövlət idarəçiliyinin bütün təbəqələrini əhatə edən bu fundamental proqram ölkədə tam formalaşmış, inteqrasiya olunmuş və kiberhədələrə davamlı rəqəmsal ekosistemin qurulmasını hədəfləyir.

Sənəd rəqəmsallaşma, süni intellekt texnologiyalarının səmərəli tətbiqi, innovasiya ekosisteminin dinamik inkişafı və kibertəhlükəsizliyin etibarlı mühafizəsi olmaqla dörd əsas sütun üzərində qurulmuşdur. Bu mühüm istiqamətlərin uğurlu və dayanıqlı icrasını dəstəkləyən təməl amillər kimi isə infrastruktur bazasının tam modernləşdirilməsi, müasir hüquqi tənzimləmə mexanizmlərinin formalaşdırılması, yüksəkixtisaslı insan kapitalının yetişdirilməsi və mərkəzləşdirilmiş çevik idarəetmə prinsipləri müəyyən edilmişdir. Fəaliyyət Planının əsas hədəfləri dövlət idarəetməsinin optimallaşdırılması, bürokratik prosedurların tam aradan qaldırılması, beynəlxalq nüfuzlu reytinqlərdə Azərbaycanın mövqeyinin ön sıralara yüksəldilməsi və iqtisadiyyatın rəqəmsal ÜDM-dəki payının əhəmiyyətli dərəcədə artırılaraq milli gəlirlərin şaxələndirilməsidir.

Ən mühüm və strateji məqamlardan biri odur ki, bu plan ölkədə mövcud olan İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizlik üzrə Strategiya, Rəqəmsal İnkişaf Konsepsiyası və Süni İntellekt Strategiyası ilə konseptual şəkildə uzlaşdırılmışdır. Beləliklə, dövlətin rəqəmsal sahədəki strateji baxışı, prioritetləri və konkret icra mexanizmləri ilk dəfə olaraq vahid, monolit sistem daxilində birləşdirilmişdir. Ümumilikdə 58 mühüm təşəbbüsü əhatə edən bu irimiqyaslı plan çərçivəsində artıq 40 dövlət qurumu ilə fərdi Yol xəritələri işlənib hazırlanmış, onlardan 13-ü tam təsdiq olunmuş və ya son təsdiq mərhələsinə gətirilmişdir. Bu isə rəqəmsallaşma dalğasının ölkə miqyasında bütün sahələri əhatə edən sistemli bir institusional hərəkətə çevrildiyini aydın göstərir.

### Nəzəriyyədən təcrübəyə

2026-cı il iyunun 29-da Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk geniş tərkibli iclasının keçirilməsi rəqəmsal transformasiya siyasətinin nəzəri müstəvidən genişmiqyaslı əməli müstəviyə keçdiyini aydın nümayiş etdirən tarixi və fundamental bir hadisə oldu. Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə iclasda "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın cari icra vəziyyəti, bu sahədə qlobal trendlərə uyğun genişmiqyaslı qanunvericilik islahatları və insan kapitalının gücləndirilməsi məqsədilə təhsil sisteminin rəqəmsallaşdırılması istiqamətində görülən işlər ətraflı şəkildə təhlil və müzakirə olundu. Mehriban Əliyeva çıxışında Fəaliyyət Planının vaxtında və keyfiyyətlə icrasının şuranın əsas fəaliyyət xətti və prioriteti olduğunu qeyd edərək, dövlət idarəçiliyində rəqəmsallaşmanın, süni intellektin, kibertəhlükəsizliyin və innovasiya ekosisteminin inkişafı, həmçinin xarici və daxili investisiyaların, startap mühitinin dəstəklənməsinin dövlətin diqqət mərkəzində olduğunu bildirdi. Birinci vitse-prezident öz çıxışında xüsusilə süni intellekt texnologiyalarının gələcəyin idarəetməsindəki strateji əhəmiyyətini ön plana çəkərək, bu sahədə atılacaq hər bir addımda və qəbul edilən bütün qərarlarda Azərbaycanın milli maraqlarının, suverenliyinin və təhlükəsizliyinin hər şeydən üstün tutulmasının vacibliyini qətiyyətlə vurğuladı.

Keçirilən yüksəksəviyyəli toplantıda Fəaliyyət Planı üzrə Yol xəritələrinin hazırlanmasının cari vəziyyəti, ölkənin bütün məlumat resurslarını mərkəzləşdirilmiş qaydada idarə edəcək Milli Məlumat Hövzəsinin yaradılması prosesi, dövlət informasiya sistemlərinin tam təhlükəsiz şəraitdə Hökumət Buluduna miqrasiyası və vətəndaşlar üçün proaktiv xidmətlər təqdim edən "mygov" platformasının funksionallığının genişləndirilməsi barədə ətraflı hesabatlar təqdim olundu. Eyni zamanda iclasda qabaqcıl beynəlxalq təcrübəyə, o cümlədən inkişaf etmiş ölkələrin standartlarına əsaslanan, yerli innovasiya və rəqəmsal iqtisadiyyat mühitini tənzimləyəcək əhatəli və mütərəqqi qanunvericilik paketinin hazırlandığı bəyan edildi. Texnoloji transformasiyanın ən mühüm sütunu olan insan kapitalının gücləndirilməsi məqsədilə reallaşdırılan "Rəqəmsal məktəb", "Rəqəmsal bacarıqlar" və "STEAM Azərbaycan" layihələri vasitəsilə orta və ali təhsil müəssisələrində görülən işlər, müasir proqramlaşdırma metodlarının tədrisi diqqətə çatdırıldı. Texnoloji və idarəçilik ekspertlərinin şərhlərində də geniş qeyd olunduğu kimi bu tarixi iclas ölkənin rəqəmsal gələcəyinin fərqli sahələr üzrə vahid dövlət strategiyası əsasında mükəmməl və koordinasiya ilə idarə olunduğunu beynəlxalq müstəvidə tamamilə təsdiq etdi.

### Vətəndaşyönümlü rəqəmsallaşma: "mygov" və "mygov Biznes" vahid ekosistemi

Azərbaycanda həyata keçirilən rəqəmsallaşma siyasətinin əsas fəlsəfəsində birbaşa vətəndaş amili, cəmiyyətin rahatlığı və vətəndaş məmnuniyyətinin ən yüksək səviyyədə təmin edilməsi dayanır. Bu günə qədər vətəndaşlar və biznes subyektləri müxtəlif dövlət xidmətlərinə çıxış əldə etmək üçün mobil cihazlarında onlarca fərqli nazirliyin və ya komitənin bir-birindən təcrid olunmuş fərdi mobil tətbiqlərindən istifadə etmək məcburiyyətində qalırdılar. Bu hal istifadəçilər arasında ciddi vaxt itkisinə, pərakəndəliyə, yaddaş və resurs yüklənməsinə, həmçinin zəruri dövlət xidmətinin tapılmasında inzibati çətinliklərə səbəb olurdu. Qeyd olunan funksional pərakəndəliyi tamamilə və kökündən aradan qaldırmaq məqsədilə dövlət tərəfindən bütün rəqəmsal xidmətlər və elektron sənədlər vətəndaşlar üçün "mygov", sahibkarlar və hüquqi şəxslər üçün isə "mygov Biznes" platformaları vasitəsilə vahid, mərkəzləşdirilmiş, təhlükəsiz və inteqrasiya olunmuş ekosistemdə sürətlə birləşdirilir.

Strategiyaya uyğun olaraq bu istiqamətdə artıq çox ciddi və ölçülə bilən əməli uğurlar əldə edilmişdir. Hökumət buludu və universal məlumat mübadiləsi sistemlərinin tam gücü ilə işləməsi nəticəsində qısa müddət ərzində "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam funksionallığı ilə "mygov" platformasına inteqrasiya olunmuşdur. Bununla yanaşı, vətəndaşların gündəlik həyatında xüsusi əhəmiyyət kəsb edən "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Reseptim", "e-Səhiyyə", "MigAz" və "ASAN Müraciət" tətbiq və xidmətlərinin çox böyük bir hissəsi artıq texnoloji cəhətdən uyğunlaşdırılmışdır. Bu ilin sonunadək qeyd olunan bütün bu sistemlərin təqdim etdiyi xidmətlər tam şəkildə vahid platforma üzərindən istifadəçilərə təqdim edilməsi təmin olunacaqdır. Biznes sektoru üçün strateji əhəmiyyət daşıyan "mygov Biznes" platforması da artıq test mühitində uğurla sınaqdan keçirilmiş və dövlət-biznes münasibətlərində "vahid pəncərə" institutu kimi fəaliyyətə başlamışdır.

Həyata keçirilən struktur və texnoloji islahatların səmərəliliyi real və rəsmi statistik göstəricilərdə də özünü aydın şəkildə büruzə verir. Son aylar ərzində görülən operativ şəbəkə işləri və optimallaşdırma tədbirləri nəticəsində "mygov" platformasının aktiv istifadəçi sayı sürətlə artaraq 2,7 milyondan 3,5 milyona yüksəlmişdir. Eyni zamanda sürücülük vəsiqəsinin dəyişdirilməsi və yenilənməsi üçün müraciət prosesi tam şəkildə kağızsız və növbəsiz olaraq bu platformaya köçürülmüşdür. Yaxın perspektivdə isə şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportu kimi ən fundamental şəxsi sənədlərin alınması, rüsumların ödənilməsi və yenilənməsi də tamamilə insan amili olmadan "mygov" üzərindən icra ediləcəkdir. Bu il əldə olunan ən mühüm uğurlar sırasına ali təhsil müəssisələrinə qəbul olan 75 minə yaxın gəncin tələbə qeydiyyatı prosesini tam onlayn formatda başa vurması və övladlarını məktəbəqədər təhsil müəssisələrinə, bağçalara qəbul etdirmək istəyən 225 min valideynin bu prosesi növbə şəffaflığı qorunmaqla tam rəqəmsal qaydada həyata keçirməsi daxildir.

### Dövlət Məlumat Hövzəsi: "Yalnız bir dəfə" prinsipi və proaktiv dövlət xidmətləri

Azərbaycan Respublikasında reallaşdırılan rəqəmsal islahatların və Fəaliyyət Planının köklü hədəflərindən biri hazırda ənənəvi (rəqəmsal olmayan) formatda qalan xidmətlərin sürətlə elektronlaşdırılması ilə yanaşı, proaktiv dövlət xidmətlərinin ümumi payının 50 faiz həddinə çatdırılmasıdır. Proaktiv xidmət modelində vətəndaşın hər hansı bir dövlət orqanına fiziki olaraq getməsinə, növbədə gözləməsinə və ya elektron sistemlər üzərindən ərizə və müraciət formaları doldurmasına heç bir ehtiyac qalmır. Sistemlərarası inteqrasiya, mərkəzləşdirilmiş məlumat mübadiləsi və alqoritmlər əsasında müvafiq xidmət avtomatik, vaxtında və insan amili olmadan birbaşa vətəndaşa təqdim edilir.

Bu mütərəqqi yanaşmanın hüquqi və texnologiyayönümlü təməlini isə beynəlxalq praktikada geniş tətbiq edilən "Yalnız bir dəfə" (Once-Only) prinsipi təşkil edir. Bu prinsipə görə, dövlət informasiya sistemlərində və reyestrlərində vətəndaş barədə artıq bir dəfə qanuni şəkildə toplanmış məlumat, arayış və ya sənəd digər dövlət qurumları tərəfindən hər hansı inzibati prosedur üçün vətəndaşdan təkrar tələb edilə bilməz. Bu yanaşma qurumlararası məlumat asılılığını aradan qaldırır, korrupsiya risklərini minimuma endirir və çoxillik bürokratik maneələri kökündən sıradan çıxarır.

Hazırda ölkədə bu prinsipin tətbiq edildiyi ən parlaq və uğurlu nümunə yaşa görə əmək pensiyasının təyin edilməsi prosesidir. Şəxsin qanunvericiliklə müəyyən olunmuş pensiya yaşı çatdıqda və müvafiq sığorta stajı şərtləri ödənildikdə, sistem heç bir müraciət və ya sənəd paketi gözləmədən pensiyanı proaktiv qaydada təyin edir və vətəndaşı bu barədə SMS vasitəsilə məlumatlandırır.

Eyni mükəmməl yanaşma yaxın gələcəkdə uşağın anadan olmasına görə birdəfəlik müavinətin təyin edilməsində də tam tətbiq olunacaq. Doğum faktı müvafiq qeydiyyat şöbəsi tərəfindən sistemə daxil edilən kimi, müavinət valideynin heç bir müraciəti olmadan avtomatik hesablanaraq ödəniləcəkdir. Digər tətbiq olunacaq proaktiv xidmət çərçivəsində isə vətəndaşlar şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu və ya sürücülük vəsiqəsinin etibarlılıq müddəti bitməmişdən müəyyən müddət əvvəl sistem tərəfindən avtomatik bildirişlərlə məlumatlandırılacaqlar. Həmçinin səfərbərlik üzrə hərbi xidmətə və zəruri tibbi müayinəyə çağırışlar da tam rəqəmsal formata keçirilərək bu sahədə operativlik, şəffaflıq və çevik nəzarət təmin ediləcəkdir.

Bununla yanaşı, dövlət məlumatlarının vahid arxitekturaya gətirilməsini təmin etmək üçün ölkədə dövlətə məxsus datanın dürüstlüyünü, təhlükəsizliyini, tamlığını və dəqiqliyini təmin edən mərkəzləşdirilmiş Dövlət Məlumat Hövzəsinin yaradılması işlərinə sürətlə başlanılmışdır. Müasir süni intellekt və maşın öyrənməsi alqoritmləri bu böyük məlumat hövzəsinə inteqrasiya edilərək vətəndaşların sosial, tibbi və inzibati ehtiyaclarını, risk qruplarını əvvəlcədən proqnozlaşdırmağa və onlara tamamilə fərdiləşdirilmiş, nöqtəvi dövlət xidmətləri təqdim etməyə imkan verəcəkdir. Texnoloji ekspertlərin rəylərinə görə, Dövlət Məlumat Hövzəsinin tam funksional fəaliyyətə başlaması dövlət idarəçiliyində reaktiv idarəetmədən proqnozlaşdırıla bilən (prediktiv) idarəetmə modelinə keçidin əsas təminatçısı olacaqdır.

*(ardı var)*

***Ziyad SƏMƏDZADƏ,***
***akademik***




# Birəsrlik irsdən yeni strateji mərhələyə: türk dünyasının gələcək inkişaf istiqamətləri

**2026-cı il türk dünyasının elmi, mədəni, siyasi tarixində xüsusi əhəmiyyət daşıyan hadisə ilə əlamətdar oldu. Düz 100 il əvvəl - 1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilmiş I Türkoloji Qurultayın yubileyi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı əsasında geniş qeyd olundu. Bir əsr əvvəl Azərbaycan paytaxtında keçirilmiş həmin qurultay türk xalqlarının ortaq elmi düşüncəsini, dil birliyini və mədəni inteqrasiyasını formalaşdıran ən mühüm platformalardan biri idi. Bu gün isə həmin irs tamamilə yeni geosiyasi şəraitdə, müstəqil türk dövlətlərinin əməkdaşlığı fonunda yenidən aktuallıq qazanır.**

Yubiley tədbirləri göstərdi ki, I Türkoloji Qurultay artıq yalnız tarixə aid hadisə deyil. O, son illər Azərbaycanın fəal iştirakı ilə getdikcə güclənib qlobal platformaya çevrilməkdə olan Türk Dövlətləri Təşkilatının (TDT) ideoloji və humanitar əsaslarını möhkəmləndirən mühüm intellektual sütuna çevrildi. 100 illik yubiley çərçivəsində qəbul edilən qərarlar, aparılan müzakirələr və irəli sürülən təşəbbüslər türk dünyasının gələcək inkişaf strategiyasının mühüm istiqamətlərini müəyyənləşdirdi.

## Davam edən tarix

I Türkoloji Qurultay XX əsrin əvvəllərində türk xalqlarının elmi inteqrasiyasının zirvəsi hesab edilir. O dövrdə dünyanın müxtəlif bölgələrindən gəlmiş yüzlərlə alim türk dillərinin öyrənilməsi, ortaq əlifba, terminologiya, tarix, folklor və mədəni irsin qorunması kimi məsələləri müzakirə etmişdilər. Qurultayın keçirilməsi üçün Bakının seçilməsi təsadüfi deyildi. Azərbaycan həmin dövrdə də türk dünyasının elmi və mədəni mərkəzlərindən biri idi. Məhz burada türk xalqlarının gələcək inkişafına xidmət edən mühüm qərarlar qəbul olunmuşdu.

Aradan keçən yüz il ərzində dünya dəyişdi. Sovet hakimiyyəti türk xalqları arasında yaranan inteqrasiya prosesini uzun müddət dayandırdı. Müstəqillik qazandıqdan sonra isə Azərbaycan bu ideyanın yenidən dirçəldilməsinin əsas təşəbbüskarlarından biri oldu. Bu baxımdan, 2026-cı ildə keçirilən yubiley tədbirləri tarixlə müasirlik arasında körpü rolunu oynadı.

Əvvəla qeyd edilməlidir ki, yubileylə əlaqədar Bakıda keçirilən "Türk Dünyası Həftəsi" yüksək beynəlxalq təmsilçilik səviyyəsi ilə yadda qaldı. Tədbir iştirakçılarına Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müraciəti ilə yanaşı, 5 türk dövlət başçısının rəsmi müraciətləri təqdim olundu, yubiley tədbirlərinə göstərilən yüksək siyasi dəstək və I Türkoloji Qurultayın irsinə verilən önəm bir daha nümayiş etdirildi. Eyni zamanda Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası və Türk Mədəniyyəti və İrsi Fondu da daxil olmaqla türk dünyasının aparıcı beynəlxalq əməkdaşlıq qurumları tədbirlərdə fəal iştirak etdi, həftənin yüksək səviyyədə təşkilinə və məzmununun zənginləşdirilməsinə mühüm töhfə vermiş oldular.

100 illik yubiley münasibətilə beynəlxalq tədbirlər bir daha sübut etdi ki, Azərbaycan bu gün də türk dünyasının intellektual mərkəzi, düşüncə məkanıdır. Onlarla ölkədən alimlər, o cümlədən, tarixçilər, dilçilər, siyasətçilər və mədəniyyət xadimləri Bakıda, eləcə də "Türk Dünyası Həftəsi" çərçivəsində Xankəndidə bir araya gələrək xalqlarımızın ortaq gələcəyini müzakirə etdilər. Bu görüşlər nəticəsində bir neçə mühüm istiqamət üzrə ortaq yanaşmalar formalaşdı.

Həmin yanaşmalar ortaq tarixi irsin sistemli şəkildə araşdırılmasını, türk dillərinin rəqəmsal mühitdə inkişaf etdirilməsini, ortaq terminoloji bazaların hazırlanmasını, ortaq elektron kitabxanaların yaradılmasını, gənc tədqiqatçıların birgə layihələrə cəlb olunmasını, süni intellekt texnologiyalarında türk dillərinin mövqeyinin gücləndirilməsini əhatə edir. Beləliklə, yubiley yalnız keçmişə ehtiram kimi məhdudlaşmadı, həm də gələcəyə yönəlmiş fəaliyyət proqramı oldu.

Həftə çərçivəsində beynəlxalq elmi konfranslar, panel müzakirələri, beş sərgi, təqdimatlar, konsert proqramları və digər mədəni tədbirlər təşkil edildi. Proqrama uyğun təşkil edilmiş tematik sərgilərdə I Türkoloji Qurultayın tarixi irsi, türk xalqlarının ortaq mədəni dəyərləri və zəngin mədəni irsi nümayiş olundu. Bununla yanaşı, yubiley münasibətilə hazırlanmış xüsusi sənədli, eləcə də süni intellekt texnologiyalarından istifadə olunmaqla ərsəyə gətirilmiş innovativ filmlərin təqdimatı keçirildi və onlar iştirakçılar tərəfindən böyük maraqla qarşılandı.

Həftənin ən mühüm nəticələrindən biri tədbir iştirakçıları tərəfindən Xankəndi Bəyannaməsinin qəbul edilməsi oldu. Bəyannamədə elm, təhsil, dil, mədəniyyət və ortaq tarixi irsin qorunması sahələrində türk dövlətləri arasında əməkdaşlığın gələcək inkişaf istiqamətləri müəyyən edilmiş, I Türkoloji Qurultayın ideyalarına sadiqlik bir daha təsdiqlənmişdir. Rəsmi sənəddə Prezident İlham Əliyevin I Türkoloji Qurultayın 100 illiyinin dövlət səviyyəsində qeyd olunması təşəbbüsü, yubiley tədbirlərinin keçirilməsi ilə bağlı sərəncamı və türk dünyasının inteqrasiyasına verdiyi töhfələr yüksək qiymətləndirilmişdir. Eyni zamanda yubiley münasibətilə təbriklərini çatdıran dövlət başçılarına, beynəlxalq təşkilatlara və tərəfdaş qurumlara təşəkkür ifadə edilmişdir.

## Türkologiyada yeni dövrün başlanğıcı

Yubiley tədbirləri Türk Dövlətləri Təşkilatının humanitar gündəminin güclənməsinə də mühüm töhfə verdi. Məlumdur ki, son illər TDT təkcə siyasi və iqtisadi əməkdaşlıq platforması kimi deyil, həm də ortaq mədəni və elmi məkanın formalaşdırılması istiqamətində çox ciddi fəaliyyət göstərir. I Türkoloji Qurultayın 100 illiyi isə bu baxımdan təşkilatın humanitar siyasətinə yeni dinamika gətirdi.

Əgər ilk mərhələdə təşkilat əsasən iqtisadi əlaqələr, nəqliyyat dəhlizləri, enerji təhlükəsizliyi və ticarət məsələlərinə üstünlük verirdisə, indi humanitar əməkdaşlıq strateji istiqamətlərdən birinə çevrilir. Bu isə türk dünyasının uzunmüddətli inteqrasiyası üçün son dərəcə vacibdir. Çünki ortaq iqtisadi məkanın dayanıqlı olması üçün ortaq mədəniyyət, ortaq tarix və ortaq mənəvi dəyərlər də möhkəmləndirilməlidir.

Yubiley tədbirlərində ən çox diqqətçəkən mövzulardan biri ortaq türk əlifbası istiqamətində görülən işlər oldu. Son illər türk dövlətləri arasında bu istiqamət üzrə mühüm irəliləyiş əldə edilib. 1926-cı ildə I Türkoloji Qurultayda latın qrafikalı əlifba məsələsi necə əsas müzakirə mövzusu olmuşdusa, 100 il sonra da ortaq əlifba məsələsi yenidən türk dünyasının inteqrasiyasının əsas istiqamətlərindən biri kimi gündəmə gəldi. Qarabağ Universitetində "I Türkoloji Qurultayın elmi və mədəni mirası" mövzusunda beynəlxalq konfrans və panel sessiyalar təşkil olundu. Türk dünyasından gələn alimlər ortaq dil, əlifba, ədəbiyyat sahəsindəki aktual problemləri müzakirə etdilər. Bu istiqamətdə əldə olunan razılaşmalar gələcəkdə ortaq təhsil resurslarının hazırlanmasına, elmi əsərlərin daha rahat mübadiləsinə, elektron platformaların vahid standart üzrə qurulmasına, informasiya məkanının inteqrasiyasına, gənc nəslin qarşılıqlı anlaşmasının güclənməsinə xidmət edəcək.

100 illik yubiley klassik türkologiyanın inkişafına təkan verməklə yanaşı, rəqəmsal türkologiyanın da əsasını qoydu. Yeni mərhələdə əsas məqsədlərdən biri türk dillərinin süni intellekt sistemlərində daha geniş tətbiq edilməsidir. Vahid türk dili korpuslarının hazırlanması, elektron lüğət bazalarının yaradılması, avtomatik tərcümə sistemlərinin inkişafı, nitqin tanınması texnologiyalarının işlənməsi, rəqəmsal arxivlərin yaradılması, qədim əlyazmaların rəqəmsallaşdırılması və s. bu istiqamətdə mühüm əhəmiyyət daşıyır. Belə layihələr gələcəkdə türk dillərinin qlobal informasiya məkanında mövqeyini daha da gücləndirəcək.

## Azərbaycanın liderliyi daha da möhkəmlənir

I Türkoloji Qurultayın 100 illiyi bir daha göstərdi ki, Azərbaycan yalnız coğrafi deyil, ideoloji baxımdan da türk dünyasının mərkəzindəndir. Son illər ərzində ölkəmiz Türk Dövlətləri Təşkilatının inkişafına mühüm töhfələr verir. Nəqliyyat dəhlizlərinin inkişafı, o cümlədən Orta dəhliz layihəsi, enerji əməkdaşlığı, iqtisadi inteqrasiya, humanitar layihələr və mədəni təşəbbüslər ölkəmizin təşkilat daxilində nüfuzunu daha da artırıb. Bakının beynəlxalq tədbirlərin keçirildiyi əsas platformalardan birinə çevrilməsi də bunun göstəricisidir. I Türkoloji Qurultayın yubileyi bu liderliyi elmi-humanitar istiqamətdə də təsdiqləmiş oldu.

Yubiley tədbirlərinin mühüm nəticələrindən biri də universitetlər və elmi-tədqiqat institutları arasında əməkdaşlığın genişləndirilməsidir. Gələcəkdə ortaq magistr proqramlarının, doktorantura mübadiləsinin, türkoloji tədqiqat fondlarının yaradılması, ortaq elmi jurnalların buraxılması, beynəlxalq konfransların mütəmadi keçirilməsi, ortaq tarix və ədəbiyyat dərsliklərinin hazırlanması və s. kimi mühüm istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi gözlənilir. Bu təşəbbüslər türk dünyasının intellektual potensialının birləşdirilməsinə mühüm töhfə verəcək.

Müasir beynəlxalq münasibətlərdə mədəni diplomatiya dövlətlərin yumşaq gücünün əsas elementlərindən sayılır. I Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş tədbirlər göstərdi ki, türk dövlətləri ortaq mədəni irs vasitəsilə beynəlxalq nüfuzlarını daha da gücləndirə bilərlər. Birgə festivallar, kitab layihələri, kino sənayesi, muzeylərarası əməkdaşlıq, rəqəmsal mədəni platformalar, ortaq televiziya layihələri və s. bu istiqamətdə mühüm perspektivlər açır.

## Türk dünyasının gələcəyinə baxış

Bir əsr əvvəl Bakıda səsləndirilən ideyalar bu gün daha geniş miqyasda həyata keçirilir. Əgər 1926-cı ildə əsas məqsəd türk xalqları arasında elmi əlaqələrin qurulması idisə, bu gün artıq məqsəd ortaq iqtisadi, siyasi, humanitar və rəqəmsal məkan yaratmaqdır. Türk Dövlətləri Təşkilatı məhz bu strateji məqsədlərin həyata keçirilməsi üçün mühüm platforma rolunu oynayır. I Türkoloji Qurultayın 100 illiyi göstərdi ki, ortaq tarix yalnız keçmişin xatirəsi deyil, gələcəyin inkişaf strategiyasıdır.

Keçirilən tədbirlər türk dünyasının ortaq gələcək əməkdaşlığının əsas istiqamətlərini də müəyyənləşdirdi. Bu yubiley 1926-cı ildə Bakıda əsası qoyulan ideyaların zamanın sınağından çıxaraq müasir dövrdə daha geniş məzmun kəsb etdiyini və TDT-nin humanitar inteqrasiya siyasətinin mühüm ideoloji dayaqlarından birinə çevrildiyini göstərdi.

Bu gün Türk Dövlətləri Təşkilatı ortaq elm, təhsil, dil və mədəniyyət məkanının formalaşdırılması istiqamətində də mühüm addımlar atır. I Türkoloji Qurultayın 100 illiyi bu prosesə yeni impuls verdi, ortaq əlifba, rəqəmsal türkologiya, elmi əməkdaşlıq və mədəni diplomatiya sahələrində perspektivləri daha da genişləndirdi.

Azərbaycan isə həm tarixi missiyasına, həm də müasir təşəbbüslərinə söykənərək türk dünyasının intellektual və humanitar inteqrasiyasının aparıcı mərkəzlərindən biri olduğunu bir daha nümayiş etdirdi. Bakının 100 il əvvəl olduğu kimi, bu gün də türk xalqlarını bir araya gətirən fikir və dialoq məkanı olması ölkəmizin beynəlxalq nüfuzunun, strateji baxışının və TDT daxilində artan rolunun bariz göstəricisidir.

Beləliklə, I Türkoloji Qurultayın 100 illiyi təkcə tarixi bir yubiley deyil, həm də türk dünyasının gələcək inkişaf modelinin, ortaq kimliyinin və daha sıx inteqrasiyasının ideoloji manifesti kimi tarixə düşdü.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Böyük qayıdışın qürur doğuran reallıqları

**"Artıq köçkün həyatı keçmişdə qaldı, indi doğma Qarabağ torpağında qürurla, fəxarətlə yaşayacaqsınız, quracaqsınız, böyüklərə, ağsaqqallara, ağbirçəklərə yaxşı baxacaqsınız. Uşaqlara yaxşı baxacaqsınız"**

Prezident İlham Əliyevin iyulun 11-də Şuşa rayonunun Kiçik Qaladərəsi kəndinin sakinləri ilə görüşü zamanı səsləndirdiyi bu fikirlər Böyük qayıdış prosesinin mahiyyətini ən dolğun şəkildə ifadə edir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Böyük qayıdışın sürətlə reallaşdığını göstərir. Uzun illər işğalın dağıdıcı nəticələrinə məruz qalmış torpaqlarda yenidən həyat canlanır, şəhərlər və kəndlər müasir standartlara uyğun şəkildə qurulur, keçmiş məcburi köçkünlər isə illərlə həsrətində olduqları doğma yurdlarına qayıdaraq yeni həyata başlayırlar.

2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfərlə Azərbaycan yalnız ərazilərini işğaldan azad etmədi. Bu qələbə regionun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən tamamilə yeni mərhələnin başlanğıcı oldu. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma işləri miqyasına, sürətinə və strateji yanaşmasına görə dünyanın diqqətini cəlb edən nümunələrdən biridir. Dağıdılmış infrastrukturun qısa müddətdə bərpası, yenidən şəhər və kəndlərin salınması, müasir kommunikasiya şəbəkələrinin yaradılması, sosial obyektlərin tikintisi, iqtisadi fəaliyyətin təmin edilməsi və əhalinin doğma torpaqlarına mərhələli şəkildə qaytarılması vahid dövlət siyasətinin əsas istiqamətlərini təşkil edir.

Keçmiş məcburi köçkünlər mərhələli olaraq doğma torpaqlarına qovuşurlar. Artıq 9359 ailə, ümumilikdə 37771 nəfər doğma yurdlarına qayıdıb. Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzurda hazırda 80 mindən çox insan yaşayır və çalışır. Bu rəqəmlər yalnız statistik göstəricilər deyil. Onların hər biri uzun illərin həsrətindən sonra əzəli torpaqlarına geri dönən insanların həyat hekayəsini, ailələrin yenidən doğma mühitdə bir araya gəlməsini və gələcəyə inamını ifadə edir.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr ən son texnologiyalar, dayanıqlı inkişaf prinsipləri və beynəlxalq şəhərsalma standartları əsasında hazırlanır. Yeni salınmış yaşayış məntəqələrində mənzillər və fərdi evlər müasir tələblərə uyğun inşa edilir, elektrik, qaz, içməli su, kanalizasiya, internet və digər kommunikasiya xətləri tam şəkildə qurulur. Məktəblər, uşaq bağçaları, tibb müəssisələri, inzibati binalar, sosial xidmət mərkəzləri, idman və mədəniyyət obyektləri istifadəyə verilir. Burada tikilən yaşayış məntəqələri yalnız insanların məskunlaşması üçün nəzərdə tutulmur. Məqsəd rahat, təhlükəsiz, ekoloji cəhətdən təmiz, rəqəmsal idarəetmə sistemlərinə malik müasir yaşayış mühitinin yaradılmasıdır.

Bu gün işğaldan azad edilmiş ərazilərdə artıq 47 yaşayış məntəqəsi - 10 şəhər, 3 qəsəbə və 34 kənd tikilərək və ya əsaslı şəkildə bərpa olunaraq istifadəyə verilib. Bu yaşayış məntəqələrinin böyük hissəsi "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yaradılıb. İnnovativ idarəetmə sistemləri, enerji səmərəliliyi, alternativ enerji mənbələrinin tətbiqi, ekoloji təhlükəsizlik, rəqəmsal xidmətlər və müasir nəqliyyat infrastrukturu həmin layihələrin əsas üstünlüklərindəndir. Bu yanaşma yalnız bugünkü ehtiyacları deyil, gələcək onilliklərdə bölgənin davamlı inkişafını da təmin etməyə hesablanıb.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinin əsas istiqamətlərindən biri də geniş yol-nəqliyyat infrastrukturunun yaradılmasıdır. Yeni magistral avtomobil yolları, tunellər, körpülər, dəmir yolu xətləri və hava limanları regionun ölkənin digər hissələri ilə inteqrasiyasını sürətləndirir. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının istifadəyə verilməsi bölgənin iqtisadi və logistika imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. Bu layihələr yalnız nəqliyyat rahatlığını təmin etmir, həm də gələcək investisiya və turizm potensialının formalaşmasına mühüm töhfə verir.

Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi iqtisadi inkişafla da sıx bağlıdır. Bu ərazilərdə yeni iqtisadi model formalaşdırılır, sənaye parkları və sənaye məhəllələri yaradılır, kənd təsərrüfatının inkişafı üçün münbit şərait formalaşdırılır, sahibkarların fəaliyyəti stimullaşdırılır. Yerli və xarici investorların cəlb edilməsi üçün vergi və gömrük güzəştləri tətbiq olunur, biznes mühitinin inkişafına yönəlmiş mexanizmlər həyata keçirilir. Regionun zəngin təbii ehtiyatları, kənd təsərrüfatı potensialı və turizm imkanları gələcəkdə bu ərazilərin ölkə iqtisadiyyatının aparıcı mərkəzlərindən birinə çevriləcəyini göstərir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Qarabağın təbii imkanları bu inkişaf üçün geniş perspektivlər açır: "Gözəl mənzərəli yerlərdir, səfalı yerlərdir. Suyu var, təmiz havası var. Torpağı da münbitdir. Siz qarabağlılar da yaxşı bilirsiniz ki, buranın çox gözəl torpağı var. Əkib-becərmək, maldarlıqla məşğul olmaq, yəni ölkəmizi gücləndirmək, Qarabağı çiçəkləndirmək - hamımızın işidir". Bu fikirlər bölgənin iqtisadi inkişaf konsepsiyasının əsas istiqamətlərini də özündə əks etdirir. Kənd təsərrüfatının, heyvandarlığın, bağçılığın, üzümçülüyün və digər ənənəvi sahələrin yenidən inkişaf etdirilməsi bölgədə məşğulluğun artmasına və dayanıqlı gəlir mənbələrinin formalaşmasına xidmət edir.

Turizm də Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafında mühüm yer tutur. Şuşa, Laçın, Kəlbəcər, Zəngilan və digər rayonların zəngin təbiəti, mineral su ehtiyatları, tarixi-mədəni abidələri və ekoturizm potensialı bu istiqamətdə geniş imkanlar yaradır. Yeni mehmanxanalar, istirahət mərkəzləri, turizm marşrutları və xidmət infrastrukturu yaradılır. Gələcəkdə bu bölgələrin həm daxili, həm də beynəlxalq turizm üçün mühüm istiqamətlərdən birinə çevriləcəyi gözlənilir.

Əlbəttə, bütün bu layihələrin həyata keçirilməsi ilk növbədə təhlükəsizlik məsələlərinin həllini tələb edir. İşğal dövründə Ermənistan tərəfindən geniş şəkildə basdırılmış minalar bu gün də əsas problemlərdən biri olaraq qalır. Mina təmizləmə işləri intensiv şəkildə davam etdirilir,



yaşayış və təsərrüfat üçün nəzərdə tutulan ərazilər mərhələli şəkildə təhlükəsiz vəziyyətə gətirilir. Bu istiqamətdə görülən işlər Böyük qayıdışın sürətlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bütün bərpa və quruculuq layihələrinin maliyyələşdirilməsi əsasən dövlət vəsaiti hesabına həyata keçirilir. Bu isə Azərbaycanın iqtisadi imkanlarının və maliyyə dayanıqlılığının göstəricisidir. Son illər dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasına milyardlarla manat vəsait ayrılıb. Bu investisiyalar yalnız infrastrukturun yaradılmasına deyil, gələcək iqtisadi inkişafın möhkəm təməlinin qoyulmasına xidmət edir. Bütün bunlar göstərir ki, Qarabağ və Şərqi Zəngəzur artıq keçmiş münaqişənin simvolu deyil. Bu bölgələr Azərbaycanın gələcəyə hesablanmış inkişaf modelinin ən mühüm istiqamətlərindən birinə çevrilir. Dövlətin siyasi iradəsi, iqtisadi imkanları və xalqın həmrəyliyi nəticəsində "Böyük qayıdış" proqramı ardıcıl şəkildə davam edir və hər keçən gün yeni uğurlarla zənginləşir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Şəmkirdə kənd təsərrüfatının inkişaf perspektivləri müzakirə olunub

**Şəmkir Rayon İcra Hakimiyyətində "2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair iş planı"nın hazırlanmasına həsr olunmuş müşavirə keçirilib.**



Rayonun inzibati ərazi dairələri üzrə nümayəndəliklərin və bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən müşavirədə Prezident İlham Əliyevin cari il mayın 25-də aqrar sahənin inkişafı ilə bağlı keçirdiyi müşavirədə verdiyi tapşırıqların icrası, həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr ətrafında geniş müzakirələr aparılmışdır. Diqqətə çatdırılmışdır ki, aqrar sahənin davamlı inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü dövlət siyasəti kənd təsərrüfatının müasir tələblər əsasında inkişafına, ərzaq təhlükəsizliyinin təminatına, istehsalın və emal sənayesinin genişləndirilməsinə mühüm töhfə verir. Qeyd olunmuşdur ki, yeni dövlət proqramı kənd təsərrüfatının bütün istiqamətləri üzrə yeni inkişaf mərhələsinin formalaşdırılmasına xidmət edən mühüm strateji sənəddir. Həmin proqramla bağlı rayonda hazırlanacaq 2026-2030-cu illəri əhatə edən iş planı dövlət proqramında müəyyən edilmiş prioritetlərə uyğun formalaşdırılmalı, rayonun mövcud iqtisadi potensialı, təbii-iqlim şəraiti, istehsal imkanları və statistik göstəricilər əsasında konkret hədəfləri özündə əks etdirməlidir. Odur ki, hər bir istiqamət üzrə görüləcək tədbirlər təsərrüfat subyektlərinin real imkanları nəzərə alınmaqla planlaşdırılmalı, istehsalın səmərəliliyinin yüksəldilməsi, emal müəssisələrinin inkişafı, innovativ texnologiyaların tətbiqi, ixrac potensialının artırılması və məşğulluğun genişləndirilməsi əsas prioritetlər kimi müəyyən edilməlidir.

Müşavirədə dövlət proqramından irəli gələn tədbirlərin vaxtında və keyfiyyətlə icrasının təmin edilməsi, fəaliyyətin aidiyyəti dövlət qurumları arasında əlaqələndirilməsi, yerli icra strukturlarının məsuliyyətinin artırılması, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və sahibkarlıq subyektləri ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Eyni zamanda rayon üzrə hazırlanacaq iş planında kənd təsərrüfatı məhsullarının istehsalı və emalının artırılması, suvarma infrastrukturunun təkmilləşdirilməsi, torpaq ehtiyatlarından səmərəli istifadə, məhsuldarlığın artırılması, müasir aqrotexniki yanaşmaların tətbiqi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafına dair konkret tədbirlərin öz əksini tapmasının vacibliyi qeyd olunmuşdur.

Müşavirədə müzakirə olunan mövzu ətrafında fikir mübadiləsi aparılmış, iş planının hazırlanması və qarşıda duran vəzifələrin icrası ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

● Taxıl biçini

## Zəmilərdən 2,6 milyon tondan çox məhsul yığılıb

### Əkin sahələrinin 79 faizində biçin yekunlaşıb

**Kənd Təsərrüfatı Nazirliyi yanında taxıl biçini ilə əlaqədar yaradılmış Mərkəzi Qərargahın operativ məlumatına görə, iyulun 15-dək ölkə üzrə payızlıq taxıl sahələrinin 78,5 faizində biçin başa çatıb.**



Mövsüm ərzində 755 500 hektar sahədə biçin aparılıb, bu sahələrdən 2 milyon 636 min 623 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 34,9 sent/ha təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 sent/ha çoxdur.

İndiyədək mexanizatorlar tərəfindən 307 min 384 hektar buğda, 448 min 116 hektar arpa sahəsi biçilib. Bu sahələrdən 1 milyon 175 min 93 ton buğda, 1 milyon 461 min 528 ton arpa yığılıb. Buğda sahələrinin 67, arpa sahələrinin isə 89,3 faizində biçin yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 38,2, arpa üzrə isə 32,6 sent/ha təşkil edir.

Artıq 13 rayonda - Ucar, Ağdaş, Bərdə, Biləsuvar, Cəlilabad, Kürdəmir, Yevlax, Masallı, Neftçala, Sabirabad, Salyan, Kəlbəcər və Şuşada biçin tam yekunlaşıb, respublikanın 12 rayonunda - Ağsu, Astara, Balakən, Beyləqan, Göyçay, Goranboy, Naftalan, İmişli, Zərdab, Saatlı, Samux, Tərtər rayonlarında taxıl biçini yekunlaşmaq üzrədir.

Ölkə üzrə biçin prosesinin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

## Goranboyda intensiv bağçılığa maraq artır

**Goranboyda aqrar təsərrüfatların mövcud vəziyyətinin yerində öyrənilməsi, kənd təsərrüfatının müxtəlif istiqamətləri üzrə görülən işlərin qiymətləndirilməsi və bu sahədə fəaliyyət göstərən sahibkarlarla birbaşa təmasların gücləndirilməsi üçün müxtəlif tədbirlər görülür.**

Veyisli kəndində fəaliyyət göstərən Kamal Kərimovun bağçılıq təsərrüfatı var. O, bağında şaftalı, nektarin, gilas və ərik yetişdirir. Təsərrüfat sahibi deyir ki, dövlət başçısının aqrar sahəyə göstərdiyi ardıcıl diqqət və qayğı nəticəsində intensiv bağçılıq, müasir suvarma texnologiyalarının tətbiqi, yüksək məhsuldarlığın təmin olunması, ixracyönümlü məhsul istehsalının genişləndirilməsi və fermerlərin dövlət dəstəyi ilə əhatə olunması istiqamətində mühüm nailiyyətlər əldə edilir, kənd təsərrüfatının davamlı inkişafı üçün əlverişli şərait yaradılır: "Rayonumuzda da Prezidentin müəyyən etdiyi aqrar inkişaf strategiyasına uyğun olaraq, bağçılıq və digər kənd təsərrüfatı sahələrinin genişləndirilməsi, məhsuldarlığın artırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə, yeni intensiv bağların salınması və müasir texnologiyaların tətbiqi istiqamətində ardıcıl işlər həyata keçirilir. Bu çərçivədə sahibkarların təşəbbüslərinin dəstəklənməsi və onların fəaliyyətinin genişləndirilməsi rayonun sosial-iqtisadi inkişafına mühüm töhfə verir".

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*



## Naxçıvanda vergi ödəyicilərinə 32 minə yaxın xidmət göstərilib

**Yanvar-iyun aylarında Naxçıvan MR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin mərkəzləri tərəfindən 22 min 359 şəxs qəbul edilib.**

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, mərkəzlərdə müxtəlif məsələlərlə bağlı 31 min 989 xidmət göstərilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,9 faiz çoxdur.

6 ayda vergi ödəyicilərinə 577 min 416 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib, onlarla 64 görüş keçirilib, 372 sayda ünvanlı xidmət göstərilib. Həmin dövrdə 2338 müraciət üzrə 3986 "Asan İmza" sertifikatı verilib.

Turizm

## Şəfalı və səfalı Masallı

**Masallı ölkəmizin həm səfalı, həm də şəfalı yerlərindəndir. Rayonun ərazisi qərb istiqamətindən silsilə dağlar, şərqdən isə mavigözlü Xəzər dənizi ilə əhatə olunur. Səsi-sorağı əsrlərin o tayından gələn bu diyarın keçmişini özündə əks etdirən, qoruyb saxlayan tarixi abidələr bu gün də yaşayır.**

Viləş, Alvadıçay, Tatyan çayları rayonun ərazisindən axıb keçərək dənizə qovuşur. Uzunluğu 115, eni təqribən 8 kilometr, hövzəsinin sahəsi 935 kvadratkilometr olan Viləşçay su dəryaçasının bünövrəsi 1976-cı ildə Heydər Əliyev tərəfindən qoyulmuşdur. Masallı durnadözlü bulaqları ilə də məşhurdur. 37 bulağı olan Ərçivan kəndini dünya bulaqlarının muzeyi də hesab etmək olar. Onların hər birinin öz adı, öz dadı, öz tarixi var. Bir hissəsi də Masallı rayonu ərazisində yerləşən Qızılağac qoruğunda isə 248 quş və 54 balıq növü qorunur. Belə bir təbii resurslara və təkrarsız təbiətə malik olması Masallını ilin hər fəslində istirahət bölgəsinə çevirmişdir. O üzdən rayonda turizm şəbəkələrinin sayı ildən-ilə artır. Hazırda fəaliyyət göstərən istirahət mərkəzlərinin sayı 34-dür. Onların əksəriyyəti Qəriblər kəndinin ərazisindədir. "Gölüstü", "Viləş", "Gülüstan", "Baba bulağı", "Ailə sevinci", "İstisu" sanatoriyası, "Zirvə", "Beşqardaş", "Turist", "Cənnət bağı", "Hotel", "Masallı", "Dəmirağac" istirahət mərkəzlərinə ilin yay günlərində gələnlərin sayı-hesabı olmur. Bakıdan, müxtəlif bölgələrdən, habelə xarici ölkələrdən gələn turistlərə nümunəvi qulluq göstərmək üçün obyektlər fəaliyyətlərini ildən-ilə təkmilləşdirməyə səy göstərirlər.

"Masallı" istirahət mərkəzi 2025-ci ildən fəaliyyət göstərir. İcraçı direktor Elman Cəlalzadə deyir ki, 2 il əvvəl burada indi gördüklərinizin heç biri mövcud deyildi: "Kotteclər tikdik, su hovuzu yaratdıq, yol, su, işıq çəkdik, iaşə obyektləri inşa etdik, ağaclar, güllər əkdik. Əlimizdən gələni etdik ki, müəssisəmiz turistlər tərəfindən bəyənilsin. Onlara göstərilən yüksəksəviyyəli xidməti özümüzün birnömrəli işimiz hesab etdik. İşçilərimizə bununla əlaqədar təlimlər keçdik. Ərazimiz 10 hektardır. Quruculuq, abadlıq işlərini daha da genişləndirmək fikrindəyik".

"Yaşıl Park" ailəvi istirahət mərkəzi nadir meşə ağacları ilə örtülmüş ərazidədir. Ağacların yaşıl çətiri günəş şüalarının qarşısına sanki çəpər çəkib. Buna görə də ərazidə sərinlik hökm sürür. İstirahət mərkəzi sahibkar Kənan Əliyevə məxsusdur. Onun müavini Kənan Əbülfəzli ilə görüşdük. Bildirdi ki, istirahət mərkəzində 13 nəfər çalışır: "Bakıdan, Rusiya Federasiyasının müxtəlif şəhərlərindən, respublikamızın ayrı-ayrı yerlərindən gələn turistlər üçün 14 kottecimiz var. Çalışırıq ki, qonaqlara nümunəvi qulluq göstərək. Menyumuzun hamısını təbii kənd məhsulları təşkil edir. Turistlərin mənalı və şən istirahəti üçün Bakıdan və Masallı rayonundan olan konsert briqadalarını, eləcə də tanınmış müğənniləri dəvət edirik. Turist gəzintilərimiz də olur. Müxtəlif növ idman yarışları da öz yerində".

Masallının istirahət mərkəzlərindən biri də Fatimeyi-Zəhra "İstisu" sanatoriyasıdır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda "İstisu" adı ilə şəfa ocaqları çoxdur. Onların əksəriyyəti termal su, bəziləri də yerdən isti çıxan palçıq vulkanları ərazilərində yerləşir. Dərin qatlardan xeyirli mineralları özü ilə yerin təkindən çıxarıb gətirən bu cür sular bir çox xəstəliklərin müalicəsində əvəzsizdir. Lənkəranda, Astarada, Salyanda, Qubanın Xaltan kəndindəki "İstisu" müalicə ocaqları xüsusən yel xəstəliyindən, hər cür ağrılardan, dəri xəstəliklərindən, sonsuzluqdan əziyyət çəkənlərin tez-tez üz tutduqları ünvanlardır. Torpaqlarımız düşmən tapdağı altından xilas edildikdən sonra onların sırasına Kəlbəcərin dünyaşöhrətli "İstisu"yu da qoşulub. Erməni vandallarının darmadağın etdikləri Kəlbəcər "İstisu Müalicə-İstirahət Kompleksi"ndə (sanatoriyasında) hazırda genişmiqyaslı tikinti-bərpa işləri gedir. 145 nömrəlik hotel binası, 10 kottec, inzibati binalar, restoran, bouling və uşaq əyləncə mərkəzi olacaq mərkəz, çox güman ki, yaxın vaxtlarda istifadəyə veriləcək.

"İstisu" adı ilə tanınan müalicə ocaqlarından biri də qədim Lənkəran torpağındadır. Bir neçə il öncə o, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində əsaslı şəkildə yenidən qurulub. Açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirak etdikləri sanatoriya şəfalı xüsusiyyətlərinə, gözəl mənzərələrinə, saf havasına görə turistləri və müalicəyə ehtiyacı olan hər kəsi özünə cəlb edir.

Ərazicə çox da böyük olmayan ölkəmizin müalicəvi məkanlarından biri də, qeyd etdiyimiz kimi, Masallı rayonundakı "İstisu" şəfa ocağıdır. Dilimizdə "ocaq" sözünün bir mənası da inanc, ümid yeri deməkdir. Masallı şəhərindən 12-13 kilometr məsafədə, dəniz səviyyəsindən 1650 metr yüksəklikdə, Dəmbəlov dağının ətəyində, Viləş çayının sahilində yerləşən bu şəfa qaynağının nə vaxt yerin təkindən özünə yol tapıb üzə çıxdığını doğru-dürüst heç kim bilmir. Qədimdən insanlar yay aylarında bura gələrək təbiətin yaratdığı gölməçələrdəki isti suya girmiş, ətrafdakı meşələrdə istirahət etmişlər. Bunun onların sağlamlığına yaxşı təsir etdiyini, müxtəlif ağrılarının çəkilib getdiyini görüb hər il yay aylarında bura üz tutmuşlar. Beləliklə, Masallı "İstisu"yunun adı zaman keçdikcə məşhurlaşmışdır.

Ərazidən çıxan isti suyun tərkibini keçən əsrin 60-cı illərində əslən Masallıdan olan həkim-alim, şair-bəstəkar Mirkazım Aslanlı - Sarəng kəşf edib. O, aşkar edib ki, buradan çıxan isti suyun tərkibində hidrogensulfid, natriumxlor, kalsium, maqneziumkarbohidrat və hər litrə 30 milliqram yod var. Yerin təkindən çıxan suyun hərarəti 62-63 dərəcədir. Yeri gəlmişkən qeyd edək ki, Masallı "İstisu"yu hələ sovetlər zamanında ittifaq səviyyəsində tanınan termal su mənbələrindən olub. O vaxtlar ittifaqın 12 alimi "İstisu" şəfa ocağına gələrək əlavə tədqiqatlar aparıb və həmyerlimizin rəyini təsdiqləyiblər.



Zaman keçib, SSRİ süquta uğrayıb, Azərbaycan müstəqilliyini bərpa edib. Doğrudur, müstəqilliyin ilk illərində əvvəllər qurulmuş iqtisadi əlaqələrin qırılması bir çox çətinliklər yaratmışdı. Lakin Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi tədbirlər həmin çətinliklərin aradan qaldırılmasına təkan vermiş, nəticədə fəaliyyətsiz qalan istehsal müəssisələri və xidmət obyektləri özəlləşdirilərək yenidən qurulmuş, müasir texnologiyaların tətbiqi sayəsində inkişaf etməyə başlamışdır.

İş adamı Hacı İldırım Allahyarov tərəfindən özəlləşdirilən "İstisu" sanatoriyasında da keçmişdən, demək olar ki, heç bir əsər-əlamət qalmayıb. Əvvəllər primitiv olan vanna otaqları müasir tələblər səviyyəsində yenilənib, turistlərin qalmaları üçün standartlara cavab verən kotteclər, həkim otaqları, iaşə obyektləri, istirahət guşələri və s. tikilib, Viləş çayının sahilində salınan möhtəşəm istirahət parkında bütün yaşdan olan qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Çayın sağ sahilində isə çimərlik var. Sanatoriya rəhbərliyi Masallı-Yardımlı şose yolunun kənarındakı şəlaləni görmək, təbiət mənzərələrini seyr etmək, rayonun tarixi və görməli yerləri ilə tanış olmaq istəyənlər üçün turlar təşkil edir. Bir sözlə, burada müalicə olunmaq, istirahət etmək üçün hər cür şərait mövcuddur. Bu səbəbdəndir ki, hər ilin yaz-yay fəslində sanatoriyaya kütləvi axın olur.

Ağabala İsgəndərov Saatlı rayonunun Hacıqabul kəndindəndir. Deyir ki, uzun müddət rəhbər vəzifədə çalışıb. Hazırda təqaüdçüdür, 85 yaşı var, Saatlı Rayon Ağsaqqallar Şurasının sədr müavinidir, Əmək veteranıdır. "İstisu"ya 10 günlük müalicəyə gəlib. Buradakı xidmətdən razı qaldığını, hər gün həkim müayinəsindən keçdiyini, vanna, masaj aldığını və nəticədə diz qapaqlarındakı ağrıların xeyli azaldığını bildirir.

Surxay Abasov Ordubaddan gəlib. Dediyinə görə, çiynində möhkəm ağrılar varmış. Bir həftədən sonra həmin ağrılar çəkilib. "Sağlıq olsun, gələn il yenə bura gələcəyəm", - deyir. Sabirabad rayonundan "İstisu"ya gələn Aydın İmanov və başqaları da müalicəsinin xeyrindən, pasiyentlərə göstərilən nümunəvi xidmətdən danışdılar.

Masallı "İstisu" sanatoriyasına təkcə ölkəmizdən deyil, xarici ölkələrdən də hər il yüzlərlə turist gəlir. Onlar buradan sağlam və xoş təəssüratla ayrılır və yenidən gəlmək arzusunda olduqlarını bildirirlər. Sanatoriyanın rəy və təkliflər kitabını vərəqləyərkən də bunun şahidi olmaq mümkündür.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



# Mədəniyyət



● Sənət dünyası

# Obrazlarda yaşayan aktyor ömrü

**Bəzən aktyorları dünyanın ən bəxtəvər adamları hesab edirlər. Çünki onlar teatr tamaşalarında, filmlərdə yaratdıqları obrazları ilə şöhrət qazanır, sevilir və insanların yaddaşlarında qalırlar.**



O da var ki, sənətdə əbədi qalmaq, obrazları ilə tamaşaçı sevgisi qazanmaq heç də hər aktyora nəsib olmur. Çünki bu, heç də çoxlarının düşündüyü kimi asan yol deyil. Ona yalnız istedadlı, bacarıqlı, daim öz üzərində çalışan, ürəyində tükənməyən güc, sonsuz ilham olan aktyorlar çata bilirlər - televiziya tamaşalarında və filmlərdə bir-birindən maraqlı, yaddaqalan obrazlar yaratmış, böyük tamaşaçı sevgisi qazanmış, yaddaşlarda dərin iz salmış görkəmli aktyor Məcnun Hacıbəyov kimi.

Məcnun Salam oğlu Hacıbəyov 5 oktyabr 1935-ci ildə Qubanın İkinci Nügədi kəndində dünyaya göz açıb. Orta təhsilini kəndlərindəki məktəbdə bitirəndən sonra Sumqayıtdakı zavodlardan birində işə düzəlib. Onu uğurlara aparacaq həyat yolunu burada tapıb.

Günlərin birində işdən çıxıb şəhərin küçələrindən keçəndə divardan asılmış afişa diqqətini cəlb edib. Afişadan öyrənir ki, Quba Dövlət Teatrının aktyorları Sumqayıtda tamaşa göstərəcəklər. Məcnunun hələ kiçik yaşlarından aktyorluq sənətinə böyük marağı olub. Afişanı oxuyandan sonra ürəyindəki, qəlbindəki bu maraq yenidən oyanıb. Göstəriləcək tamaşaya baxmaq üçün teatra gedib. Bu gediş onun həyatını tamamilə dəyişib.

Bir neçə gündən sonra Məcnun Hacıbəyov Quba Dövlət Teatrının direktorunun yanına gedir, özü haqqında ətraflı məlumat verir, aktyor olmaq arzusu ilə yaşadığını deyir. Direktor Məcnundan "Bayatı-Şiraz" muğamını oxumağı xahiş edir. Məcnun muğamı oxuyur. Direktorun onun səsindən də, davranışından, sənətkarlığından da xoşu gəlir. Sınaqdan uğurla keçən Məcnun Hacıbəyov Quba Dövlət Teatrına aktyor kimi işə qəbul edilir. Beləcə, gələcəyin aktyoru arzusuna çatır, teatrda maraqlı obrazlar yaradır. Qısa müddət ərzində oynadığı rolları, bacarığı və istedadı ilə diqqəti cəlb edir, tamaşaçı sevgisi qazanır.

Bəzən kiçik bir təsadüf insanların böyük məqsədlərinə çatması üçün geniş yol açır. Məcnun Hacıbəyovun da həyatında belə bir hadisə baş verir. Günlərin birində Milli Dram Teatrının rejissoru Tofiq Kazımov Quba teatrında tamaşa qurur. Tamaşa zamanı Məcnunun bacarığı, istedadı görkəmli rejissorun diqqətini cəlb edir. Bir müddətdən sonra Məcnun Hacıbəyov Tofiq Kazımovun məsləhəti ilə sənədlərini İncəsənət Universitetinə verir, illərdən bəri ürəyində gəzdirdiyi arzusuna çatır. Məcnun Hacıbəyov 1965-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Aktyorluq fakültəsini bitirir və Milli Dram Teatrında işə düzəlir. Sənət yollarında yüksəlməyə, tanınmağa və sevilməyə başlayır. Aktyor ömrünün 50 ilini səhnəyə həsr edir. Akademik Milli Dram Teatrında, Azərbaycan televiziyasında, "Azərbaycanfilm" kinostudiyasında bir-birindən maraqlı, irili-xırdalı, lakin yaddaqalan obrazlar yaradır. "Canavar balası", "Evlənmək istəyirəm", "Gənclik macərası", "Göz həkimi", "Gülüş sanatoriyası", "Kişilər", "Qatarda", "Qəzəlxan", "Yarımştat" və s. film və televiziya tamaşalarında ifa etdiyi rollar özünəməxsus ifadə vasitələri ilə tamaşaçıların rəğbətini qazanır. Oynadığı rollar zamanı dediyi sözlər xalq arasında aforizmə çevrilib.

Aktyor tamaşaçıların yaddaşında daha çox "Qatarda" televiziya tamaşasındakı Fatı və "Yarımştat" tamaşasındakı Murtuz kimi qalıb. "Qatarda" tamaşasında yaratdığı Fatı obrazı ona böyük tamaşaçı sevgisi qazandırıb. Məcnun Hacıbəyov yaratdığı bu obrazı ilə bir daha bacarıqlı, istedadlı olduğunu sübut edib. Bəlkə də həmin obrazı M.Hacıbəyov yox, başqası oynasaydı, bu cür uğurlu alınmazdı. Məcnun Hacıbəyov Milli Dram Teatrında sonuncu dəfə Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" tamaşasında səhnəyə çıxıb. Bununla görkəmli aktyorun səhnə ömrü başa çatıb.




Məcnun Hacıbəyovun əməyi yüksək qiymətləndirilib. Teatr və kino sahəsində göstərdiyi xidmətlərə görə 1989-cu ildə Əməkdar artist fəxri adına layiq görülüb.

Görkəmli sənətkar 16 noyabr 2021-ci ildə 86 yaşında koronavirusdan dünyasını dəyişib.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ədəbi simalar

# Ədəbiyyatımızda İsi Məlikzadə imzası

**XX əsr Azərbaycan nəsrində özünəməxsus üslubu ilə seçilən qələm sahiblərindən biri də tanınmış yazıçı, dramaturq, ssenarist İsi Məlikzadə olub. O, 35 illik yaradıcılıq fəaliyyəti dövründə qarşılaşdığı və müşahidə etdiyi həyat gerçəkliklərini çox maraqlı şəkildə oxucuya çatdırıb, sadə insanların, ziyalıların dolğun obrazını yaradıb.**

İsi Abbas oğlu Məlikzadə 1934-cü ildə Ağcabədinin Xalfərəddin kəndində dünyaya göz açıb. Orta məktəbi bitirəndən sonra - 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indi ADNSU) Neft-kimya fakültəsinə qəbul olub. 1957-ci ildə təhsilini başa vuraraq təyinatla Bakıda Neft Mədənləri İdarəsində əmək fəaliyyətinə başlayıb. Təyinat müddəti başa çatdıqdan sonra doğma yurdu Ağcabədiyə qayıdıb. "Pambıqçılıq" adlı ilk hekayəsi 1957-ci il də "Ağcabədi pambıqçısı" qəzetində dərc olunub.

Bir neçə ildən sonra Bakıya dönən İsi Qaz Təsərrüfatı İdarəsinin layihə bürosunda işə düzəlir. Gənc yaşlarından ədəbi yaradıcılığa maraq göstərən İsi Məlikzadə çalışdığı müəssisələrdə sovet cəmiyyətinin miqyasını, onun fəaliyyət mexanizmini müşahidə edir, sonradan onu ədəbi materiala çevirirdi. O, hələ tələbəykən "Kirpi" jurnalı ilə əlaqə saxlayır, Salam Qədirzadə ilə dostluq edirdi. Jurnalda dərc edilən hekayələri oxucular tərəfindən maraqla qarşılanırdı. Ədəbi aləmdə istedadlı gənc kimi diqqət çəkirdi.

Gənc İsi 1960-cı illərin ikinci yarısından daha ciddi mövzulara müraciət edir. 1964-cü ildə "Həsrətin sonu" adlı kiçik hekayələrdən ibarət kitabı işıq üzü görür. Bu uğur onun üzünə dövri mətbuatın qapılarını taybatay açır. 1967-ci ildə həmfikirlərinin dəstəyi sayəsində İsi Məlikzadə "Ulduz" jurnalında işə düzəlir. O, nizam- intizamı və istedadı ilə rəhbərliyin diqqətini çəkir, jurnalın məsul katibi təyin edilir. Bir il sonra üç povestinin yer aldığı "Özgə anası" kitabı "Gənclik" nəşriyyatında çap olunur. 1968-ci ildə Yazıçılar İttifaqına üzv qəbul edilir.



1973-cü ildə "Ulduz" jurnalındakı işindən ayrılmalı olur. Bir müddət işsiz qalır. Nəhayət, "Azərnəşr"də redaktor vəzifəsinə təyin olunur. Lakin 1980-ci ildə bu işindən də ayrılır və yenidən Ağcabədiyə qayıdır. Orada "Gümüş göl əfsanəsi" adlı povestini qələmə alır. Müəllif bu əsərin ərsəyə gəlməsində əfsanələrdən məharətlə bəhrələnib. Əslində, bu əsər onun taleyinin enişli-yoxuşlu və ağrılı-acılı anlarını ifadə edirdi.

Əsərdə Orxan, Ağabəyim və Bənövşənin taleyi əks olunur. Bu talelərin hər biri təbii həyat gerçəklikləri ilə bağlıdır. Yazıçı Orxanı özünün oxşarı kimi görünməsin deyə, içərişəhərli bir ziyalı kimi təqdim edir. Orxanı bütün təfərrüatı ilə bir şəhərli gənc kimi tərifləyir.

İsi Məlikzadə 1988-ci ildən Akademik Dram Teatrına ədəbi hissə müdiri təyin olunur. Bununla da onun ədəbi fəaliyyətinin yeni mərhələsi başlanır. Yazıçının maraqlı əsərlərindən biri də "Evin kişisi" povestidir. Əsərin qəhrəmanı Qaçay adlı sıravi milis işçisidir. Maraqlıdır ki, "Evin kişisi" çap olunandan sonra ədəbi tənqid əsərin qəhrəmanını passivlikdə ittiham edir.

"60-cılar" nəslinin görkəmli nümayəndəsi İsi Məlikzadənin təxminən 30 il ərzində 10 kitabı işıq üzü görüb: "Həsrətin sonu", "Kövrək qanadlar", "Küçələrə su səpmişəm", "Yaşıl gecə", "Günəşli payız", "Dədə palıd", "Gümüşgöl əfsanəsi", "Şehli çəmənlərin işığı", "Dolaşaların Novruz bayramı" və s.

Yazıçı 1990-1994-cü illərdə "Azərbaycan" jurnalında şöbə müdiri vəzifəsində çalışır, eyni zamanda ədəbi yaradıcılığını da davam etdirir. Onun ssenari və əsərlərinin motivləri əsasında "Alma almaya bənzər", "Pəncərə", "Gümüşgöl əfsanəsi", "Evlənmək istəyirəm", "Hacı Qara" (Cahangir Mehdi ilə müştərək), "Gəl, qohum olaq", "Küçələrə su səpmişəm" kimi ekran əsərləri çəkilib. Ədibin "Qatarda" hekayəsi əsasında hazırlanan eyniadlı televiziya tamaşası böyük maraqla qarşılanıb.

Əsərləri ilə oxucuların qəlbində silinməz izlər buraxan İsi Məlikzadə 1995-ci ilin dekabrında vəfat edib.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Yazıçının öz ömrünə yazdığı ad - Şamo Arif

**Azərbaycan ədəbiyyatında da, onu tanıyanların, sevənlərin yaddaşında da Şamo Arif kimi qaldı. Valideynlərinin ona verdikləri ad isə Arif idi.**



1936-cı il iyulun 9-da Qubadlının Əyin kəndində dünyaya göz açan Arifin ailəsində müqəddəs tutulan bir ada çevrilmişdi Şamo. Atası, yazıçı Süleyman Rəhimov o hələ dünyada olmayanda qələmə aldığı, 1931-ci ildə nəşr etdirdiyi ilk əsərinə "Şamo" adını vermişdi. Süleyman Rəhimov sonralar "Aynalı", "Qardaş qəbri", "Su pərisi", "Uğundu" və digər maraqlı əsərlər yazıb. Ancaq ilk əsərinin onun yaradıcılığında da, həyatında da fərqli yeri olub. Süleyman Rəhimov "Şamo" ilə vidalaşmayıb. 50 ilə yaxın böyük istəklə bu romanın üzərində çalışıb.

Şamo adı yazıçının özü kimi, bütün ailə üzvləri üçün doğma, əziz olub. Hər gün böyük sevgi ilə bu adı təkrar-təkrar çəkiblər. Çünki Süleyman Rəhimov "Şamo" romanının ilk variantının çap olunduğu vaxtda - 1931-ci il aprelin 2-də dünyaya göz açan oğluna həmin əsərinin qəhrəmanı Şamonun adını vermişdi. 5 il sonra dünyaya gələn Arif kiçik yaşlarından bu ada sevgini, ehtiramı görmüşdü.

Arifgil ailədə 6 uşaq - 4 qardaş, 2 bacı olublar. Ataları təkcə Azərbaycanda deyil, bütün keçmiş Sovet İttifaqı miqyasında tanınır, əsərləri çap olunurdu. Süleyman Rəhimovun ədəbiyyata vurğunluğu övladlarının da ömür yollarında sanki mayak idi. Onlar heç zaman ədəbiyyatın cazibəsindən uzaqlaşmamışlar. Sonralar hansı sənəti seçirlərsə-seçsinlər, ədəbiyyata qəlbən, ruhən bağlı olmuşlar.

Şamo Arif Rəhimov 1954-cü ildə Bakıda orta məktəbi bitirib Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) qəbul olub. 1959-cu ildən Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda (sonralar Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu) çalışıb. Elmə böyük maraq göstərən Arif Rəhimov böyük həvəslə araşdırmalar aparıb.

Arifin 29 yaşı olanda - 1965-ci ilin iyulunda ailələrində faciə baş verib. Onun sevimli qardaşı, gənc yaşlarından dünyaşöhrətli seysmoloq kimi tanınan, eyni zamanda ədəbi yaradıcılıqla məşğul olan, "Nizami" adlı dramın, "Cahanşah" adlı poemanın müəllifi Şamo Rəhimov 34 yaşında qəflətən vəfat edib. Onun vaxtsız ölümü ata-anasını, qardaş və bacılarını sarsıdıb. Arif Rəhimov əziz qardaşının xatirəsini yalnız qəlbində deyil, həm də adında yaşatmaq qərarına gəlib. Valideynlərinin razılığını alıb. O vaxtdan Şamo Arif olub.

Geologiya və minerologiya üzrə alim kimi tanınan Şamo Arifin dövri mətbuatda vaxtaşırı publisistik və elmi məqalələri dərc edilib. 1961-ci ildə Rahid Rəhimovla birgə çap etdirdiyi "Xəzər və neft" kitabı indiyədək aktualdır.

Gənclik illərindən dəqiq elmlərə böyük maraq göstərən Şamo Arif ədəbi fəaliyyətə də erkən başlayıb. "Qoşa çinar" hekayəsi ilk dərc edilən bədii əsəri olub. Sonralar "Göz dağı" povestini, "Anamın yuxusuna girməsi", "Qınamayın məni" romanlarını və başqa əsərlərini qələmə alıb. "Dədə Süleyman" adlı xatirələr toplusunu hazırlayıb.

1964-cü ildən Azərbaycan Yazıçılar İttifaqının (indiki Azərbaycan Yazıçılar Birliyi) üzvü olan Şamo Arifin əsərlərində insan taleyi, mənəvi dəyərlər, ailə münasibətləri, vicdan, vətən sevgisi böyük həssaslıqla təsvir edilib. Yazıçı oxucunu hadisələrin deyil, insan ruhunun dərinliklərinə aparmağı bacarıb.

Şamo Arif sadəliyi, zəhmətkeşliyi, yüksək mədəniyyəti ilə seçilən ziyalılarımızdan idi. O, cəsarətli, sözü üzə deyən idi. Heç zaman şöhrət ardınca qaçmazdı. Şamo onun üçün heç zaman təxəllüs olmayıb. Nakam qardaşının adını öz adından əvvəl yazdırıb.

Yazıçı, publisist, geoloq Şamo Arif Rəhimov 2012-ci il iyunun 16-da dünyadan köçüb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# ABŞ-də möhtəşəm uğur: Tarixi "Jordan Hall" səhnəsində azərbaycanlı tenorun heyranedici ifası

**ABŞ-nin Boston şəhərində yerləşən tarixi "Jordan Hall" konsert salonunda Boston Festival Orkestrinin müşayiətilə müasir klassik musiqinin görkəmli nümunələrindən biri - bəstəkar Kristofer Tinin "The Drop That Contained the Sea" vokal-simfonik əsəri səhnəyə qoyulub. 11 hissədən ibarət olan bu möhtəşəm əsərin "Haktan Gelen Şerbeti" adlı ikinci hissəsi böyük türk mütəfəkkiri Yunus Əmrənin sözlərinə bəstələnib və türk dilində səsləndirilib.**



AZƏRTAC xəbər verir ki, konsert zamanı bu hissənin solo partiyasını hazırda ABŞ-də təhsil alan və peşəkar fəaliyyətini uğurla davam etdirən azərbaycanlı opera ifaçısı Emin İsmayılov yüksək sənətkarlıqla təqdim edib. Gənc tenorun təsirli və peşəkar ifası tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb. Dünyanın müxtəlif dillərini və mədəniyyətlərini musiqi vasitəsilə bir araya gətirən bu layihədə türk dilindəki hissənin məhz azərbaycanlı sənətçi tərəfindən ifa olunması həm ölkəmiz, həm də ümumtürk mədəni irsi baxımından qürurverici hadisə, eyni zamanda Azərbaycan vokal sənətinin beynəlxalq arenada növbəti uğuru kimi qiymətləndirilib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının akademik vokal ixtisası üzrə məzunu olan Emin İsmayılov Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəvətli solisti kimi fəaliyyət göstərib. O, Almaniyanın nüfuzlu "İmmling" Beynəlxalq Opera Festivalında, həmçinin müxtəlif qlobal opera və simfonik-vokal layihələrində ölkəmizi uğurla təmsil edib.

Parlaq tenor səsi və yüksək vokal texnikası ilə seçilən Emin İsmayılovun zəngin repertuarına Verdi, Puççini, Donizetti, Motsart, Quno kimi dünyaşöhrətli klassiklərin əsərləri ilə yanaşı, Azərbaycan bəstəkarlarının da zəngin vokal irsi daxildir. Gənc opera ifaçısı həm opera səhnələrində, həm də irimiqyaslı vokal-simfonik layihələrdəki çıxışları ilə milli vokal məktəbimizi beynəlxalq səviyyədə layiqincə təbliğ edir.



# "Shahin Novrasli Festival-2026"nın bağlanışında Braziliya karnavalı

**Beşinci "Shahin Novrasli Festival"ı Braziliya musiqisinin canlı konserti ilə başa çatıb. Bağlanış mərasimi Qoşa Qala qapısının yaxınlığındakı açıq hava səhnəsində baş tutub və tədbiri əsl Braziliya karnavalına çevirib. Bu il festival bütövlükdə İçərişəhərdə keçirilib.**

Tədbirdə Bakı sakinləri və qonaqları, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər və media nümayəndələri bir araya gəliblər.

Tədbir başlamadan əvvəl "Shahin Novrasli Festival"ın təsisçisi və direktoru, tanınmış caz piano ifaçısı və Azərbaycanın Əməkdar artisti Şahin Növrəsli tamaşaçıları salamlayıb və festivalın keçirilməsini dəstəkləyən bütün sponsorlara, tərəfdaşlara və dostlara təşəkkür edib.

Qoşa Qala qapısının yaxınlığındakı səhnədə braziliyalı sənətçilər WINCK (vokal), Ayzek Camba (zərb alətləri), David Oliveyra (bas gitara), Luan Barbosa (milli zərb alətləri) və rəqqasə Ayşa çıxış etdilər.

AZƏRTAC-a verdiyi müsahibədə Şahin Növrəsli ongünlük festivala yekun vurub.

"Bu il çox şey dəyişdi. Yeniliklərdən biri də festivalın İçərişəhərdə keçirilməsidir ki, bu da möhtəşəmdir! Bilet əldə etməyən insanlar musiqini dinləyə bilirdilər. Yəni festival daha geniş auditoriya üçün əlçatan oldu ki, bu da çox yaxşıdır, bu, bizim xüsusilə xoşumuza gəldi.

İçərişəhər Bakının ürəyidir, burada çoxlu turist və qonaq var - onlar da musiqi dinləyə və "Shahin Novrasli Festival" haqqında məlumat əldə edə bildilər. Festivalı burada keçirmək imkanına görə İçərişəhər Dövlət Tarix və Memarlıq Qoruğu İdarəsinin rəhbərliyinə təşəkkürümü bildirirəm. Onlar kömək edirdilər, bizi dəstəkləyirdilər, ümid edirəm ki, onların da bu format xoşuna gəlib.

Bundan əlavə, bu il rebrendinq sayəsində əlavə miqyas qazandıq (festival əvvəllər "Bakı Piano Festivalı" adlanırdı - müəllif qeydi). Festival daha maraqlı hala gəldi, indi onu digər ölkələrdə də keçirmək və bir neçə günlük xaricə çıxarmaq olar. Mən onsuz da bütün dünyada çıxış edirəm, indi isə bunu "Shahin Novrasli Festival" çərçivəsində layihə kimi etmək olar", - deyə müsahibimiz qeyd edib.

Yubiley - beşinci "Shahin Novrasli Festival"da müxtəlif musiqi janrlarından ibarət geniş proqram təqdim olunub. Konsertlərdə həm Azərbaycan sənətçiləri, həm də Latın Amerikası ölkələri, Türkiyə, Gürcüstan, Fransa, Macarıstan, Rumıniya və İsraildən olan tanınmış musiqiçilər çıxış ediblər.

# "Azərbaycan mədəniyyətinin yay məktəbi" layihəsinin iştirakçıları Gəncədə

**Mədəniyyət Nazirliyinin və Azərbaycanın Özbəkistandakı səfirliyinin tabeliyində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan mədəniyyətinin yay məktəbi" layihəsi çərçivəsində iştirakçılar Gəncə şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin nəzdində Əlişir Nəvai adına Özbək Dili və Mədəniyyəti Mərkəzini ziyarət ediblər.**

Mədəniyyət mərkəzindən bildirilib ki, ziyarət zamanı iştirakçılara mərkəzin yaradılması, əsas fəaliyyət istiqamətləri, həyata keçirilən elmi tədqiqatlar və Azərbaycan-Özbəkistan elmi-mədəni əlaqələrinin inkişafındakı rolu barədə ətraflı məlumat verilib.



Burada Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrinə, xüsusilə Nizami Gəncəvi və Əlişir Nəvainin irsinə dair nəşrlər, tərcümə materialları və elmi-tədqiqat əsərləri toplanılıb. Qeyd olunub ki, mərkəz iki ölkənin alimləri arasında elmi əməkdaşlığın genişləndirilməsinə, ortaq ədəbi-mədəni irsin araşdırılmasına və gənc tədqiqatçıların bu sahəyə cəlb edilməsinə mühüm töhfə verir. Görüşün sonunda tələbələrin sualları cavablandırılıb.

## Dünya Çempionatı - 2026

# İnfantinodan Beynəlxalq Olimpiya Komitəsinə şikayət

**Beynəlxalq Olimpiya Komitəsi (BOK) FIFA prezidenti Canni İnfantino barədə şikayət alıb. ESPN xəbər verir ki, qeyri-kommersiya insan haqları təşkilatı "Fair Square" İnfantinonu ABŞ Prezidenti Donald Trampla münasibətlərində siyasi neytrallıq qaydalarını pozmaqda ittiham edib.**



Bildirilir ki, 2020-ci ildə BOK-a üzv olan İnfantino Olimpiya Xartiyasını və BOK-un Etik Kodeksini dəfələrlə pozub. Folarin Balogunla bağlı məsələ şikayətə əsas verib.

Xatırladaq ki, FIFA-nın İntizam Komitəsi ABŞ milli komandasının hücumçusunun diskvalifikasiyasını dayandıraraq ona DÇ-2026-nın 1/8 final mərhələsində Belçika ilə matçda oynamağa icazə verib. Məlumata görə, FIFA bu qərarı Canni İnfantinoya Ağ Evdən zəng gəldikdən sonra verib. ABŞ Prezidenti Donald Tramp məsələ ilə bağlı İnfantinoya zəng etdiyini və diskvalifikasiyanı yenidən nəzərdən keçirməsini istədiyini təsdiqləyib.

## Deşam məğlubiyyəti şərh edib



**Fransa millisinin baş məşqçisi Didye Deşam yarımfinalda İspaniyaya 0:2 hesabı ilə uduzduqları oyundan danışıb. "L`Equipe" xəbər verir ki, təcrübəli mütəxəssis rəqibin daha üstün çıxış etdiyini etiraf edib.**

"Əsas səbəb o idi ki, imkanlarımızdan bir qədər aşağı səviyyədə oynadıq və hücumda bacara biləcəyimiz qədər təhlükəli ola bilmədik. Texniki səhvlərimiz və qol vəziyyətinə çevrilə biləcək uğursuz ötürmələrimiz oldu. Bunu qəbul etməliyik, nə qədər ağır olsa da. Çox yüksəksəviyyəli futbol izlədik. Bu bizi mümkün finaldan ayıran son mərhələ idi. İndi isə üçüncü yer uğrunda oyunda çıxış edəcəyik. Bu məğlubiyyət indiyədək gördüyümüz işləri kölgə altına salmır. Sadəcə, bu matçda İspaniya bizdən daha yaxşı idi", - deyə çalışdırıcı deyib.

## İspaniyalı nazir çempion olacaqlarını deyir

**İspaniyanın idman naziri Milaqros Tolon yığmanın yarımfinalda Fransaya 2:0 hesabı ilə qalib gəlməsindən sonra iddialı açıqlama verib.**



O, komandasının mundialın qalibi olacağına inandığını bildirib: "Əla qələbə idi. Biz finala yüksələcəyimizi bilirdik. İndi isə dünya çempionu olacağıq".

## Fransada Zidan erası başlayır



**Fransa millisindən ayrılmağa hazrlaşan baş məşqçi Didye Deşamı Zinəddin Zidan əvəzləyəcək. Bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb.**

Mənbənin bildirdiyinə görə, ötən gecə komandanın yarımfinalda İspaniyaya uduzaraq mübarizəni dayandırmasından sonra Deşamın Fransa millisinin baş məşqçisi kimi fəaliyyəti başa çatıb. Onun rəhbərliyi altında yığma bir dəfə dünya çempionu olub, bir dəfə də mundialın finalına və yarımfinalına yüksəlib. Xatırladaq ki, 56 yaşlı Didye Deşam Fransa millisini 2012-ci ildən çalışdırırdı.

Romano qeyd edib ki, Fransa millisinin yeni baş məşqçisi vəzifəsini Zinəddin Zidan tutacaq.

## "Finala çıxmaq üçün kifayət qədər yaxşı deyildik"

**Fransa millisinin kapitanı Kilian Mbappe yarımfinalda İspaniyaya 0:2 hesablı məğlubiyyəti şərh edib.**

Hücumçu komandasının matçda öz oyununu göstərə bilmədiyini bildirib: "Düşünürəm ki, həm texniki, həm də taktiki baxımdan öz oyunumuzu oynamadıq. Dünya çempionatının yarımfinalında etməli olduğunuz işləri görmədikdə qalib gələ bilməzsiniz. İspaniya isə öz oyun planına sadiq qaldı".

Mbappe Fransa millisinin finala yüksəlməyə layiq olmadığını etiraf edib: "Düzünü desəm, finala çıxmaq üçün kifayət qədər yaxşı deyildik. Arzumuz finala yüksəlmək idi, amma alınmadı".






## Mundialın bağlanış mərasimində iştirak edəcək ulduzlar məlum olub

**FIFA-nın rəsmisi xəbər verir ki, mərasim iyulun 19-da, turnirin final matçından əvvəl Nyu Cersidəki "Metlayf" stadionunda baş tutacaq.**

ABŞ-li aktyor Tom Kruz bağlanış mərasiminə qatılacaq. Mərasimdə müğənnilər Laura Pauzini, Nikol Şerzinger, Robbi Uilyams və bloqer IShowSpeed çıxış edəcəklər. "Oskar", "Emmi", "Qremmi" və "Toni" mükafatları sahibi Cennifer Hadson isə ABŞ-nin Dövlət himnini oxuyacaq.

Xatırladaq ki, daha əvvəl final oyununun fasiləsində Şakira, Madonna, Castin Biber və "BTS" qrupunun çıxış edəcəyi bildirilmişdi.

## Fransa-İspaniya oyununun ən yaxşısı Pedro Porro oldu

**Fransa və İspaniya yığmaları arasında keçirilən 1/2 final matçının ən yaxşı oyunçusu bəlli olub.**



FIFA-nın rəsmi saytı xəbər verir ki, İspaniya millisinin müdafiəçisi Pedro Porro oyunun ən yaxşısı adına layiq görülüb. O, 2:0 hesabı ilə qalib gəldikləri matçda komandasının 2-ci qolunu vurub.

## De la Fuente hakimdən narazı qalıb



**İspaniya millisinin baş məşqçisi Luis de la Fuente Fransaya 2:0 hesabı ilə qalib gəldikləri oyundan sonra hakimlikdən narazılığını ifadə edib.**

Təcrübəli mütəxəssis referi İvan Arsides Barton Sisnerosun rəqibə qarşı həddindən artıq yumşaq davrandığını bildirib: "Baş hakim rəqibə çox şeyə icazə verirdi, çoxsaylı kobud qayda pozuntularına göz yumurdu. Biz artıq Uruqvayla matçda da buna bənzər xoşagəlməz vəziyyətlə üzləşmişdik. Bu, ədalətsizlik idi".

*Hazırladı:*
***Dönməz ABBASOV***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
ŞUŞADAN DÜNYAYA BAXIŞ
Slovakiya Qarabağın bərpasında fəal iştirak edir
Slovakiya Respublikasının Prezidenti Azərbaycanda rəsmi səfərdədir
Parlamentin növbədənkənar sessiyası başa çatdı
XXI əsrin çağırışlarına Şuşadan verilən cavab
Azərbaycan-Slovakiya münasibətlərinin təməli - qarşılıqlı maraqlara xidmət edən iqtisadi əməkdaşlıq
Paşinyanın "demokratik" diktaturası
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə keçirilən minifutbol turniri başa çatıb










**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və tabe təşkilatı Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının (AHİİTA) birgə təşkil etdiyi "Sağlam həmkar" minifutbol turnirinə final oyunu ilə yekun vurulub.**

Final qarşılaşmasından əvvəl iştirakçılar və azarkeşlər üçün maraqlı idman proqramı təqdim olunub. Meydançaya karate üzrə Avropa çempionu Mədinə Sadıqova, yunan-Roma güləşi üzrə dünya çempionu Əli Nəzərov və Avropa çempionu Emin Cavadlı dəvət olunub. İdman musiqisinin sədaları altında AHİİTA-nın idmançıları nümunəvi çıxışlar ediblər.

Sonra turnirin final görüşünə start verilib. Final oyununda Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqının komandası ilə Aqrar, Ekologiya və Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin komandası qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən və tamaşaçıların böyük marağına səbəb olan oyunun yekununda Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqının komandası 2:1 hesablı qələbə qazanaraq turnirin qalibi olub.

Beləliklə, yekun nəticələrə əsasən, birinci yeri Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqının komandası, ikinci yeri Aqrar, Ekologiya və Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin komandası, üçüncü yeri isə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin komandası tutublar.

Qaliblərə kubok, medal və diplomlar təqdim edilib. "Ən yaxşı oyunçu", "Ən yaxşı qapıçı" və "Ən məhsuldar futbolçu" nominasiyaları üzrə qaliblər isə xüsusi mükafatlarla təltif olunublar.

İyunun 6-da start götürən "Sağlam həmkar" minifutbol turnirində ümumilikdə AHİK-in üzv təşkilatlarını təmsil edən 17 komanda 4 qrup üzrə mübarizə aparıb. Turnirin keçirilməsində məqsəd sağlam həyat tərzinin təbliği, əmək kollektivlərində həmrəyliyin və komanda ruhunun möhkəmləndirilməsi, eləcə də işçilərin asudə vaxtlarının səmərəli təşkilinə töhfə verməkdir.

***N.ƏSGƏROVA,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Akif Təvəkküloğluna anası

**SUQRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əhməd Əhmədzadə Zakir Quliyevə əzizi

**ŞAMİL QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi sədrin köməkçisi İlyas Qasımova atası

**ŞAMİL QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı İlham Bağışova əzizi

**ƏRƏBXAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3185**
Sifariş **898**

Qiyməti 60 qəpik